# Xalq qəzeti

Xalqın qəzeti!

№ 208 (30324) 26 sentyabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Əgər 3 il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, 5 gün əvvəl biz suverenliyimizi tam təmin etdik.**

# Azərbaycan–Türkiyə əlaqələri ən yüksək zirvədədir

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri

### Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanma



**Sentyabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Naxçıvan Beynəlxalq Hava Limanında Türkiyə dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

### Rəsmi qarşılanma mərasimi



**Sentyabrın 25-də Azərbaycana rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Türkiyənin və Azərbaycanın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

# Paşinyanın xalqa müraciəti

## *yoxsa anti-Rusiya manifesti?*

**Azərbaycanın Qarabağda keçirdiyi lokal antiterror tədbirlərinin uğuru Ermənistandakı siyasi gərginliyi və kütləvi etirazları gücləndirib. Baş nazir Nikol Paşinyanın xalqa müraciətindəki ayrı-ayrı məqamlar da bunu təsdiqləyir. Ancaq Nikol problemə bir qədər fərqli yanaşır. Yazımızda bu barədə söz açacağıq.**



Əlbəttə, erməni baş nazirin anti-Azərbaycan ritorikası anlaşılandır. Başqa nə deməlidir ki? Hər halda, ordumuzun peşəkar fəaliyyətindən, cəmi 23 saat 43 dəqiqə ərzində Qarabağdakı separatçıları diz çökdürməsindən danışa bilməz. Amma, Paşinyanın hədəfi məlumdur – Rusiya. Qətiyyətlə demək olar ki, baş nazirin müraciəti Ermənistanın 2018-ci ildən bəri həyata keçirdiyi anti-Rusiya siyasətinin kulminasiya nöqtəsidir. Azərbaycanın qətiyyətli davranışı isə bu siyasət üçün yalnız katalizatordur. Nikolun manifestindəki fikirlər onu deməyə əsas verir ki, Ermənistan hakimiyyəti ölkənin Rusiya ilə bağlarını tamamilə qırmaq xəttini seçib. Sabah baş nazir durub desə ki, Gümrüdəki 102-ci rus hərbi bazası ölkəni tərk etməlidir, heç kəs təəccüblənməyəcək...

*(ardı 4-cü səhifədə)*

# Haradan gəlmişik və haraya gedirik?

## Erməni avantürizmi dünəndən bu günə



**Qarabağda erməni iddiaları yenicə baş qaldırmışdı. Cəmiyyətin bütün diqqəti bölgəyə yönəlmişdi. Hadisələr bu qədim diyarımızın bizdən tədricən ayrı salınması "ssenarisinin" var gücü ilə işə salındığını deməyə əsas verirdi. Qeyri-müəyyənlik və pərakəndəlik də bir tərəfdən əsəbləri tarıma çəkirdi. O zaman AZƏRTAC-da müxbir idim. Öz-özümə düşünür və sual edirdim: Yəni, Qarabağ bizim olmayacaq? Niyə? Nə səbəbə? İçimdə bu suallarla üsyan qaldıran fikirlər mənə rahatlıq, dinclik vermirdi. Elə bilirəm, o dövrün gənclərinin çoxunun düşüncəsinə belə narahatlıqlar hakim kəsilmişdi. Ancaq onlardan fərqli olaraq, mən dövlətin informasiya agentliyində idim. Bu, gerçəkliyi görmək üçün əlavə şans yaradırdı. Eyni zamanda, gerçəklikdən, müəyyən mənada, xəbərdar olub danışa bilməmək kimi bir durum da içimi yeyirdi.**

*(ardı 5-ci səhifədə)*




# Hayastanın yol xəritəsi Bakıda çəkilir

**Ədalətə, qətiyyət və cəsarətə söykənən diplomatiya heç vaxt uğursuzluğa düçar ola bilməz. Bunu həm uzaq, həm də yaxın tarix sübuta yetirib. Tarixdə izi və sözü olan tanınmış şəxsiyyətlərin bu barədə maraqlı fikirləri var. Onlardan biri – Uinston Çörçill belə deyib: "Heç vaxt təslim olmayın. Hər bir işdə, kiçik və ya böyük, vacib, yaxud qeyri–vacib olsun, daim öz mövqeyinizdə qalın...". Daha sonra dahi ingilis siyasətçisi fikirlərinə bu cür yön verib: "Əgər güzəştə gedirsinizsə, yalnız şərəf və sağlam düşüncəyə güzəştə gedin".**

*(ardı 4-cü səhifədə)*

# "Ağıllı sənaye" ölkəmizdə tərəqqini sürətləndirəcək



**Dünən Bakıda "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində "Milli iqtisadiyyatda 4-cü sənaye inqilabı texnologiyalarının tətbiqi"nə həsr olunmuş "Yeni nəsil iqtisadiyyatda süni intellekt: çağırışlar və imkanlar" mövzusunda tədbir keçirilib.**

Tədbirdə çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov bildirib ki, texnologiyanın sürətli inkişafı və qabaqcıl "Generative Pre-Trained Transformator" (GPT) modellərinin yaranması satınalmalar üçün standartların işlənib hazırlanmasına böyük ehtiyac doğurur. Bu sahədə yeni qaydaların və prosedurların hazırlanmasının vacibliyini vurğulayan nazir müavini deyib ki, müəssisələr daxilində satınalma prosesini daha səmərəli təşkil etmək üçün rəhbər heyət təşkilatın süni intellekt strategiyasının vahid planını müəyyənləşdirməlidir.

*(ardı 7-ci səhifədə)*

# Şuşa İslam dünyasının da mədəniyyət paytaxtı elan edildi




Səhifə ⇨ 11

# Prezidentlərin təkbətək görüşü



**Sentyabrın 25-də Naxçıvanda rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.**

# Azərbaycan–Türkiyə sənədləri imzalanıb



**Sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimindən sonra Azərbaycan-Türkiyə sənədləri imzalanıb.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nu imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi"ni Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və Türkiyə Respublikasının ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Mehmet Özhaseki imzaladılar.

"Azərbaycan Respublikasında və Türkiyə Respublikasında bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar imzaladılar.

# Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışı olub



**Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında iştirak ediblər.**



Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov dövlət başçılarına raport verdi.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin rəmzi açılışını bildirən lenti kəsdilər.

Məlumat verildi ki, hərbi kompleks müxtəlif növ tank, zirehli döyüş maşını və transportyorların, artilleriya qurğu və sistemlərinin, hava hücumundan müdafiə vasitələrinin, atıcı silahların, mühəndis texnikasının, rabitə avadanlıqlarının, optik cihazların təmirini və modernləşdirilməsini, müxtəlif növ daxiliyanma mühərriklərinin təmirini və stend üzərində yoxlanılmasını, qeyd olunan bütün vasitələr üzərində detal və avadanlıqların dəyişdirilməsini və test edilməsini həyata keçirmək imkanına malikdir. Hərbi kompleks 1 mərkəzdən, 8 təmir müəssisəsindən və 10 sahədən ibarətdir. Burada müxtəlif növ texnikaların təmiri və bərpası üçün 300-dən çox avadanlıq quraşdırılıb. Eyni zamanda, idarəetmə, yataqxana və təminat binası inşa edilib.

Hərbi hissənin zirehli və avtomobil texnikaları parkında texniki nəzarət məntəqəsi, texniki qulluq və təmir məntəqəsi binaları, ümumi texnika tutumu 284 yer olan 4 saxlanc, yanacaqdoldurma, yuma və gündəlik texniki qulluq məntəqələri inşa olunub.

"Naxçıvan Mərkəzi Təlim-Tədris Sahəsi" taktiki və idman sahələrindən, atış, artilleriya, mühəndis, kəşfiyyat, rabitə, kimya və qarovul şəhərciklərindən ibarətdir. Kompleksə yüksək səviyyədə təchiz olunmuş idman şəhərciyi də daxildir.

# İğdır–Naxçıvan qaz kəmərinin təməli qoyulub

**Sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi keçirilib.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Dövlət başçıları İğdır-Naxçıvan qaz kəmərinin təməlini qoydular.

Qeyd edək ki, İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmış olacaq. 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək.

Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

# Liderlər mətbuata bəyanatlarla çıxış ediblər

**Sentyabrın 25-də Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.**



## Prezident İlham Əliyevin bəyanatı

- Əziz qardaşım.

Hörmətli qonaqlar.

Naxçıvana xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram.

Əziz qardaşım, bu, Sizin Naxçıvana ikinci səfərinizdir və səfər zamanı imzalanmış sənədlər Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına xidmət göstərəcək.

İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisədir və bizim əlaqələrimizə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək.

Naxçıvan Azərbaycanın qədim diyarıdır. Əfsuslar olsun ki, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi. Burada da şiddətli döyüşlər gedirdi və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə, - o zaman o, Naxçıvanın başçısı idi, - Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bildi. Ancaq o vaxt Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən olduğu üçün Ermənistan bütün elektrik və qaz xətlərini kəsmişdi və Naxçıvan faktiki olaraq mühasirədə idi. İşıq yox, qaz yox, qışlar da çox soyuq keçir və 15 il Naxçıvan qazsız yaşamışdır.

Ancaq 2005-ci ildə İran İslam Respublikası ilə imzalanmış anlaşmaya görə, mübadilə yolu ilə İrandan Naxçıvana qazın verilməsi təmin edilmişdir. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi isə ikinci xətt vasitəsilə Naxçıvana təbii qazın verilməsinə şərait yaradacaq.

Bir neçə gündən sonra, daha doğrusu, üç gündən sonra Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcəkdir və əminəm ki, bu forumun nəticələri uğurlu olacaq. Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda, su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır.

Beş gün bundan əvvəl Azərbaycan öz suverenliyini tam təmin etmişdir. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, beş gün əvvəl biz suverenliyimizi tam təmin etdik, bərpa etdik. 24 saat ərzində, ondan da az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, bizim şərtlərimizi qəbul etdi və beləliklə, Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir.

Beş gün keçməsinə baxmayaraq, artıq Azərbaycandan onun Qarabağ bölgəsinə, orada yaşayan erməni əhalisinə humanitar yardımlar göndərilməsinə başlanmışdır. Yanacaq - neft, dizel, benzin, ərzaq məhsulları, dərman preparatları və digər humanitar yardım edilir və bu, bir daha onu göstərir ki, Qarabağ bölgəsində yaşayan insanlar milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşlarıdır, onların təhlükəsizliyi, hüquqları Azərbaycan dövləti tərəfindən təmin ediləcəkdir.

Bir neçə gün bundan əvvəl Qarabağ ermənilərinin nümayəndələri ilə Azərbaycanın dövlət strukturlarının nümayəndələri arasında Yevlax şəhərində görüş keçirilmişdir. Bu gün ikinci görüş keçirilir, onun nəticələri haqqında mənə hələ ki, məlumat verilməmişdir. Ancaq Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiya prosesi, əminəm ki, uğurla gedəcək.

Əziz qardaşım, bu hadisə baş verəndə Siz Amerikada, Nyu-Yorkda idiniz, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında iştirak etmişdiniz və orada dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən bəyanatlar vermişdiniz, ədalətli bəyanatlar vermişdiniz, tamamilə beynəlxalq hüquqa əsaslanmış bəyanatlar vermişdiniz: Qarabağ Azərbaycan torpağıdır. Bu, həm həqiqətdir, eyni zamanda, beynəlxalq hüquqa tam uyğundur. Eyni zamanda, Türkiyə tərəfindən göstərilən növbəti qardaşlıq addımıdır. İkinci Qarabağ müharibəsi zamanı Siz və bütün Türkiyə xalqı bizim yanımızda idi. Müharibənin ilk saatlarında "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməyiniz bir çoxları üçün ciddi siqnal idi, mesaj idi. Azərbaycan xalqı bu siyasi və mənəvi dəstəyi heç vaxt unutmur və unutmayacaq.

İki il bundan əvvəl Şuşa şəhərində - uzun zaman davam edən işğaldan sonra azad edilmiş Şuşa şəhərində Şuşa Bəyannaməsi - müttəfiqlik bəyannaməsi bizim münasibətlərimizi yeni müstəviyə qaldırdı. Bu gün bu əlaqələr ən yüksək zirvədədir və bütün istiqamətlər üzrə biz indi əlaqələrimizin çox fəal dövrünü yaşayırıq. Bu gün təməlini qoyduğumuz İğdır-Naxçıvan qaz xətti - vaxtilə biz Sizinlə TANAP layihəsinin təməlini qoymuşduq, TANAP boru xəttinin açılışını bərabər etmişdik - bu gün isə Türkiyədən Azərbaycanın parçası olan Naxçıvana qaz kəmərinin inşası ilə bağlı işlərə start veririk. Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da tarixi hadisədir. Əminəm ki, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcəkdir.

Biz bu gün Sizinlə, eyni zamanda, Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi apardıq və mən Sizə məlumat verdim ki, yaxın aylarda bu yolun imkanları 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşası da uğurla gedir. Azərbaycan ərazisində işlər böyük ehtimalla gələn ilin sonunda başa çatmalıdır. Yəni, bütün bu tarixi layihələr bir daha onu göstərir ki, bizim dövlətlərimiz nə qədər bir-birinə bağlıdır, bir-birinə yaxındır. Biz bir-birimizə dəstək verməklə, eyni zamanda, regional məsələləri də düz istiqamətə yönəldirik. Yəni, bizim müştərək maraqlarımız ondan ibarətdir ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibələr olmasın, ölkələrin ərazi bütövlüyü təmin edilsin. Azərbaycana göstərdiyiniz dəstək həm İkinci Qarabağ müharibəsi zamanı, həm ondan əvvəl, həm də ondan sonra məhz bu məqsədə çatmaq üçün önəmli amildir.

Biz Azərbaycanda həqiqətən tarixi anlar, günlər, illər yaşayırıq. İkinci Qarabağ müharibəsi, tarixi Zəfərimiz, beş gün bundan əvvəl uğurlu əməliyyat nəticəsində suverenliyimizin bərpası tarixi hadisələrdir və haqlı olaraq bununla qürur duyuruq.

Bütün istiqamətlər üzrə, o cümlədən ticarət dövriyyəmizin artırılması istiqamətində önəmli addımlar atılmışdır. Bizim ticarət dövriyyəmiz keçən il 6 milyard dollardan çox olub. Ancaq bu ilin yeddi ayında 40 faiz daha artmışdır və əminəm ki, daha da artacaq. Düzdür, hədəf çox, yəni yüksək rəqəmlərlə ölçülür. Bir müddət bundan əvvəl 15 milyard dollar ticarət dövriyyəsi hədəfləmişdik. O zaman ticarət dövriyyəsi təqribən 2 milyard dollar idi. Amma indi 6 milyard dolları ötübdür, yəqin ki, yaxın gələcəkdə buna da çatacağıq. Preferensial ticarət anlaşması da imzalanmışdır və o siyahıda olan məhsulların sayı da artır. Ona görə əminəm ki, biz buna da uğurla çatacağıq.

Əziz Qardaşım, hörmətli qonaqlar, Sizi Naxçıvanda bir daha səmimiyyətlə salamlayıram. Sizə Azərbaycan xalqının hədsiz məhəbbət və sevgisini bir daha ifadə edirəm. Sizə və qardaş Türkiyə xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

*

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

**(ardı 3-cü səhifədə)**

# Liderlər mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)

### Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı



- Hörmətli Prezident, Əziz Qardaşım.
Xanımlar, cənablar.
Hörmətli mətbuat nümayəndələri.

Sizi öz adımdan və nümayəndə heyətim adından ən səmimi hisslərlə salamlayıram.

Prezident seçkilərindən sonra ilk səfərimi iyun ayında Şimali Kipr Türk Respublikası ilə birlikdə Bakıya etmişdim. Bu dəfə sizinlə Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyuram. 2008-ci ildəki son səfərimdən etibarən Naxçıvanın əldə etdiyi inkişafı qürurla müşahidə etdim. Naxçıvanın bugünkü səviyyəyə çatmasında böyük payı olan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevi anadan olmasının 100-cü ildönümündə bir daha ehtiramla yad edirəm.

Türkiyə-Azərbaycan əlaqələri dünyada tayı-bərabəri olmayan müstəsna səviyyədədir. "Bir millət, iki dövlət" şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. İlham qardaşımla imzaladığımız Şuşa Bəyannaməsi əlaqələrimizi müttəfiqlik səviyyəsinə yüksəldən bir dönüş nöqtəsidir. Naxçıvan tarix boyu daşıdığı strateji əhəmiyyəti ilə Azərbaycanla əlaqələrimizdə xüsusi yerə sahibdir. Naxçıvan bu gün də iqtisadiyyat, nəqliyyat və enerji xətləri baxımından böyük potensiala malikdir. Regional nəqliyyat xətlərinin yaradılması ilə birlikdə bu potensialı tam mənasında həyata keçirmək imkanına sahib olacağıq.

Xəzər dənizindən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizin əhəmiyyəti koronavirus pandemiyası və bölgəmizdə yaşanan müharibələr nəticəsində daha yaxşı dərk edilmişdir. Bu baxımdan bir qədər əvvəl təməlini qoyduğumuz İğdır-Naxçıvan qaz kəməri layihəsi Azərbaycan ilə enerji sahəsində ortaqlığımızı daha da dərinləşdirəcəyi kimi, Avropanın enerji təhlükəsizliyinə də töhfə verəcək. Qars-Naxçıvan dəmir yolu layihəsi ilə yanaşı, yaşayış binaları və elektrik enerjisi ilə bağlı müqavilələr bir az əvvəl imzalandı. Beləliklə, nəqliyyat, logistika və enerji sahələrindəki əlaqələrimizi inkişaf etdirməklə bağlı iradəmizi bir daha ortaya qoyduq.

Azərbaycanlı qardaşlarımıza 6 fevraldakı zəlzələlərin yaralarının sağalmasına verdikləri güclü dəstək üçün öz adımdan və millətim adından bir daha təşəkkür edirəm. Varını-yoxunu avtomobilinin üzərinə yükləyib millətimizə yardım etmək üçün yola çıxan qardaşlarımızın səmimiyyətini heç vaxt unutmayacağıq.

Mətbuata bəyanatlarımızdan sonra modernləşməsini həyata keçirdiyimiz bərpa-istehsalat hərbi kompleksinin açılışını edəcəyik. Bu layihə də müdafiə sənayesi sahəsində əməkdaşlığımıza ciddi töhfələr verəcək.

Hörmətli mətbuat nümayəndələri, son günlərdə bölgəmizdə kritik proseslər yaşandı. Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra keçən üç ilə yaxın müddətdə dəfələrlə ifadə etdiyi legitim və haqlı narahatlıqları ilə bağlı lazımi cavabı təəssüf ki, tapa bilmədi, nəticədə özünün suveren ərazilərində antiterror tədbirləri həyata keçirmək məcburiyyətində qaldı. Bu tədbirlərin son dərəcə qısa müddətdə, mülki şəxslərin hüquqlarına yüksək həssaslıq göstərilərək uğurla başa çatdırılması bizim üçün qürur mənbəyi olmuşdur. Tədbirlər zamanı şəhid olan qardaşlarımıza Allahdan rəhmət, yaxınlarına başsağlığı diləyirəm. Yaralılarımıza tezliklə şəfa tapmalarını arzulayıram.

Naxçıvanın görkəmli şairi, Mehmet Akifin əqidə yoldaşı mərhum Hüseyn Cavidin bir əsr əvvəl etdiyi bu duasının qəbul olunduğunu görməyin xoşbəxtliyini yaşadıq:

***Hər bəladan əsirgə yurdumuzu,***
***Kamran eylə şanlı ordumuzu...***

Müzəffər Azərbaycan Ordusunu həm tarixi qələbəsi, həm də mülki şəxslərə göstərdiyi humanist davranışı münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycanlı qardaşlarımızı Türk millətinin ədalət və mərhəmətini bir daha bütün dünyaya göstərmişlər.

Son zəfərlə birlikdə bölgədə əhatəli normallaşma üçün yeni fürsət pəncərələri açılmışdır. Bu fürsətin dəyərləndirilməli olduğuna inanıram. Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik. Hər zaman vurğuladığım kimi, sülhün uduzanı olmaz. Bölgəmizdə sülh, sabitlik və rifahın yaranması xalqlarımıza olan borcumuzdur. Biz bu borcu yerinə yetirməkdə qətiyyətliyik, səmimiyik. Arzumuz qarşı tərəfin də eyni səmimiyyəti göstərməsidir.

Bu düşüncələrlə Can Azərbaycanda olmaqdan duyduğum məmnunluğu bir daha ifadə edirəm. Mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərlik üçün Prezident, qardaşım cənab Əliyevə və azərbaycanlı qardaşlarımıza bir daha təşəkkür edirəm. Rəbbim sevgimizi, qardaşlığımızı daimi etsin. Sağ olun.

# Ali qonağın şərəfinə rəsmi nahar

**Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi nahar verilib.**

# Səfər başa çatdı



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri sentyabrın 25-də başa çatıb.**

Naxçıvan Beynəlxalq Hava Limanında Türkiyə dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı yola saldı.

**AZƏRTAC**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü kimi, Qarabağda qanunsuz erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən antiterror tədbirlərinin uğurla başa çatması münasibətilə Zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

30 illik işğaldan azad edilmiş və Ana Vətənə qovuşmuş Qarabağda, inşallah, bundan sonra əmin-amanlıq hökm sürər.

**Hörmətlə,**

**Volkan BOZKIR,**
**Səfir, BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü**

# Xankəndidə yaralananlara tibbi yardım göndərilib

**2023-cü il sentyabrın 25-də Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində partlayış baş verib.**




Məlumatlara əsasən, hadisə nəticəsində çoxlu sayda ölən və yaralananların olduğu bildirilir.

Bununla əlaqədar yaralanan şəxslərə yardım məqsədilə ilkin olaraq 200 nəfərin müalicəsi üçün yanığa qarşı tibbi ləvazimatlar, sarğı materialları, əlcəklər, dərman preparatları (spreylər, kremlər, ağrıkəsicilər, antibiotiklər və s.) daşıyan təcili tibbi yardım maşını Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə yola salınıb.

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası**

# Heydər Əliyev Fondu millət vəkili Qənirə Paşayevanın müalicəsini nəzarətə götürüb

**Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, millət vəkili Qənirə Paşayevanın müalicəsi fond tərəfindən nəzarətə götürülüb.**

Fondun təşkilatçılığı ilə Türkiyə Cümhuriyyətindən yüksəkixtisaslı reanimatoloq həkim dəvət olunub. Həmin mütəxəssis həkim tərəfindən xəstə dəyərləndirilib və lazımi məsləhətlər verilib.

"Hazırda xəstənin müalicəsi Reanimasiya və intensiv terapiya şöbəsində süni tənəffüs aparatında davam etdirilir və lazımi kompleks reanimasiyon tədbirlər həyata keçirilir. Müalicə zamanı tibbin bütün imkanlarından istifadə olunur. Xəstənin müalicəsi üçün Türkiyə Cümhuriyyətinin ən aparıcı xəstəxanalarından olan həmkarlarımızla daimi əlaqə saxlanılır və konsultasiyalar aparılır," – deyə yayılan məlumatda bildirilir.

Xatırladaq ki, sentyabr ayının 23-də millət vəkili Paşayeva Qənirə Ələsgər qızı septiki şok vəziyyətində Mərkəzi Klinik Xəstəxanaya təxliyə olunub.

**XQ**

# Milli Məclisdə Qərbi Azərbaycan dinləmələri

**Milli Məclisdə Qərbi Azərbaycanla bağlı ictimai dinləmələr ənənəyə çevrilib. Dünən Milli Məclisdə parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin təşkilatçılığı ilə növbəti dinləmə keçirilib. Budəfəki ictimai dinləmənin mövzusu "Qərbi Azərbaycana qayıdış: Hüquqi aspektlər" olub. Tədbirdə azərbaycanlıların indiki Ermənistandan – öz dədə-baba yurdlarından kütləvi şəkildə didərgin salınması, Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri, ermənilər tərəfindən törədilmiş cinayətlərin hüquqi baxımdan qiymətləndirilməsi və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.**



Qeyd olunub ki, Qərbi Azərbaycana qayıdışla bağlı hüquqi aspektlərin arasında Ermənistan və onların havadarları tərəfindən Qərbi Azərbaycanda yaşamış soydaşlarımıza qarşı əsrlər boyu törədilən cinayətlərin müəyyən edilməsi, sübuta yetirilməsi, qanunvericilikdə nəzərdə tutulan qaydada və beynəlxalq standartlara uyğun rəsmiləşdirilməsi, mümkün təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi önəmli rol oynayır.

Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli ictimai dinləmədə çıxışı zamanı bildirib ki, 1999-cu il mayın 21-də "Qaçqınların və məcburi köçkünlərin statusu" haqqında Qanun qəbul olunub. Həmin qanunu ulu öndər Heydər Əliyev imzalayıb. İcma sədri deyib ki, artıq bu gün məcburi köçkün anlayışı Azərbaycan üçün tarixin arxivinə gömülməkdədir. O, həm bu səbəbdən, həm də Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına uyğunlaşdırmaq baxımından bu qanuna yenidən baxılmasının və "Qərbi Azərbaycan qaçqınlarının statusu" haqqında ayrıca qanun qəbul olunmasının vacibliyini qeyd edib.

Ə.Ələkbərli deportasiya zamanı Ermənistan tərəfindən fərdi təsərrüfatlar üzrə 2,5 milyard, ictimai təsərrüfatlar üzrə 17,5 milyard ABŞ dolları həcmində maddi ziyan vurulduğunu diqqətə çatdırıb.

Baş prokurorun müavini Elmar Camalov tədbirdə çıxışı zamanı bildirib ki, 2023-cü il martın 30-da baş prokuror Kamran Əliyev tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (Soyqırımı), 107 (Əhalinin deportasiya etmə və ya məcburi köçürmə), 109 (Təqib) və 120.2-4, 120.2.7 (Qəsdən adam öldürmə) maddələri ilə cinayət işi başlanmış və cinayət işinin aparılması Respublika Baş Prokurorluğunun İstintaq İdarəsinə həvalə olunub. O diqqətə çatdırıb ki, bu barədə tədqiqat aparılmış, bir sıra araşdırmaçılar sübutların toplanması məqsədilə cinayət təqibi prosesinə mütəxəssis qismində cəlb olunub. Tarixçi və dilçi alimlər dindirilmiş, çoxsaylı kitablar və tarixi sənədlər iş materiallarına əlavə edilib və digər bu kimi zəruri prosessual tədbirlər icra olunub.

Çıxış edənlər soydaşlarımızın Qərbi Azərbaycana sülh yolu ilə qayıdacaqlarına, bu prosesin silah və tankla deyil, Prezident İlham Əliyevin dəmir iradəsi ilə baş verəcəyinə əminliklərini bildiriblər. Bunun üçün hüquqi sənədlərin olması çox vacibdir.

Dinləmədə Milli Məclisin deputatları, Qərbi Azərbaycan İcmasının üzvləri, hüquq-mühafizə orqanlarının təmsilçiləri, hüquqşünas alim və tədqiqatçılar, vətəndaş cəmiyyətinin nümayəndələri və ekspertlər iştirak ediblər.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Baş prokuror Londonda

**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının 28-ci illik konfransı və ümumi yığıncağında iştirak etmək məqsədilə Londona işgüzar səfərə gedib.**



Konfransın açılış mərasimində İngiltərə və Uelsin Baş prokuroru Viktoriya Prentis, Kral Prokurorluq Xidmətinin rəhbəri Maks Hill və Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti Xuan Batista Mahikes qonaqları salamlayaraq, tədbirin cinayətkarlığın müasir təzahürlərinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın uğurla davam etdirilməsinə müsbət töhfə verəcəyini vurğulayıb, konfransın işinə uğurlar arzulayıblar.

Sentyabrın 25-də konfransın plenar sessiyasında çıxış edən Baş prokuror Kamran Əliyev ölkəmizin prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlardan danışaraq, müasir dövrdə prokurorluğun cinayətkarlıqla mübarizədə rolundan və bu sahədə beynəlxalq əməkdaşlığın önəmindən bəhs edib.

Bundan başqa, konfrans çərçivəsində Kamran Əliyev Türkiyə, Səudiyyə Ərəbistanı, Fələstin, Tailand, Gürcüstan, Lixtenşteyn, Moldova, Tacikistan və digər dövlətlərin baş prokurorları və nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə görüşlər keçirib. İkitərəfli hüquqi əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olunmaqla yanaşı, Baş prokuror sentyabrın 19-da Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Qarabağ bölgəsində aparılan lokal antiterror tədbirləri barədə həmkarlarını məlumatlandırıb.

Baş prokurorun Londona işgüzar səfəri çərçivəsində Birləşmiş Krallığın Milli Cinayət Agentliyində (NCA) iktidarəfli görüş keçirilib. Əməliyyatlar üzrə Baş direktor Rob Consla görüşdə ölkələrimiz arasında transmilli cinayətkarlıqla, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və sair mütəşəkkil cinayətlərə qarşı effektiv mübarizə məsələləri müzakirə olunub.

Görüşdə ölkəmizin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanov iştirak edib.

Nümayəndə heyətinin Birləşmiş Krallığa səfəri davam edir.

**XQ**

# Paşinyanın xalqa müraciəti

## yoxsa anti-Rusiya manifesti?



(əvvəli 1-ci səhifədə)

N.Paşinyan müraciətinin ilk cümləsindəcə ölkəsinin xarici təhlükəsizlik məsələsini qabardır. Onun Azərbaycan təhlükəsindən söz açması daha çox mövzunu Rusiyaya yönləndirmək məqsədini daşıyır. Nikol bildirir ki, sentyabrın 19-da başlanmış antiterror tədbirləri Rusiyanın Qarabağdakı sülhməramlı hərbi kontingentinin məqsəd və motivləri barədə ciddi düşünməyə əsas yaradır.

Məlum olduğu kimi, hazırda Qarabağdakı erməni əhalisindən bölgəni tərk edənlər var. Sülhməramlı kontingent isə əraziyə həm də Paşinyanın imzası ilə təsdiq olunmuş üçtərəfli Bəyanata əsasən daxil olub. Nikol deyə bilər ki, Qarabağda erməni yoxdursa, deməli sülhməramlılar da olmamalıdır. Hər halda, erməni baş nazirin hazırkı anti-Rusiya köklənişindən onun belə fikir söyləmək potensialında olduğu üzə çıxır.

Ancaq, hələlik Paşinyan belə demir. Amma bildirir ki, üçtərəfli Bəyanata baxmayaraq, Qarabağın erməni əhalisi hazırda, guya, etnik təmizləmə təhlükəsi yaşayır. Maraqlıdır ki, Nikol bir neçə gün əvvəlki açıqlamasında başqa şey demiş, Qarabağ erməniləri üçün heç bir təhlükənin olmadığını vurğulamışdı. Görəsən, iki gündə niyə fikrini dəyişdi? Cavab sadədir: o, təhlükənin üstünə getmək yolunu tutur. Nəzərə alaq ki, İrəvanda hazırkı iqtidarı devirmək məqsədini güdən iğtişaşlar güclənib. Heç şübhəsiz, proseslərin arxasında Rusiyanın müəyyən dairələri dayanır. Nikolun fikrini dəyişməsi buna görədir. Yəni, o, Moskva üzərinə demarş yolu tutmaqdadır: “Hadisələrin bu cür inkişafına görə məsuliyyət bütünlüklə etnik təmizləmə siyasəti aparan Azərbaycanın və Rusiyanın Dağlıq Qarabağdakı sülhməramlı kontingentinin üzərinə düşəcək. Təbii ki, Ermənistan hökuməti beynəlxalq tərəfdaşlarla birgə Dağlıq Qarabağ ermənilərinin hüquqlarını və təhlükəsizliyini təmin etmək üçün beynəlxalq mexanizmlərin formalaşdırılması üzərində işləyir. Amma bu səylər konkret nəticə verməsə, hökumət Dağlıq Qarabağdan olan bacı və qardaşlarımızı Ermənistan Respublikasında qayğı ilə qarşılayacaq”.

Göründüyü kimi, N.Paşinyan, necə deyərlər, əl yeri qoyur. Bəs, bu, nə deməkdir? Bu, o deməkdir ki, nə Nikol, nə də dünya erməniliyi indiki şərtlərlə Qarabağda erməni əhalinin qalmasına razıdır. Hər iki cinah istəyirdi ki, separatçı rejim saxlanılsın. Amma onlar məqsədlərinə çatmadıqlarını görür və “B” planını işə salırlar. Əvvəl soyqırımı iddiasını ortaya atmışdılar. Deyəsən, gördülər ki, bundan danışıb beynəlxalq ictimaiyyəti inandırmaq mümkünsüzdür. Ona görə etnik təmizləmə “məsələsi” üzərində dayandılar. Məqsədləri budur ki, Qarabağ ermənilərsiz olsun və bölgə ilə bağlı iddia, bir növ, niskilə çevrilərək gələcəyə daşınsın. Heç şübhəsiz, növbəti mərhələdə ərazini tərk etmiş erməniləri təşkilatlandıracaqlar, müxtəlif beynəlxalq qurumlarda onların dili ilə Azərbaycana qarşı yeni hədyanlar yağdıracaqlar.

Qeyd edək ki, Ermənistan baş nazirinin Rusiya əleyhinə yönəlmiş siyasi kampaniyasındakı vurğu yalnız antiterror tədbirləri sonrası yaranmış vəziyyətin üzərinə qoyulmur. Nikol ölkəsi üçün müttəfiq yarıtmazlığı problemini qabardır və bildirir ki, Ermənisan uzun müddət bununla bağlı düzgün yolda olmayıb. Deməli, İrəvan müttəfiq kimi Moskvanı seçməkdə səhv edib. Həm də ona görə səhv edib ki, müttəfiq Rusiya Ermənistanın suveren dövlət imicinə zərər gətirib.

Əlbəttə, Nikol haqlıdır. O anlamda ki, uzun illər İrəvanda Moskvanın dəstəklədiyi Koçaryan-Sarkisyan xuntası hakimiyyətdə olub. Bu cinayətkar Qarabağ klanı ölkəni tamamilə Kremldən asılı hala salmışdı, Ermənistan marionet respublikaya çevrilmişdi. Ona görə Nikol hazırkı gərgin durumda məhz bu amilə güc verir. Beləliklə, əhalinin küçələrdə iğtişaş törədənlərə münasibətdə sərt və barışmaz mövqeyinin formalaşmasına çalışır. Hər halda, İrəvanın indi də Qərbin marionetinə çevrilmək niyyətini açıqlayacaq deyil.

Bəli, Ermənistanın müstəqilliyinin itirilməsi təhlükəsi ilə bağlı məntiqini daha da gücləndirən N.Paşinyanın bu təhlükənin aktuallığını saxlayarkən də Rusiyaya eyham vurduğu gün kimi aydındır. O bildirir ki, hazırda ölkəsi müstəqil, azad, demokratik inkişaf yolu ilə getmək əvəzinə, təhlükəsizlik çağırışları ilə baş-başadır və mövcud çağırışlarda yalnız xarici deyil, eyni zamanda, daxili faktorlar da ön plandadır. Hər iki faktor isə risk yaradır. Risk həm də ona görə var ki, diplomatik və dövlətlərarası münasibətlərdə bütün etiket və düzgünlük normaları, o cümlədən, müqavilələr üzrə götürülmüş öhdəliklər pozulur. Kimdir pozan? Nikol ad çəkməsə də, hədəfi bəllidir: “Bu addımlara cavab olaraq biz tərəfdaşlarımızı dövlətçiliyimizə və suverenliyimizə hörmətlə yanaşmağa çağırır, dövlətçiliyimizi, suverenliyimizi, demokratiyamızı, xarici və daxili təhlükəsizliyimizi möhkəmləndirmək əzmində olduğumuzu bildiririk. Biz beynəlxalq ictimaiyyəti Ermənistanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və demokratiyasına sarsılmaz dəstəyi ifadə etməyə çağırırıq. Müstəqilliyimizi qorumaq üçün bütün tədbirləri görəcəyik”.

Qeyd edək ki, N.Paşinyan bir müddət əvvəlki açıqlaması ilə də gündəm yaratmışdı. O bildirmişdi ki, Ermənistan üçün, necə deyərlər, “kupça” almaq fikrindədir. Deməli, ölkənin hansısa mövcudluq sənədi yoxdur. O, sentyabrın 24-dəki müraciətində də eyni məqama toxunub və bildirib ki, niyyəti Ermənistanın xarici və daxili təhlükəsizlik alətlərini transformasiya etmək, tamamlamaq və zənginləşdirməkdir. Bu baxımdan vacib olan yalnız ordu və təhlükəsizlik qüvvələrində dərin və hərtərəfli islahatların aparılması deyil, eyni zamanda, 6 oktyabr 2022-ci ildə Praqada və 14 may 2023-cü ildə Brüsseldə (Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşləri – red.) əldə edilmiş razılaşmaların de-yure təsbitini nəzərdən keçirməkdir. Paşinyan məsələni konkretləşdirir: Sovet Ermənistanının sərhədləri de-yure Ermənistan Respublikasının dövlət sərhədləri olmalıdır.

Və sən demə, buna görə İrəvan Beynəlxalq Cinayət Məhkəməsinin imkanlarından istifadəyə şərait yaradacaq Roma statutunu ratifikasiya edəcək. “Biz 2022-ci ilin dekabrında Roma Əsasnaməsini ratifikasiya etmək qərarına gəldik. O zaman hamımıza aydın oldu ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Ermənistan–Rusiya strateji tərəfdaşlıq alətləri Ermənistanın xarici təhlükəsizliyini təmin etmək üçün kifayət deyil və bu qərar öz qüvvəsindədir”, – deyən Paşinyan əlavə edib ki, ölkəsinin qərarı KTMT və ya Rusiyaya qarşı yönəlməyib. Yada salaq ki, Roma statutu ratifikasiya olunacaqsa, Rusiya Prezidenti Vladimir Putin Ermənistana gələ bilməyəcək. Çünki həmin sənəd ölkəyə ayaq basacağı təqdirdə, onun dərhal həbsini məcburiləşdirir.

Ermənistanın sülhsevər, inkişaf etmiş, demokratik ölkə olmasının vacibliyindən söz açan Paşinyan buna qarşı çıxan meyillərin mövcudluğunu diqqətə çatdıraraq, sanki, “həyəcan” təbili çalır və yenə də onun Rusiyaya əks mövqe ortaya qoyduğu görünür. Nikolun “ucqar əyalət” məntiqi fikrimizin təsdiqidir. Baş nazir vətəndaşları əyalətə çevrilməklə, müstəqil, demokratik və suveren ölkə olmaq arasında seçim etməyə çağırır.

Əlbəttə, N.Paşinyanın populizmə güc verdiyi də aşkardır. Məsələn, o, özünün müstəqilliyin müdafiəsi hərəkatına rəhbərlik etdiyini vurğulayır. Erməni baş nazir mövcud xüsusda digər fikirlər də bildirir. Həmin fikirlərin heç də hamısının üzərində dayanmaq istəmirik. Sual yaranır: Paşinyan öz səhvini anlayırmı? Görəsən dərk edirmi ki, “demokratiya, xoşbəxtlik və azadlıq uğrunda mübarizədə qalib gələcəyik” deməkdə gecikib? Hər halda, “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verən Ermənistanı Rusiyanın ucqar əyalətinə çevirənlər deyildi. Eləcə də Cıdır düzündə “yallı” gedib azərbaycanlıların heysiyyatına toxunmaq yolu tutan nə Serj Sarkisyan, nə də Robert Koçaryan idi. Elə isə demokrat Paşinyan nə üçün müharibə canilərinin avantürasının davamına girişmişdi? Axı, 2018-ci ildə hakimiyyətə gələndə Nikolun tam şansı var idi ki, durumu düzəltsin. Qarabağ ambisiyası ilə iqtidara sahiblənməmiş ilk Ermənistan lideri olaraq Paşinyan ambisiyanı boğa bilərdi. Həmin vaxt konstruktiv yol tutsaydı, erməni iddialarını körükləməyə qalxmasaydı, hazırkı durum da yaşanmazdı.

Bütün bunları nəzərə alaraq, belə qənaətə gəlirik ki, Ermənistan baş naziri N.Paşinyanın 24 sentybar 2023-cü il tarixli müraciəti demokratiyanın yalvarış məntiqinin işə düşməsindən başqa bir şey deyil. Nikol Qarabağ ritorikasına güc verməklə, özü də fərqinə varmadan ölkəsini qucağa atmış oldu. Bu yerdə onun müstəqillik və suverenlik kimi fikirləri qeyri-səmimi təsir bağışlayır. Erməni xalqı baş nazirin səmimiyyətinə inanmır, sadəcə, digərlərinə də güvənmir. Ona görə də Nikol hakimiyyətdə qalır. Əlbəttə, buna hakimiyyətdə qalmaq demək mümkündürsə...

***Ə.RÜSTƏMOV***
***XQ***

# Hayastanın yol xəritəsi Bakıda çəkilir

## İrəvanın bu tarixi fürsəti, sadəcə, düzgün dəyərləndirməsi yetər






(əvvəli 1-ci səhifədə)

Amma əgər qarşındakı şərəf və ləyaqət hissindən, sağlam düşüncədən məhrumdursa, ona necə, hansı formada güzəştə getmək olar?! İstər bölgədə, istərsə də beynəlxalq müstəvilərdə dövlətimizə və xalqımıza qarşı uzun illər ədalətsiz, ikiüzlü münasibət sərgiləyən həmsədrlər, sülh carçıları, son illər isə ikitərəfli dialoq vasitəçiləri nəyin bahasına olursa-olsun qalib Azərbaycandan məğlub Ermənistan üçün müəyyən güzəştlər qoparmağı hədəfləyirdilər. Cənubi Qafqazda özlərinin korporativ maraqlarını güdən həmin böyük güclər, institutlar Bakının Qarabağda düzənlədiyi 23 saatlıq lokal antiterror əməliyyatının ardınca ədalətdən nə qədər uzaq olduqlarını açıb ortaya qoydular. Necə deyərlər, daha tərəflər bəlli, mövqelər aydındır.

### Erməni nazirin “dəhliz məntiqi”

“Ermənistan hansısa eksərazi, yaxud dəhliz məntiqi ilə heç vaxt razılaşmayıb, bundan sonra da razılaşmayacaq”. Belə bir bəyanatla Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyan çıxış edib. “Armenpress”in suallarını cavablandıran nazir jurnalistin Türkiyə və Azərbaycan rəsmilərinin son vaxtlar Zəngəzur dəhlizi barədə tez-tez danışdıqları və bölgədə yaşanan son hadisələrin fonunda bu məsələdə İrəvanın mövqeyinin dəyişib-dəyişməməsi barədə sualı isə ikibaşlı cavablandırıb. Onun sözlərinə görə, İrəvan, eyni zamanda, ən yüksək səviyyədə əldə olunan razılaşmalara sadiqdir: “Ermənistan və Azərbaycan liderlərinin cari ilin iyulun 15-də Brüsseldə keçirilən sonuncu görüşündə aşağıdakı razılaşmalar təsdiqlənib. Bunlar Ermənistan və Azərbaycanın qarşılıqlı şəkildə bir–birinin ərazi bütövlüyünün müvafiq olaraq, 29,8 və 86,6 min kvadratkilometr sahəsi ilə tanınması, eləcə də iki ölkə arasında sərhədlərin delimitasiyasının 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında aparılmasıdır”.

Erməni nazir regional kommunikasiyaların tərəflərin qarşılıqlı suverenlik, qanunçuluq prinsipləri əsasında aparılmalı olduğunu deməyi də unutmayıb. Bu razılaşmaların Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel tərəfindən də ictimailəşdirildiyinə diqqəti çəkən Sanosyan ölkəsinin hazırda nəinki kommunikasiyaların açılmasını, hətta, bunun mümkün qədər tez baş verməsini arzuladığını bildirib.

Arazdəyən və Naxçıvan ərazisində dəmir yolunun tikintisi daha az vaxt aparacaq. Meğri və Horadiz rayonlarında isə yolların bərpası ilə bağlı müəyyən problemlər var. Ermənistan–Naxçıvan–İran dəmir yolunu bir il ərzində çəkmək mümkün olacaq”. Bu sözləri həmin Qnel Sanosyan təxminən iki il bundan əvvəl deyib. O zaman İrəvan Arazdəyən–Culfa–Ordubad–Meğri–Horadiz dəmir yolunun bərpası üçün təxminən 226 milyon dollar vəsaitin tələb olunduğunu açıqlamışdı. Baş nazir Nikol Paşinyan bəyan etmişdi ki, Ermənistan və Azərbaycan bu dəmir yolunun tikintisini 2, uzağı 3 ilə başa çatdırmağı planlaşdırır. Vaxtı və imkanı fövtə vermiş İrəvanın başbilənləri indi buraxdıqları səhvləri düzəltməyə meyilli görünürlər.

### “İndi biz sülhə çox yaxınıq”

Artıq Hayastanın siyasi hakimiyyətində reallığı olduğu kimi qəbul etməyə başlayıblar. Son günlər onların bir çoxu sülhdən, yolların açılmasından danışır. “İndi biz razılaşmaya çox yaxınıq və sülh müqaviləsini imzalamaq üçün tarixi imkanımız var. Ölkələrimiz arasında yolların açılması bizim üçün prioritet məsələdir. Ermənistan təkcə avtomobil əlaqəsini deyil, eyni zamanda, dəmir yolunu təqdim etməyə açıqdır”. Bu sözləri Ermənistan parlamentinin sədri Alen Simonyan ölkəsinin televiziyasına müsahibəsində deyib. O, hazırda bölgədə yaranmış yeni tarixi şəraitdən yararlanmaq istədiklərini deməkdən çəkinməyib. Simonyan bu kontekstdə Avropa Siyasi Birliyinin oktyabrın 5-də İspaniyada keçiriləcək növbəti Zirvə toplantısında müsbət nəticələrin əldə olunacağına ümid etdiyini deyib: “Biz, həqiqətən də, Qranadada irəliləmək, bu tarixi fürsətdən istifadə etmək istərdik. Əbədi müharibənin heç kimə faydası yoxdur”.

Oxuculara xatırladaq ki, Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin oktyabrın 5-də Aİ-nin Qranadada keçiriləcək iclasında görüşəcəkləri planlaşdırılır. Həmin görüşlə bağlı hazırlıqlar üçün bu gün Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının sədri Armen Qriqoryanın Brüsseldə bir araya gələcəkləri xəbər verilir. Bu arada tərəflər arasında sülhə və qarşılıqlı əlaqələrin yaranmasına əsas vasitəçi sayılan Moskva da regionda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı hökumətlərarası danışıqları davam etdirməyin vacibliyini xatırladıb. Rusiya Baş nazirinin müavini, Cənubi Qafqazda regional kommunikasiyaların açılması ilə bağlı yaradılmış üştərəfli işçi qrupun rusiyalı həmsədri Aleksey Overçukun ümidverici məlumatını tərəfləri yenidən danışıqlar masasına dəvət kimi də dəyərləndirmək mümkündür. Fəqət adıçəkilən üçtərəfli işçi qrupun fəaliyyətinin müsbət nəticələrə nail ola bilmədiyindən uzun müddət işində fasilə yaranmasını da nəzərə çatdırmaq yerinə düşər.

### Yanaşma və mövqelərdə fərqli çalarlar

Bütün bunların fonunda Rusiya və Ermənistan arasında diplomatik gərginliyin pik həddə çatdığı aşkar görünməkdədir. Nikol Paşinyan Moskvanın ittihamlarına cavab olaraq Rusiyanın artıq Ermənistanın təhlükəsizliyinin qarantı olmadığını bir daha təkrar edib. Onun şimaldan gələn hədələrə baxmayaraq, İrəvanın qonşuları ilə (Türkiyə və Azərbaycanla – red.) münasibətləri təcili şəkildə normallaşdırmağı vacib sayması maraqla qarşılanıb. Paşinyan bu barədə parlamentdəki çıxışında söyləyib. İndiki həlledici məqamda, Fransadan savayı, onun bu mövqeyi ilə razılaşmayan iki aktor var: Rusiya və İran. Amma strateji müttəfiqlər sayılan bu iki dövlətin bir çox məsələlərə yanaşmasında bəzi fərqlər və ziddiyyətlər özünü göstərməkdədir. Yəni, Ermənistanın şimallı-cənublu havadarları arasında məhz Cənubi Qafqaz və Azərbaycanla bağlı fikir ayrılığı aşkar sezilməkdədir. Qeyd etmək yerinə düşər ki, Tehran bir tərəfdən İrəvanı Amerika ilə hərbi əməkdaşlıqda ittiham edirsə, digər tərəfdən onun Azərbaycana münasibətində yumşalma özünü göstərir. Əslində, vəziyyətin paradoksallığı da bundadır və fikrimizcə, gerçəyin üzə çıxması prosesi uzun çəkməyəcək.

N.Paşinyan haqlı olaraq hesab edir ki, Ermənistan ilk növbədə Türkiyə və Azərbaycanla münasibətlərini normallaşdırmalıdır. Ermənistan rəhbərliyi, gec də olsa, anlamağa başlayır ki, güvəndiyi tərəfdaşlardan, sözdə havadarlarından ona real kömək edən yoxdur. Ona görə də ən doğru yol regionda real və konstruktiv güclərlə əməkdaşlıqdır. Həmin gücün adı isə Azərbaycan–Türkiyə birliyidir!

### İrəvanın nicat yolu Bakı–Ankara marşrutudur

Nə qədər paradoksal görünsə də, Bakının Qarabağda separatizmin kökünü kəsməsi İrəvanın işinə tam yarayır. Bölgədə yaranan yeni hərbi-siyasi, o cümlədən iqtisadi reallıq Hayastanın qarşısında uğurlu inkişafa və təminatlı gələcəyə yeni imkanlar açır. Təki bu tarixi fürsəti və şansı hayların başbilərləri düzgün qiymətləndirməyi bacarsınlar. Son 10 gün ərzində bölgədə və onun ətrafında baş verənlərə ötəri nəzər yetirmək kifayətdir ki, Cənubi Qafqazda söz və güc sahiblərinin konfiqurasiyasındakı dəyişiklikləri anlaya biləsən. İrəvanın tarixin keçmiş zamanına gömülmüş “dənizdən-dənizə”, daşnak şovinizmi və revanşizmi kimi xülyalardan başını qaldırıb yuxarı baxması lazımdır ki, hilallı-ulduzlu qoşa bayraqların dalğalandığı səmti görsün.

Artıq bütün dünya Azərbaycanın haqlı olduğunu gördü və qəbul etdi. Türkiyənin isə Azərbaycanı sona qədər dəstəkləyəcəyinə heç kəsdə şübhə qalmadı. Prezident Rəcəb Tayyib Ərdoğanın BMT Baş Assambleyasının 78-ci sessiyasındakı çıxışı zamanı “Qarabağ Azərbaycan torpağıdır!” deməsi təkcə Ermənistana deyil, həm də onun havadarlarına ünvanladığı ismarıc oldu. Onun Ermənistanın baş naziri ilə telefon danışığı və “Cənubi Qafqazda möhkəm sülh və sabitliyin bərqərar olmasının regionun bütün ölkələrinin inkişafına və rifahına kömək edəcəyini” vurğulaması İrəvana xoşməramlı müraciəti idi.

Hazırda bölgədə baş verənlər siyasi-diplomatik səviyyədə Azərbaycanın beynəlxalq hüquqa söykənən qətiyyətli mövqeyini, özünə və artıq ipə–sapa yatmağa meyillənən qonşusuna çəkdiyi perspektivli yol xəritəsini özündə əks etdirir. Artıq bütün dünyanın qəbul etdiyi həqiqət ondan ibarətdir ki, Azərbaycan hərbi-diplomatik yolla Qarabağ iqtisadi rayonunda suveren hüququnu bərpa edir. İndi rəsmi Bakı Qarabağda beynəlxalq qaydalara, Azərbaycan Konstitusiyasının tələblərinə uyğun yaşamağa hazır insanlara şərait yaratmaqla məşğuldur.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

İrəvan dünənə qədər siyasi məqsədlərə görə Zəngəzur dəhlizi məsələsini uzatmağa çalışırdı. Onların məqsədi bu dəhlizlə bağlı razılaşma müqabilində Azərbaycandan Qarabağ erməniləri üçün hansısa statusu, yaxud imtiyazları qoparmaq idi. Aydın məsələdir ki, onların bu istəyi bizim dövlətçiliyimizə zidd idi. Bunları yaxşı bildiklərindən məsələni uzadırdılar. Artıq Bakı Qarabağ iqtisadi rayonunda tam nəzarəti təmin edəndən, Ermənistan ordusunun qalıqlarının darmadağının ardınca ərazimizdən çıxarılandan sonra onların əllərində siyasi alver üçün heç bir perspektiv qalmadı.

Buna görə də həm Paşinyan, həm Simonyan, eləcə də digərləri anlayırlar ki, indi məsələyə daha çox iqtisadi tərəfdən yanaşmaq lazımdır. Bu baxınmdan isə İrəvan Zəngəzur dəhlizindən yararlanmaqda Bakıdan uduşlu vəziyyətdədir. Biz həmin yolla Naxçıvana və Türkiyəyə kommunikasiya əlaqəsini təmin edirik, Ermənistan isə buradan həm İrana, həm də Türkiyəyə dəmir yolunu əldə etməklə yanaşı, Azərbaycan ərazisi vasitəsilə Rusiya və Orta Asiyaya birbaşa çıxışa nail olur. Nəhayət, papaqlarını qarşılarına qoyub anlamağa başlayıblar ki, bundan sonra inadkarlıq etmək, sadəcə olaraq, özlərinin maraqlarına ziddir. Düşünürəm ki, bu məsələdə müəyyən müsbət dəyişikliklər qaçılmazdır.

(əvvəli 1-ci səhifədə)

Diqqət edək: Qarabağa erməni iddiaları ümummilli lider Heydər Əliyevin 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından dərhal sonra başlamışdı. Azərbaycan arxa-dayaqsız qalmışdı. Axı Ulu öndər idi illərlə bu iddiaların vüsət almasına imkan verməyən. O idi bölgədə müxtəlif vaxtlarda baş qaldıran separatçı meyillərin qarşısına çıxıb onları neytrallaşdıran. Azərbaycanı da həmin meyilləri zərərsizləşdirərək tərəqqi yoluna çıxarmış, Sovetlər Birliyində yüksək inkişaf tempinə malik respublikaya çevirmişdi. Güclü olmağı prioritet seçmişdi ki, xalqımıza ziyan gəlməsin. Ancaq...

***

Bəli, Qarabağda erməni avantürizmi hər zaman olub. Bu avantürizm, ümumən, Azərbaycana qarşı ərazi iddiası formasında özünü göstərib. Yəni, dırmağa girişmişdilər. Heydər Əliyevin dönəmindəki illərdəki direnişin qisası-nı alırdılar. Ulu öndərin Azərbaycanda, ümumən SSRİ rəhbərliyində olması ilə özlərinin itirdikləri illərin qisasını. Bunu amansızcasına, qəddarlıqla edirdilər. Beləcə, otuz illik işğal dövrü başlandı. Ancaq daha pis də ola bilərdi...

Müəyyən müddətdən sonra Ulu öndər təkrar siyasi hakimiyyətə gəldi. Azərbaycan xilas oldu. Ölkəmizdə böyük quruculuq işlərinə start verildi. Elə bir beynəlxalq tribuna qalmadı ki, Prezident Heydər Əliyev oradakı çıxışı zamanı Qarabağ həqiqətlərindən, üzləşdiyimiz işğal faktından, bir milyondan çox vətəndaşımızın didərgin həyatı məhrumiyyətlərindən söz açmasın. Ən əsası Ümummilli lider xalqda inam yaratdı. İmkan vermədi ki, Qarabağ yarası qaysaq bağlasın.

Prezident İlham Əliyev Ulu öndərin həyata keçirdiyi kursu daha da zənginləşdirdi, onu müasir dövrün tələblərinə uyğunlaşdıraraq inkişaf etdirdi. Qarabağ hədəfi daha sistemli və ardıcıl məzmun qazandı. Hər keçən il bu hədəf uğrunda mübarizə daha sistemli şəkil aldı. Ermənistanın danışıqlar prosesindən yayınması, münaqişəni donduraraq, Qarabağı Azərbaycan insanının düşüncəsindən silmək cəhdləri hədəfimizin güc amilini işə saldı. Bunu ilk dəfə 2016-cı ilin Aprel müharibəsində gördük. Neçə-neçə şəhid qanı hesabına işğaldan azad etdiyimiz Lələtəpə yüksəkliyi Qarabağ dirənişimizin simvoluna çevrildi. Lələtəpə bizim üçün təkcə Cəbrayıl yox, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan və Füzuliyə açılan yol oldu. İllərlə unutmaq istədiyim və mənə sözün əsl mənasında, yer eləmiş "paz" məntiqini tamamilə beynimdən sildim. Sildim və inanmağa başladım. İçimdə Şuşalı, Laçınlı, Kəlbəcərli... günləri görəcəyimə böyük əminlik yarandı.

***

Erməni amili heç də adi məsələ deyil. Onun tarixinin, haqqında bəhs etdiyim mərhələdən də əvvələ aidliyi məlumdur. 1830-cu ildən başlayaraq ermənilərin Azərbaycan torpaqlarına köçürülməsindən tutmuş, onların hazırkı Türkiyənin şərq torpaqlarında çıxardıqları "oyunlara, çeşidli təxribat" əməllərinədək, bir çox məqamları vurğulamaq mümkündür. Tarixdə saxta "erməni soyqırımı" iddiası da, Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılması da həmin əsas niyyətin ayrı-ayrı elementləridir.

Ola bilər, bəziləri keçmiş SSRİ dövründə paytaxtımız Bakının mərkəzindəki bütün yaxşı evlərin ermənilərə məxsusluğunu unudub. Bir çoxları bəlkə heç bilmir ki, Heydər Əliyev hakimiyyətə gələnədək Bakı əhalisinin təxminən yetmiş faizə qədəri qeyri-millətlərin təmsilçiləri olub. Hətta, kimlərinsə yenidən alovlanacaq. Axı, belə görüblər. Axı, erməni xəstəliyinin simptomlarına yaxşı bələddirlər. Bilirlər ki, bu simtomları işə salmaq çox asandır. Heç şübhəsiz, onlar erməni xəstəliyini sanki soyuducunun buzluğunda saxlayıb, nə zamansa işə salmağı da nəzərdən qaçırmırlar.

Başqa bir qrup da var. Belələri məhz şəhid məsələsi ilə manipulyasiya yolu tuturlar. İstəyirlər ki, Azərbaycan hakimiyyətini səriştəsizlikdə günahlandırsınlar. Çox cəhd göstərirlər ki, xalqımız danışdığımız tarixdə olanların ayrı-ayrı epizodlarını unutsun. İndi də başlayıblar ki, 23 saat 43 dəqiqəlik antiterror tədbirlərində çox şəhid vermişik və bu, guya, tədbirlərin uğursuzluğundan xəbər verir və sair ilaxır.

Bir qrup da var ki, heç bir iddia-filan dilə gətirmədən görüntülərə güc verir. Şəhidlərlə vida mərasimindən, onların dəfnindən ürəkdağlayan videolar yaymaqla, insanlarda bədbin ovqat, ruh düşkünlüyü formalaşdırmağa cəhd göstərir. Bilərəkdən, ya bilməyərəkdən bu təbliğata qatılanlar da tapılır.

...Rusiya amilini qabardaraq bütün proseslərin Moskva tərəfindən idarə edildiyini vurğulayıb, Azərbaycan dövlətinin mövqeyini kiçiltmək yolu tutanlar da var. Bəlalərinin fikirləri ermənilərin və onların havadarlarının mövqeyi ilə üst-üstə düşür. Təsəvvür edin, ABŞ Senatında Qarabağla bağlı dinləmələr keçirilir və bildirilir ki, Rusiyanın əli ilə Azərbaycanın Ermənistanı sıxışdırmasına yol vermək olmaz. Mövcud istiqamətdə "strateji xətt" hazırlayıb onu Birləşmiş Ştatların Administrasiyasına təqdim etmək "istəkləri" baş qaldırır. Meydana Qərbin klassik Şərq ekspansiyası üçün uydurduğu və erməni məsələsinin tərkib hissəsi kimi qiymətləndirilən saxta "erməni soyqırımı" iddiasının növbəti dalğasının Qarabağda reallaşacağını bildirənlər, hay-şivən qaldıranlar çıxırlar. Müvafiq olaraq, baxırıq ki, daxildəkilərimizdən bəziləri gah Rusiyanın Qarabağı Azərbaycana verməsinə dair sərsəm fikirlər səsləndirir, gah da pasifizmə güc verərək "sülh qaranquşları"na" çevrilirlər.

***

Bəli, belə görüntü var ki, Azərbaycan xalqının öz uğuruna, həqiqi mənada, sevinməyinə, kədərinə sahib çıxmağına, kədərini və sevincini layiqli şəkildə yaşamasına imkan verməyən qüvvələr səfərbər olublar. Hər şeyi "erməni dəyirmanına su tökmək" kimi qələmə vermək niyyətindən uzağam. Həm də ona görə ki, erməni varlığı özlüyündə heç nədir. İndi dövriyyəyə girənlər başımıza min bir oyunlar açanların varisləridir. Onlar haqqında söz açdığımız həmin "erməni pazı"nın aradan götürülməsinə yol verməməyə çalışanlardır. Çalışırlar ki, bu coğrafiya "erməni avantürizmi" kabusundan xilas olmasın. Daim bölgədə ziddiyyətlər, konfliktlər üçün "baza" saxlanılsın, separatçılıq həmişə diri qalsın. Bələləri yalnız bizə qarşı çıxmır, eyni zamanda, sadə erməni xalqının dinc yaşayışına yol verməmək xətti yürüdürlər. Bir sözlə, nəyin bahasına olursa-olsun, Cənubi Qafqazda sülh mühitinin formalaşmasına əngəl yaradırlar. Bütün bunlara görə Azərbaycan Prezidenti İlham Əliyev xalqa 20 sentyabr 2023-cü il tarixli müraciətində bildirmişdi: "Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət, sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, manea aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, tələb edirdik həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən dırnaqarası erməni cəfakeşləri bilsinlər - nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik. Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil - Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar".

# Haradan gəlmişik və haraya gedirik?

## Erməni avantürizmi dünəndən bu günə





hədəf yalnız Qarabağ deyildi. Sadə bir misal çəkək: Birinci Qarabağ müharibəsi dövründə azərbaycanlıları Kür çayınadək qovmaq "niyyətləri" ortaya atılmışdı... Hələ torpaqlarımız işğal olunmamışdı. Dediyim kimi, düşüncələr burulğanı yaşanır, sanki ətrafa nifaq toxumları səpilir və kimlərsə onların cücərməsini gözləyirdi. O zaman hadisə və proseslərə diqqət yetirərkən, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü üzərində dayanırdım. Axı avantürizmə qarşı təkbaşına mübarizə aparmışdı. Görəsən, necə bacarmışdı?

O zaman "Miatsum" ideoloqlarından sayılan və SSRİ rəhbəri Mixail Qorbaçovun müşaviri vəzifəsində işləyən Abel Aqanbekyanın 1987-ci ildə Parisdə etdiyi çıxışı da xatırlayırdım. Qarabağın Ermənistana verilməsinin məqsədəuyğunluğu barədə Fransanın "Humanite" (L'Humanité) qəzetinə müsahibəsini də oxumuşdum. Fransa erməni institutunun və Erməni veteranlar assosiasiyasının təşkil etdiyi tədbirdəki çıxışında isə "mən bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ iqtisadi cəhətdən daha çox Ermənistana bağlıdır, nəinki Azərbaycana", – dediyindən də xəbərdar idim.

Elə bu məqamları düşünərək, daha doğrusu, düşünüb pozitiv fikirlər eşitmək məqsədilə respublika rəhbərliyində təmsil olunan şəxslərə üz tuturdum. Yalnız mən yox, mənim kimi gənc müxbirlərin hamısı belə edirdi. Ancaq qənaətbəxş, ağlabatan cavablar eşitmirdik. Nəhayət, günlərin birində söhbətləşdiyimiz bir vəzifəli şəxs konkret dedi: Qarabağ problemi təkcə Azərbaycan xalqına yox, bütün Türk dünyasının birliyinə çalınan çox böyük pazdır. Elə beləcə də dedi. Fikrinə heç bir bəzəkdüzək vermədən. Həmin şəxs buna qarşı çıxmağın başqa itkiləri də doğuracağını bildirdi. Bu sözlərdən sonra nə yazasan? Nə deyəsən? İçimdəki barışmazlıq hissi gənclik emosionallığı ilə çulğalaşırdı. Əlbəttə, təmkinli olmağı düşünürdüm. Hay-küy qaldırmağın nə mənası var idi ki? Onsuz da ətraf mənasız qara-qışqırıq salanlarla, insanı bir qaşıq suda boğmağa hazır xainlərlə dolu idi. Bəli, "ssenari" son dərəcə incə şəkildə işlənmişdi.

Zamanla, belə demək mümkünsə, erməni avantürizmi özünü doğrultdu. İşğal başladı. Özü də təkcə Qarabağın işğalı yox. Sanki bu xalqı tamamilə sındırmağa girişmişdilər.

***

O günləri də gördük. Dualarda, mahnılarda, şeirlərdə yaşatdığımız Qarabağımıza qovuşduq. 44 günlük Vətən müharibəsində şərəfli Qələbə qazandıq. Şəhidlərimiz oldu. Üç mindən çox can verdik. Müqəddəs Zəfərimizdən ötən müddətdə də torpaqlarımız şəhid qanı ilə suvarıldı. Nəhayət, 23 saat 43 dəqiqə davam etmiş lokal antiterror tədbirləri ilə işğalda olan torpaqlarımızı azad etmənin, Qarabağı geri qaytarmanın sevincinə suverenliyimizin bərpası qürurunu da əlavə etdik.

Yenə igid Vətən övladlarını qurban verdik. Əlbəttə, o sualı vermək istəmirik ki, can itkisi olmadan qazanılmış qələbə varmı? Hardasa, kimsə görübmü ki, qanla gedən torpaq dinc yolla qayıtsın? Yəni, bunları deyib bilavasitə son günlər bəzilərinin qələbəmizi kiçiltmək üçün gətirdikləri "arqumentləri" cavablandırmaq niyyətindən uzağıq. Hərə öz fikrində və düşüncəsində qalsın. Ancaq istərdim ki, fikir hər kəsin özünə aid olsun. Amma görünən budur ki, ortaya, belə demək mümkünsə, "fikir və düşüncə istehsalçıları" düşüblər. Bələləri və onların təbliğatına uyanların unutduqları isə tarixdir. O tarix ki, yazımda onun müəyyən hissəsinə diqqət yetirərək, dünya gücləri tərəfindən müdafiə olunan erməni avantürizminin miqyasını göstərməyə çalışdım.

Ulu öndərin bu geriliyi aradan qaldırmaq üçün respublikanın iqtisadi inkişafına, fabrik və zavodların tikintisinə üstünlük verdiyini və rayonlarımızdakı əhalini paytaxta cəlb etmək üçün gördüyü digər işləri unutması da mümkündür. Halbuki, heç nəyi unutmaq olmaz. Qətiyyən olmaz...

***

Türk dünyasını ayırmaq üçün düşünülmüş "erməni pazı"nın Qarabağda dalana dirəndiyinin şahidləriyik. Axı, on il əvvələdək belə bir durum yox idi. Amma bu gün də o pazın Azərbaycandan çıxmasını istəməyənlər var. 44 günlük müharibədən sonra haqq davamızın əsəb səngərində olmuşuq. Baxın, son bir ildə üç dəfədir erməni məsələsi BMT tribunasına çıxarılır. Həqiqətən, dəhşətli durum var. Heç bir hüquqi əsası olmayan iddialar kontekstində hansısa "tutacaq" yerləri axtarılır, meydana okampolar, makronlar, menendezlər, kimlər... çıxarılır. Hansısa haqlar uydurulur. Azərbaycana böhtanlar atılır. Elə bilirsiniz, bütün bunlar son üç, otuz, yetmiş ilin nəticəsidir. Xeyr, məsələnin kökü, az qalır ki, iki yüz ilə çatsın.

Necə ki, sovet dövründə heç bir əsası olmadan Zəngəzur Ermənistana verilmişdisə, yenə də eyni əsassızlıqla Qarabağın erməni varlığına "məxsusluğu" önə çəkilir. Sanki, dünya erməniliyi vaxtilə etdiyi "xidmətlərə" güvənir. Demək istəyir, minnət qoyur, hətta üsyan qaldırır. Təxminən belə: Sizin planlarınızın həyata keçməsi üçün çalışmışıq, can qoymuşuq, bizi ata bilməzsiniz! Və sanki kimlərsə bu xəstəlik daşıyıcılarına onlar üçün iş görüldüyü mənzərəsini yaradır. Bələlərinin sırasında Fransa kimi "erməni məsələsinin davamına sərmayə yatıranlar tapılır. Paris digərlərini də "hərəkətə gətirir". Amma onların sıralarının seyrəldiyini görürük. Bu seyrəlməni biz etmişik, bacarmışıq. Buna düşünülmüş, məntiqi siyasət yürüdərək nail olmuşuq.

***

El misalında deyildiyi kimi, it hürər, karvan keçər. Ancaq bəzi itlər var ki, elə hey hürürlər. İstəyirlər ki, səslərini hamı eşitsin. Məsələn, bəzilərinin bir qrupu ekspert və analitik qiyafəsinə bürünərək deyir ki, Cənubi Qafqazda erməni – azərbaycanlı davası heç zaman bitməyəcək, nə zamansa münaqişə

***

Bəli, Azərbaycan Prezidentinin xalqa müraciətində həm kifayət qədər əhatəli, həm də emosional ruhlu bu fikirləri əminlik yaradır ki, Cənubi Qafqaz dayanıqlı sülh məkanı olacaq. Dövlət başçımızın qətiyyəti və prinsipiallığı bunu istəməyənlərə qarşı direniş və iradədir. Kimlərin hansı fikirləri söyləməsindən, hansı "arqumentləri" irəli sürüb özünü ağıllı göstərməsindən asılı olmayaraq, "Azərbaycan" adlı qatar sürətlə irəliləyir. Bu inkişaf sülhə və tərəqqiyə, inkişaf və asayişə, əmin-amanlıq və firavanlığa doğru inamlı istiqamət götürüb. Bu gün Azərbaycan suverenliyini bərpa etməklə, yalnız özünün maraq və mənafelərindən irəli gələn tədbiri gerçəkləşdirmir, eyni zamanda, bütövlükdə regionumuz naminə çalışma əzmi ortaya qoyur. Bu gün Azərbaycan əsgəri çəkməsi ilə keçdiyi torpaqlarda sülh toxumlarının səpilməsi üçün şumlama işi aparır. O torpaqlarda dünyanın təhlükəsizliyinə nümunə olacaq sülh və əmin-amanlıq cücərəcək... Mütləq cücərəcək.

***Əflatun AMAŞOV,***
***baş redaktor***

# Qoca və xəstə ermənilərə tibbi xidmət göstərilir

**2023-cü il sentyabrın 25-də Xocalı şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədovun Qarabağın erməni sakinlərinin təmsilçiləri ilə növbəti görüşü keçirilib.**

Konstruktiv mühitdə keçən görüşdə sentyabrın 21-də Yevlax şəhərində müzakirə edilmiş məsələlərin həlli istiqamətində atılan addımlardan, xüsusilə qısa müddətdə humanitar yardımın təminatı, yanacaq təchizatı və elektrik verilişinin bərpasından razılıq ifadə olunub.

Qarabağın erməni sakinləri ilə təmaslar üzrə məsul şəxs Ramin Məmmədov bundan sonrakı mərhələdə həyata keçiriləcək tədbirlər haqqında məlumat verib. Qeyd olunub ki, bəzi yaşayış məntəqələrində tənha vəziyyətdə müəyyən edilmiş ermənisilli yaşlı sakinlərə ilkin tibbi yardım göstərilib və onlar həkim nəzarəti altında saxlanılırlar. Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələrinin həmin şəxslərlə görüşünə şərait yaradılması, onların ailə üzvlərinə və ya müvafiq tibb müəssisələrinə təhvil verilməsi təklif edilib.

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin sosial-humanitar, iqtisadi və infrastruktur məsələlərin həlli üzrə rəhbərlik etdiyi işçi qrupun üzvlərinin cari fəaliyyət istiqamətlərini müəyyən etmək məqsədilə Xankəndi şəhərinə də daxil olmaqla, ərazidə kommunal, səhiyyə xidmətləri və digər mülki fəaliyyətlə məşğul olan müvafiq nümayəndələrlə görüşünün təşkili və birgə işçi qrupunun yaradılması barədə razılıq əldə olunub.

Təklif olunub ki, Xankəndi şəhəri yaxınlığında və ya Xocalı istiqamətində qurulması təklif olunan səhra hospitalında səhiyyə xidmətləri Azərbaycan və ermənisilli tibb heyəti tərəfindən birgə təşkil edilsin. Həmçinin Azərbaycan və erməni xidmət personalı tərəfindən mobil qida təminatı xidmətinin yaradılması təklif edilib.

Xroniki ağır xəstəliklərdən əziyyət çəkən və ya xüsusi cərrahiyyə əməliyyatına ehtiyacı olan şəxslərə zəruri tibbi yardımın göstərilməsinə hazırlıq ifadə olunub.

Bununla yanaşı, görüşdə Azərbaycan və ermənisilli tibb işçilərindən ibarət səyyar birgə həkim briqadalarının formalaşdırılması, həmin briqadalar tərəfindən uzaq kəndlərdə tənha və tibbi xidmətə ehtiyacı olan şəxslərə xidmət göstərilməsinin vacibliyi vurğulanıb.

Qarabağ iqtisadi rayonunda yaşayan ermənisilli vətəndaş cəmiyyəti təmsilçiləri və ictimai fəalların Bakıya və ya Azərbaycanın digər şəhərlərinə səfərlərinin təşkil edilməsi təklifi vurğulanıb və bu cür təşəbbüslərin vətəndaş cəmiyyəti dialoqu platformasının yaradılması, eləcə də etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi baxımından əhəmiyyəti olduğu qeyd edilib.

Görülmüş işlərin yekunlarının müzakirəsi və gələcək addımları müəyyənləşdirmək məqsədilə tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib.

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 342** **Bakı şəhəri, 25 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə***

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 2 yanvar saat 06:00-dək uzadılsın.

**2.** "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddələr 1209, 1231, № 10, maddələr 1274, 1275, 1278, 1283, 1298, 1314, 1315, № 11, maddələr 1387, 1394, № 12 (V kitab), maddələr 1588, 1592, 1612; 2021, № 1, maddələr 92, 106, № 3, maddələr 267, 290, 291, № 4, maddə 403, № 5, maddə 530, № 6 (IV kitab), maddələr 683, 692, № 7, maddələr 868, 882, № 8, maddə 974, № 9, maddə 1079, № 10, maddə 1191, № 12, maddələr 1514, 1524; 2022, № 2, maddə 176, № 3, maddə 258, № 4, maddə 417, № 6, maddə 673, № 8, maddə 1012, № 10, maddə 1225, № 12, maddə 1554; 2023, № 2, maddə 328, № 3, maddə 443, № 4, maddə 595, № 6, maddə 866) 1.1-ci bəndində "2023-cü il 2 oktyabr" sözləri "2024-cü il 2 yanvar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə növbəti görüş



**Sentyabrın 25-də Xocalı şəhərində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədovun Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə növbəti görüşü keçirilib.**

**XQ**

# Makron Qarabağda vəziyyəti təhrif edir

**Sentyabrın 24-də Fransa Prezidenti Emmanuel Makron Fransanın "TF1" və "France 2" kanallarına müsahibəsi zamanı növbəti dəfə bölgədə mövcud vəziyyəti təhrif edən mövqe sərgiləməsi onun tərəfindən tətbiq edilən ikili standartların və qərəzin bariz nümunəsidir.**

Bu fikirlər XİN-in mətbuat katibi Ayxan Hacızadənin Fransa Prezidenti E.Makronun həmin kanallara müsahibəsi zamanı səsləndirdiyi fikirlərə dair şərhində yer alıb.

Mətbuat katibi, həmçinin bildirib: "Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransanın Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət və özünün "Orientalizmə" söykənən müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda mənfur neokolonialist təcrübəsini tətbiq etməyə çalışması, Azərbaycan Ermənistan məsələsində xristianlıq amilini qabartması və keçmiş münaqişəyə din amili ilə yanaşması təhlükəli və qəbuledilməzdir.

Fransa tərəfinə bir daha xatırlatmaq istərdik ki, Azərbaycanın öz suveren ərazilərində Ermənistanın 30 illik işğalına son qoyulması, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa etmək məqsədilə həyata keçirdiyi tədbirlər beynəlxalq hüquqla təsbitlənən legitim haqqımızdır.

Sentyabrın 19-20-də Azərbaycan ərazisində mövcud olan erməni silahlı birləşmələrinə qarşı həyata keçirilmiş antiterror tədbirləri zamanı da beynəlxalq humanitar hüququn bütün normalarına əməl edildiyi Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) daxil, beynəlxalq təşkilatlar tərəfindən təsdiq edilmiş və hətta Azərbaycanın, guya, mülki əhalini hədəf aldığı iddialarının heç bir həqiqəti əks etdirmədiyi Ermənistan baş naziri tərəfindən bildirilib. Bu xüsusda, Azərbaycanın bu tədbirlərinə qarşı səslendirilən fikirlərin heç bir əsası yoxdur.

Müstəmləkə siyasəti çərçivəsində insan haqlarına heç bir önəm verməyən Fransanın ərazisində bir çox xalqların və etnik azlıqların firavan yaşadığı Azərbaycana dərs keçməyə çalışması qəbuledilməzdir. Eyni şəkildə, 30 ilə yaxın müddətdə hüquqları pozulmuş, ərazilərindən didərgin düşmüş, kütləvi qırğınlara məruz qalmış azərbaycanlıların hüquqları barədə indiyə qədər heç bir şərh verməyən Fransanın indi ermənilərin hüquqlarını müdafiə etdiyini bildirməsi Fransa tərəfinin saxta niyyətindən xəbər verir.

Azərbaycan erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılması və erməni silahlı birləşmələrinin tərk-silah edilməsi ilə yanaşı, erməni sakinlərə yardım göstərilməsi və onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası işini həyata keçirir.

Qeyd edilənləri nəzərə alaraq, Fransanın bölgədə sülhə xidmət etməyən və qarşıdurma yaratmaq istiqamətində səylərinin heç bir nəticə verməyəcəyini bir daha bəyan edirik".

**XQ**

## Ermənilər Ermənistana maneəsiz gedirlər

**Qarabağda qalmaq istəməyən erməni əsilli sakinlər Ermənistana tam təhlükəsiz şəkildə gedirlər.**

"Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən Qarabağ bölgəsində yaşayan erməni sakinlərin maneəsiz keçidi təmin olunur.

Ermənistan istiqamətində hərəkət edən sakinlər heç bir təhlükə və təhdid ilə qarşılaşmadıqlarını, könüllü şəkildə getdiklərini bildiriblər. Onlar həm də yolların açıq olduğunu, maneəsiz şəkildə Ermənistana getdiklərini söyləyiblər.



Qeyd edək ki, Azərbaycanın polis əməkdaşları Qarabağda yaşayan erməni sakinlərindən birinin avtomobilində yaranmış problemin aradan qaldırılmasına kömək ediblər.

**XQ**

# Paşinyanı devirmək istəyən kimlərdir?

**Sentyabrın 19-da günortadan sonra Ermənistan paytaxtında başlanan etiraz aksiyaları dünən səhərdən etibarən davam edib. Baş nazir Nikol Paşinyanın və onun hökumətinin istefasını tələb edən aksiya iştirakçıları bəzi yolları bağlayıblar.**



Polis isə profilaktik tədbir olaraq, şəhərin əsas küçə və prospektlərinə giriş-çıxışı məhdudlaşdırıb və ya bağlayıb. Paytaxtın mərkəzindəki Respublika meydanına daha çox polis qüvvələri cəmləşib.

Dünən saxlanılanların sayının çoxluğu diqqəti cəlb edir. İrəvan şəhər polis idarəsi səhər saat 9-da 53 nəfərin saxlanıldığını açıqlamışdı. Sonra bu say 142-yə yüksəldi. Ermənistan daxili işlər nazirliyinin günorta yaydığı açıqlamada isə saxlanılanların sayının 168 nəfərə çatdığı bildirilib. Aksiyada iştirak edən parlamentin müxalifətçi "Hayastan" fraksiyasının deputatı Tadevos Avetisyan da polis bölməsinə aparılıb. Saxlanılanlardan bəziləri barəsində Cinayət Məcəlləsinin hakimiyyət nümayəndəsinin qanuni tələbinə tabe olmama maddəsi ilə cinayət işi açılıb.

Başlarına qırmızı beret qoyduqları üçün Ermənistanda "qırmızı beretlilər" adlandırılan polis xüsusi təyinatlıları jurnalist David Sarkisyanı da saxlayıblar. O, İrəvan Dövlət Universitetinin binasında olarkən həbs edilib. Vəkil Arsen Babayan baş verənləri "hüquqi xaos" adlandırıb.

Ermənistanın ikinci prezidenti, Xocalı soyqırımının iştirakçısı Robert Koçaryanın oğlu Levon Koçaryan barəsində isə həbs qərarı çıxarılıb. Sentyabrın 24-də, bazar günü saat 23:00-da başlayan məhkəmə iclası fasiləsiz 9 saat davam edib. Ermənistanda rus dilində nəşr olunan "Qolos Armenii" ictimai-siyasi qəzeti yazır ki, xüsusilə hakimin kimliyi bəlli olandan sonra qərarın bu cür olacağına heç kim şübhə etmirdi: "Keçmiş müstəntiq, vəkil işləyən Masis Melkonyan bu yaxınlarda hakim təyin olunub. Onun peşəkar keyfiyyətləri həmkarlarının çoxunda gülüş doğurur. Amma o, hökumətyönümlü fikirləri ilə ictimaiyyətə tanışdır. Bir sözlə, bütün bunları, nəzərə almamaq olmazdı. Başqa keyfiyyətlərə malik olan vəkillərin bu gün hakim olmaq şansı yoxdur".

Qəzet qeyd edib ki, hakimin şəxsi keyfiyyətlərini nəzərə alan vəkillər L.Koçaryanın həbsindən şikayəti geri götürüblər: "Koçaryan, təbii ki, dövlət məmurlarına qarşı zor tətbiq etmə ittihamını qəbul etmir. Siyasiləşmiş hakimin, Robert Koçaryana qarşı dəfələrlə siyasi bəyanatlar verən, son vaxtlara qədər Respublika Partiyasının üzvü olan hakimin qərarı asanlıqla proqnozlaşdırıla bilərdi".

Bildirilir ki, Ermənistanın ikinci prezidentinin oğlu sentyabrın 22-də aksiya zamanı saxlanılıb: "Həbs zamanı, o, qırmızı beretli polis əməkdaşları tərəfindən şiddətlə döyülüb ki, bu da videogörüntülərdən aydın görünür. Ancaq "Nairi" tibb mərkəzindəki həkimlərin beyin silkələnməsi diaqnozu qoyduqları Levon 4 polisi döyməkdə ittiham olunur. Bu, tamamilə cəfəngiyyat kimi görünə bilər, lakin hökumət rəsmiləri cəmiyyətdən ciddi şəkildə öz gözlərinə deyil, rəsmi məlumatlara inanmağı tələb edir. Biz bu gün Ermənistanda belə bir vəziyyət yaratmışıq".

Qeyd edilir ki, L.Koçaryan bir ay müddətinə həbs edilib: "Yəqin ki, biz indiki vəziyyətdə, həbs müddətinin, məsələn, üç, yaxud iki ay olmadığına sevinməliyik. Necə ki, ictimai xadim Narek Malyan Cinayət Məcəlləsinin 329-cu maddəsi (nifrət, ayrı-seçkilik, dözümsüzlük və ya düşmənçiliyi qızışdırmaq və ya təşviq etmək məqsədi daşıyan ictimai çıxışlar, habelə bu məqsədlə materialların yayılması) ilə ittiham olunaraq iki ay müddətinə həbs olunub. Yeri gəlmişkən, onun həbsi barədə qərar çıxaran da Masis Melkonyandır".

Hakim Manvel Şahverdyanın qərarı ilə 44 günlük müharibədə həlak olan hərbçi Gevorq Virabyanın bacısı, tanınmış müxalifət fəalı Tatevik Virabyan da 2 ay müddətinə həbs edilib. O, zorakılığa, kütləvi iğtişaşlara çağırışlarda və onlarda iştirakda ittiham olunur. Vəkili Arsen Babayanın sözlərinə görə, müvəkkili üçün ən təhqiramiz məqam müstəntiqin onun həbsinə bəraət qazandıran səbəblərdən biri kimi qaçma ehtimalını göstərməsi olub. "Mənim vətənimdən qaçmağa yerim yoxdur", – deyə etirazçı qız məhkəmədə bildirib. Eyni zamanda onu həbs edən hakimin həbs qərarı çıxarmaqla yanaşı, qızın qaçması faktını əsassız hesab etməsindən şad olub.

Sentyabrın 24-də İrəvanın sabiq (1999-2001-ci illərdə) meri və Ermənistan parlamentinin sabiq vitse-spikeri Albert Bazeyan hakimiyyəti qəsb etməkdə şübhəli bilinərək saxlanılıb. Onun vəkili artıq bu qərardan məhkəməyə şikayət edib. "Bu günlərdə saxlanılan və həbs olunanların siyahısını asanlıqla davam etdirmək olar", – deyə "Qolos Armenii" yazır.

Qeyd olunur ki, paytaxt küçələrində etiraz aksiyaları davam edəcək. Respublika meydanında mitinq keçiriləcək: "Bu minvalla hərəkət edən polis gün ərzində daha çox həbslər həyata keçirməyə vaxt tapacaq. Lakin etirazçılar, göründüyü kimi, öz tələblərindən geri çəkilmək niyyətində deyillər. Görünür, hakimiyyət də güzəştə getməyəcək. Ermənistan daxili işlər nazirliyinin rəis müavini Aram Ovannisyan sentyabrın 24-də axşam jurnalistlərə bildirib ki, ümumiyyətlə, o, etirazçılara qarşı güc tətbiqini münasib hesab edir. Bir yeniyetmənin polis tərəfindən boğularaq öldürülməsi görüntüləri ilə bağlı birbaşa suala isə o, sadəcə olaraq "bu, sizin təxəyyülünüzün məhsuludur" cavabını verib", – qəzetdə dərc olunan yazıda bildirilib.

***

Dünən Caliber.az saytında yerləşdirilmiş yazıda isə qeyd edilib ki, oxşar mitinqlər əvvəllər, yəni İrəvan Ağsaqqallar Şurasına seçkilərdən əvvəl də olub. İndi isə hakimiyyət etirazları sərt şəkildə dağıdıb: "Bu, başadüşüləndir. Ermənistan bir dövlət kimi çat verir. O, sonu görünməyən daxili münaqişədən sarsılır. Bununla belə, indiyə qədər revanşistlərin, o cümlədən Qarabağ klanının Paşinyanın istefasına real olmaq üçün real şansı yoxdur. Sentyabrın 25-də bütün Ermənistan müxalifətinin, İrəvana qaçmış Qarabağ ermənilərinin də qatıldığı etiraz mitinqi ən çoxu 5-6 min adam toplayıb. Ermənistanın ikinci prezidenti Robert Koçaryanın gəlini olan müğənni Siruşonun fəryad və çağırışlarına, oliqarx Ruben Vardanyanın cəhdlərinə, "Axmaq Qaqo" ləqəbli "Çiçəklənən Ermənistan" partiyasının rəhbəri Qaqik Sarukyanın planlarına baxmayaraq, meydana cəmi 5-6 min nəfər yığılıb. Müxalifətin "miatsum" mifinin dağılması üzərində "oynamaq" cəhdləri proqnozlaşdırıla bilən fiasko ilə başa çatdı. Onların "qələbələri" İrəvanın bir sıra bağlı küçələri ilə məhdudlaşır. Amma ən gülməlisi odur ki, revanşistlər hələ də fiaskonu triumfa çevirmək arzusundadırlar".

Bildirilir ki, bu xəyalpərəstlərdən biri də parlamentin keçmiş vitse-spikeri, Serjik Sarkisyanın "Respublika" partiyasının danışan dili Eduard Şarmazanovdur: "Onun sözlərinə görə, müxalifətin milli komitəsinin çağırdığı aksiyalarda kifayət qədər insan iştirak etmir". Sonra isə Şarmazanov əsas arzusunu səsləndirib: "Mitinqlərə 100 min insan toplaşarsa, hüquq-mühafizə orqanlarının əməkdaşları da bizə qoşulacaq və Nikol rədd olub gedəcək".

Sayt xatırladıb ki, bunu 2018-ci ildə erməni xalqı tərəfindən devrilmiş Ermənistanın üçüncü prezidenti S.Sarkisyanın həmişə ruporu olmuş və indi də o cür qalan şəxs deyir: "Həmin vaxt aksiyalara 100-150 min adam çıxırdı. Sarkisyana və bütün Qarabağ klanına qarşı nifrət belə böyük idi. Bu gün də elədir. Bu, Ermənistan vətəndaşlarının revanşistlərin təşkil etdiyi şouda iştirak etmək istəməməsindən xəbər verir. Şarmazanov bütün bunları çox gözəl başa düşür, amma, o, açıq-aydın boşboğazlıq edir, indiki hakimiyyəti devirəcək 100 minlik izdiham xəyallarını dilə gətirir. Ermənistan vətəndaşları arasında onun qeyri-populyarlığı, görünür, daşnaklara, serjik-robertçilərə hörmətsizlikdən qat-qat aşağıdır".

Göründüyü kimi, müxtəlif siyasi qüvvələr daxildə N.Paşinyanı devirməyə, yaxud onun ictimai nüfuzunun aşağı salmağa hər nə qədər cəhd etsələr də, bu prosesdə nəzərəçarpacaq uğur əldə edə bilmirlər. Bütövlükdə, erməni xalqı radikal-revanşist kəsimin çağırışlarına biganədir. Onların etinasızlığı, əslində, Ermənistanı bu günə salan əsas qüvvənin Qarabağ klanı olduğunun fərqində olmasının göstəricisidir.

***Səxavət HƏMİD***
***XQ***

## EKSPERT RƏYİ



**İlyas HÜSEYNOV,**
**siyasi şərhçi**

– Ermənistanda Paşinyan əleyhinə etiraz aksiyaları Azərbaycan Ordusunun lokal xarakterli antiterror tədbirləri keçirməsindən sonra geniş vüsət aldı. Ondan əvvəl də müxtəlif piketlər, nümayişlər keçirilir, istefa tələbləri səsləndirilirdi. Aksiya iştirakçılarına qarşı polisin qəddarlığı da göz önündədir. Özünü insan hüquqlarının müdafiəçisi kimi qələmə verən beynəlxalq QHT-lər susurlar. Bu susqunluq Ermənistan baş nazirinin hakimiyyətini qorumağa xidmət edir. Bütün bunlar onu deməyə əsas verir ki, nümayişləri dağıtmaq üçün odlu silahdan istifadə olunsa belə, heç kim səsini çıxarmayacaq. Bu, həm də bütün imkan, vasitə və resurslarla Paşinyanın hakimiyyətinin himayə edilməsi anlamını verir. Çünki Qərb burada Paşinyanın timsalında hər şeyini itirə bilər. Ermənistanda yeni hakimiyyətə gələcək qüvvə artıq Qərbi təmsil etməyəcək, Rusiyameyilli bir şəxs olacaq. Bu, Qarabağ klanının təmsilçisi də ola bilər.

Lakin Ermənistanda hələ də Paşinyanla yola davam etmək istəyən qüvvələr var. Bu qüvvələr çoxluqdadır. Paşinyan seçicilərinə böyük vədlər verib. Həmin vədləri yetinə yetirmək üçün imkan axtarır. Belə olan təqdirdə, əlbəttə, qərarsız şəxslərin məhz Paşinyanla yola davam etmək fikirləri üstünlük təşkil edir.

Eyni zamanda, Paşinyanı əvəz edəcək lider də yoxdur. Biz hakimiyyət əleyhinə güclü müxalif qrupu da görmürük. O, tez-tez parlamentdə təmsil olunmayan müxalif qüvvələrlə görüşür, onlarla aparılan danışıqlar siyasi proseslərdə səngiməyə gətirib çıxarır. İstənilən halda, Ermənistanda başlayan aksiyalar, əlbəttə, qarşıdakı dövrdə də davam edəcək. Meydanlara çıxan insanların təzliklə evlərinə dönməsi mümkün deyil. Burada erməni lobbisinin təsiri var, eyni zamanda narazı kütlələrin sayı Qarabağdan gələn insanlarla bir qədər də arta bilər.

# Avropanın Azərbaycan qazına tələbatı yüksəlir

## Bu dövlətlərin sayı 7-dən 10-a çatacaq



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasındakı çıxışında Avropanın enerji təhlükəsizliyinin çətinliklərlə üzləşdiyi bir vaxtda Cənub Qaz Dəhlizi (CQD) vasitəsilə yeddi ölkəyə respublikamızdan "mavi yanacaq" istehlak edildiyini, həmçinin yaxın gələcəkdə bu rəqəmin 10 Avropa ölkəsinə qədər artırılacağını bildirib.**

Nazir daha sonra təmiz mühit və "yaşıl inkişaf"ın yeni milli inkişaf strategiyamızın beş prioritet istiqamətindən birinə çevrildiyini, Azərbaycan könüllü olaraq 2050-ci ilə qədər istixana qazı tullantılarını 40 faizə endirməyi, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur bölgələrində "yaşıl enerji" zonası yaratmağı öhdəsinə götürdüyünü də vurğulayıb.

Ceyhun Bayramovun sessiyada diqqətə çatdırdığı bu məsələlərlə bağlı əvvəlcə onu bildirək ki, Azərbaycan könüllü olaraq 2050-ci ilə qədər istixana qazı tullantılarını 40 faizə endirmək öhdəliyi götürüb. Yeri gəlmişkən, son illər ölkəmizdə bu istiqamətdə-atmosferə atılan istixana qazlarının azaldılması sahəsində mühüm layihələr icra olunub. Belə ki, ötən il Qlazqo şəhərində keçirilən iqlim sammitində respublikamızın 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyasının həcmini 40 faizə qədər azaldılması şərti hədəf kimi götürülüb və düşməndən təmizlənən ərazilərimizdə "təmiz 0" emissiya zonasının yaradılması ilə əlaqədar planlar bəyan edilib. Bundan başqa, Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadə və enerji səmərəliliyi ilə bağlı hədəflər də müəyyənləşdirilib, ətraf mühitə atılan istixana qazlarının 2030-cu ilə qədər 35 faiz azaldılması, elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Azərbaycanda son illər həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradıb. Bunun nəticəsidir ki, respublikamızda təmiz ekoloji mühitin gerçəkləşdirilməsi məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanılıb. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanda 2023-cü ilin dövlət büdcəsində ətraf mühitin mühafizəsinə 360 milyon manatdan çox vəsait ayrılıb ki, bu da 2022-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 24 faizdən artıqdır.

Azərbaycanda atmosferə atılan istixana qazlarının azaldılması və dekarbonizasiya sahəsində də böyük işlər aparılır. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım ölkəsi"nə çevrilməsi ilə bağlı çoxsaylı tədbirlər planlaşdırılır. Sənəddə qeyd olunduğu kimi, yaxın illərdə ölkəmizdə təbii resurslardan dayanıqlı və davamlı istifadə təmin olunacağı, ətraf mühitə sənayeləşmənin təşviqi məqsədilə tullantıların səmərəli idarə olunması sisteminin inkişafı nəzərdə tutulur. Bunun da nəticəsində tullantıların təkrar emalı prosesinin əhatə dairəsinin ölkə üzrə 20 faizə, regionlarda isə 10 faizə çatdırılacağı gözlənilir.

BMT Baş Assambleyasının 78-ci sessiyasında Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrinu "yaşıl enerji" zonasına çevirmək məqsədinin də prioritet istiqamət kimi diqqətdə saxlanması məsələsi də xatırladılıb. Bildirilib ki, adları çəkilən iqtisadi rayonlar hazırda sürətlə "yaşıl enerji" zonasına çevrilir. Əslində, bu regionda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl zona", yaxud "yaşıl məkan" konsepsiyasının hazırlanmasına hələ Vətən müharibəsindəki şanlı qələbəmizdən az sonra başlanılıb.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı qarşıya mühüm vəzifələr qoyub. Bu məsələ "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapıb.

Prezident İlham Əliyev 2021-ci il mayın 3-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Dövlət başçısı Qarabağ və Şərqi Zəngəzurun ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara alıb.

Sözügedən bölgənin bərpaolunan enerji istehsalı üçün potensialı böyükdür. Belə ki, Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə, Qarabağın cənub düzənlik hissəsi – Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3 min-4 min meqavatdır. Ərazidə ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması nəzərdə tutulur.

Qarabağda eləcə də külək enerjisi istehsal etmək mümkün olacaq. Belə ki, regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialının hesablanacağı qarşıda önəmli vəzifə kimi durur.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Elman İSKƏNDƏROV, texnika elmləri doktoru, professor**



Ceyhun Bayramovun sessiyada diqqətə çatdırdığı məsələlərdən biri də Cənub Qaz Dəhlizi (CQD) ilə bağlı olub. Bununla əlaqədar qeyd edək ki, təxminən 40 milyard ABŞ dolları həcmində sərmayə qoyuluşu nəzərdə tutulan, uzunluğu 3 min 500 kilometr və 4 seqmentdən ibarət olan CQD layihəsində ölkəmizin "Şahdəniz-2" yatağından hasil olunacaq qazın Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyadan keçən boru kəmərləri ilə əvvəlcə Türkiyəyə, sonra isə Avropaya çatdırmaq planlaşdırılıb.

Qeyd edək ki, 2018-ci il mayın 29-da Səngəçal terminalında Azərbaycan təbii qazı CQD sisteminə vurulub və beləliklə, "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qurulan "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birgə qaz hasilatına başlanılıb. 2018-ci il iyulun sonunda isə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunduğu vaxtdan hasilat tədricən artıb. "Şahdəniz" qurğularının hasilat gücü gündəlik 56 milyon (ildə 20 milyard) standart kubmetr təşkil edib.

Ötən il CQD vasitəsilə ümumilikdə 21 milyard kubmetr, o cümlədən Avropaya 11,4 milyard kubmetr qaz ixrac edilib. Həmin dövrdə Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Memorandumuna əsasən, 2027-ci ilədək TANAP-la qaz nəqlinin indiki 16 milyard kubmetrdən 31 milyard kubmetrə, TAP-la isə 11 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub. Bütün bunlar Avropanın qaz bazarında Azərbaycanın rolunun artırılması məqsədini şərtləndirib.

Bu məqamda xatırladaq ki, keçən il Aİ-nin qaz tədarükünün 3 faizini Azərbaycandan ötürülən "mavi yanacaq" təşkil edib. 2021-ci ildə isə bu göstərici 2 faiz idi. Bu il də analoji səviyyəyə çatmaq gözlənilir. Beləliklə, 2021-ci ildə 8,1 milyard kubmetr Azərbaycan qazı idxal olunmuşdusa, ötən il bu göstərici artıq 11,3 milyard kubmetr təşkil edib.

Göründüyü kimi, artım müşahidə olunur. Bununla da respublikamızla imzalanan Anlaşma Memorandumuna əsasən, 2027-ci ilədək Azərbaycan qazının tədarükünün 20 milyard kubmetrədək artırılması heç bir şübhə doğurmur.



# Strateji valyuta ehtiyatları 67 milyard dollara çatıb

**Gələn il və sonrakı üç il üzrə sosial-iqtisadi inkişaf konsepsiyası, eyni zamanda, proqnoz göstəricilərinin müzakirəsinə həsr olunan Nazirlər Kabinetinin geniş iclasında hazırda ölkənin maliyyə vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdığı, strateji valyuta ehtiyatlarının 67 milyard ABŞ dollarına çatdığı və ilin əvvəlindən 14,5 faiz artdığı qeyd edilib.**

İclasda 2023-cü ilin ötən dövründə xarici ticarət balansının əhəmiyyətli həcmdə müsbət saldosunun yaranması, xarici borcun azalması və büdcə gəlirlərinin yüksək icrası əldə olunmuş çox müsbət nəticələr kimi dəyərləndirilib.

# Büdcə gəlirləri 10 faizdən çox artıb

**Gələn il və sonrakı üç il üzrə sosial-iqtisadi inkişaf konsepsiyası, eyni zamanda, proqnoz göstəricilərinin müzakirəsinə həsr olunan Nazirlər Kabinetinin geniş iclasında bu ilin ötən dövründə xarici ticarət balansının əhəmiyyətli həcmdə müsbət saldosunun yaranması, xarici borcun azalması və büdcə gəlirlərinin yüksək icrası əldə olunmuş çox müsbət nəticələr kimi dəyərləndirilib.**




Bildirilib ki, bütün bunların nəticəsində 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılıb və büdcə gəlirləri 3,1 milyard manat və ya 10,1 faiz, büdcə xərcləri isə 3,3 mlrd. manat və ya 9,8 faiz artıb.

***XQ***

# "Ağıllı sənaye" ölkəmizdə tərəqqini sürətləndirəcək

## Bu yöndə süni intellektin tətbiq dairəsi genişlənir

**(əvvəli 1-ci səhifədə)**

Bununla bağlı mövcud statistikanı diqqətə çatdıran Sahib Ələkbərovun bildirdiyinə görə, 2022-ci ildə süni intellekt bazarı 136 milyard dollar dəyərində qiymətləndirilib. 2023-cü ildən 2030-cu ilə qədər bu bazarın illik 37,3 faiz nisbətində böyüyəcəyi gözlənilir. Qeyd olunub ki, Dünya İqtisadi Forumu tərəfindən süni intellekt əsaslı həllərin satınalmaları zamanı istifadəsi tövsiyə olunan təlimatlar ekosistemin formalaşdırılması istiqamətində önəmli addımlardan biri kimi qiymətləndirilməlidir. Həmin təlimatlar süni intellekt həllərini satın almaq istəyən qurumlara faydalı çərçivə təmin edə, əlavə olaraq növbəti mərhələlərdə sözügedən proseslərdə standartların formalaşdırılmasına və bu sahədə tənzimləyici nəzarəti həyata keçirən dövlət qurumlarının fəaliyyətinə də önəmli töhfə verə bilər.

Nazir müavini bildirib ki, 2030-cu ilədək dövlət, özəl və vətəndaş cəmiyyətini əhatə etməklə iqtisadiyyata töhfə verəcək 9 əsas layihə və bu layihələr çərçivəsində 69 fəaliyyət istiqaməti üzrə Azərbaycanda iqtisadi artımı dəstəkləmək, sektorların rəqabət qabiliyyətini artırmaq, vətəndaşların xidmətlərə çıxışını asanlaşdırmaq və dövlət xidmətlərinin fəaliyyətinin təkmilləşdirilməsini təşviq etmək üçün rəqəmsal texnologiyadan geniş istifadə olunmasını təmin etmək nazirlik qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Qeyd olunub ki, İqtisadiyyat Nazirliyi innovasiyaları, inklüzivliyi əhatə edən, onları Azərbaycan iqtisadiyyatının və cəmiyyətinin bütün aspektlərinə səmərəli şəkildə inteqrasiya edən iqtisadi artım üçün istiqamətləndirici baxışın həyata keçirilməsinə çalışır. Bu strategiyanın reallaşdırılması yeni dövrdə Azərbaycanda biznes transformasiyasının gücləndirilməsindən tutmuş potensialın artırılmasına, IV Sənaye İnqilabına aid texnologiyaların geniş tətbiqini nəzərdə tutan model tipli müəssisənin və yeni nəsil texnoloji mərkəzin qurulmasına, rəqəmsal əkizlərin yaradılmasına və "Lokal Generative Süni İntellekt" təşəbbüsünün həyata keçirilməsinə, sahibkarlığın təşviq edilməsinə və əlverişli infrastrukturun dəstəklənməsinə qədər bütün sahələrdə inkişafa zəmin yaradacaq.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli çıxışında qeyd edib ki, ölkəmizdə "Dövlət satınalmaları haqqında" yeni qanunun tətbiqi ilə gələn il yanvarın 1-dən dövlət satınalmalarının 100 faiz rəqəmsal platformalardan istifadə etməklə təşkili və aparılması nəzərdə tutulur. Qeyd olunub ki, qanun layihəsi beynəlxalq təcrübəyə uyğun hazırlanıb və hazırda bütün proseslər, neqativ hallar dövlət qurumlarından və bazardan alınan rəylər əsasında qiymətləndirilib. Onun sözlərinə görə, yeni qanunla tətbiq edilən rəqəmsallaşma təkcə əlçatanlıq və şəffaflıq baxımından deyil, həm də dərin dövlət satınalmaları məlumatlarına əsaslanan alternativ, daha səmərəli həllərin ortaya çıxması baxımından faydalı olacaq.

M.Abbasbəyli bildirib ki, Dövlət Xidməti üçün xidmət platformasının və keyfiyyətli platformanın yaradılması son mərhələdədir. "Bu platformalar tətbiq olunduqdan sonra Xidmətin bütün fəaliyyəti rəqəmsallaşdırılacaq. Biz süni intellektdən istifadə etməklə dövlət satınalmalarında qüsurları müəyyən etmək üçün tərəfdaş şirkətlərlə işləyirik", – deyə o əlavə edib.



Tədbirdə İqtisadiyyat Nazirliyi yanında IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərov çıxış edərək bildirib ki, kənd təsərrüfatında dronların tətbiqi, elektron hökumət portalında "ASAN login" üzərindən üztanıma əsaslı sistemə giriş imkanı mövcuddur. Onun dediyinə görə, Azərbaycan Kolumbiyanın Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə kənd təsərrüfatında dronların, əşyaların internetinin tətbiqi, həmçinin kənd təsərrüfatında məhsuldarlığın artırılması istiqamətində təcrübəsini öyrənir.

Qeyd olunub ki, hazırda Dövlət Neft Şirkətinin (SOCAR) və digər sənaye qurumlarında, neft-qaz təşkilatlarında süni intellekt və robotlar vasitəsilə müxtəlif layihələr icra edilir, gömrük məntəqələrində xüsusi kompüterlər və kameralar vasitəsilə məhsulların skan olunması və onların detalları ilə bağlı araşdırma aparılması istiqamətində işlər görülür.

Dünya təcrübəsinin Azərbaycana gətirilməsi istiqamətində digər dördüncü sənaye inqilabı mərkəzləri ilə ortaq əməkdaşlıq edildiyini vurğulayan icraçı direktor qeyd edib ki, Azərbaycanda süni intellektə dair, təqribən, 80 səhifədən ibarət çərçivə sənədi hazırlanıb ki, bununla da Azərbaycan dünyada bir ilkə imza atıb, indiyə qədər yalnız Braziliyada bələdçi sənəd tətbiq olunub. Dünya İqtisadi Forumunda çərçivə sənədi 3 dildə–ingilis, ispan və Azərbaycan dillərində təqdim edilib. "Biz qürur duyuruq ki, mütəxəssislərimiz bu sənədi tərcümə edərək həmkarlarımız üçün əlçatan ediblər. Bundan başqa, biz "Ağıllı sənayenin qiymətləndirilməsi" indeksini Azərbaycana gətirmişik.

Hər bir sənaye obyektini 3 istiqamətdə təhlil etməklə (proseslərin təhlili, texnologiyanın təhlili və təşkilati quruluşun təhlili) onlara Rəqəmsal Yol Xəritəsi hazırlayırıq. Bu istiqamətdə Sinqapur və Türkiyədən olan həmkarlarımız bizə dəstək göstərirlər. Artıq "SOCAR Polymer" MMC və "AzerGold" ASC-də bu qiymətləndirmələr tətbiq olunub. Onlar üçün Yol Xəritəsi hazırlanıb. Növbəti mərhələdə isə SOCAR-ın 3 alt təşkilatında bu qiymətləndirmənin tətbiqi nəzərdə tutulur. Bu da onların rəqəmsallaşma yolunda hansı mərhələdə olmasını göstərəcək", – deyə F.Cəfərov əlavə edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Zəfərin start günü

**2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı ordu illərlə işğal altında qalan torpaqlarımızı düşməndən qarış-qarış təmizlədi, Vətən bütövləşdi. Məhz o günlərdə dövlət başçısı xalqın ürəyindən keçən sözləri deyirdi: "Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərir". Məhz o güc Vətən müharibəsindən keçən 3 ilin tamamında ərazi bütövlüyü üzərində dövlətin suverenliyini təmin etdi.**



Bu gün Qarabağda baş verənlər, qəhrəman ordumuzun cəmi bir sutkaya uğurla başa çatdırdığı lokal antiterror əməliyyatı sübut etdi ki, Azərbaycanla heç bir halda şərt, hədə dilində danışmaq olmaz. 30 illik düyünü təkbaşına açan bir ölkənin qarşısında hansısa qeyri-konstruktiv tələblər qoymaq, yalançı sülh təşəbbüsləri irəli sürmək yalnız Ermənistanın ziyanına işləyir, bunların heç biri Azərbaycanı öz hədəflərindən yayındırmır.

Hələ Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi münasibətilə 2018-ci ildə keçirilən hərbi paradda Prezident, Ali Baş Komandan İlham Əliyev demişdi ki, Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir.

2019-cu il oktyabrın 3-də isə Prezident İlham Əliyev Rusiyada keçirilən Valday Sammitində Ermənistan baş nazirinin regionda yeni siyasi dinamit rolunu oynayan, nizamlama prosesinə ciddi zərbə vuran, Ermənistanın bugünkü rəzil və rüsvayçı vəziyyətinə gətirib çıxaran "Qarabağ Ermənistandır və nöqtə" bəyanatına cavabında bildirdi ki, "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır və nida işarəsi". Bu bəyanatdan düz bir il sonra– 2020-ci il oktyabrın 3-də Azərbaycan Prezidenti hamının səbirsizliklə gözlədiyi xoş xəbəri doğma xalqı ilə paylaşdı, tarixi adını bərpa edən Suqovşanda Azərbaycan bayrağı dalğalandı. Azərbaycan Ordusunun şanlı Zəfəri bütün Azərbaycan vətəndaşlarının arzu və istəklərini ifadə edirdi. Bu hadisə həm də 30 ildir ermənilərin öz orduları haqqında yaratdığı "yenilməz Ermənistan ordusu" mifini darmadağın etmişdi, Azərbaycan əsgəri təkcə torpağı yox, həm də tariximizi, mədəniyyətimizi işğaldan qurtarmışdı. Vətən müharibəsinin ilk dəqiqələrindən xalq öz dövlətinin və ordusunun ətrafında sıx birləşmişdi. Azərbaycan Ordusu tarixi ədaləti döyüş meydanında bərpa etmişdi, Prezident – Ordu – Xalq birliyinin ən ali nümayişi olan bu hadisə işğalçıya layiq olduğu yeri göstərmək üçün əsl "olum, ya ölüm" mübarizəsinə çevrilmişdi. O günlərdə xalq bütün dünyaya sübut edirdi ki, Qarabağ azərbaycanlıların milli ləyaqət rəmzidir. Ona görə də Prezident İlham Əliyev deyir ki, xalq, millət anlayışları ön planda olanda istənilən problem həllini tapa bilər və bizim siyasətimiz milli maraqlar üzərində qurulub.

Bu qələbənin təmin edilməsi üçün biz bir xalq olaraq, 30 illik yol gəldik. Çox çətinliklər oldu, müstəqilliyimiz dəfələrlə təhlükə altına düşdü. Lakin ulu öndər Heydər Əliyevin qətiyyəti, siyasi səriştəsi sayəsində xalqımız bütün çətinlikləri dəf etdi. O, ölkənin müstəqillik dayaqlarını gücləndirdi, Azərbaycanın siyasi sisteminə dövlətçilik anlayışı gətirdi.

Məhz bu siyasi bünövrə üzərində qurulan və güclənən Azərbaycan Respublikası Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirdi. Bu, milli maraqlara söykənən siyasət idi, onun təməlində Azərbaycan xalqının maraqları dayanırdı.

Çox keçmədi ki, Azərbaycan 155 ölkənin dəstəyini alaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi, dünyanı narahat edən bir sıra məsələlərin həllində əsas söz sahiblərindən biri oldu. Bakı artıq bir çox beynəlxalq təşəbbüslərin reallaşdığı, forumların keçirildiyi əsas məkan kimi tanındı.

Azərbaycan qlobal layihələrin icrasına başladı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara veriləndən sonra "Şahdəniz" qaz yatağı kəşf olundu, Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkildi. Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Cənub Qaz Dəhlizi, TANAP və TAP layihələri uğurla reallaşdı. Asiya ilə Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti fəaliyyətə başladı. Azərbaycan kosmik ölkələr klubuna daxil oldu. Ölkənin sosial-təsərrüfat infrastrukturu tamamilə yeniləndi. Azərbaycan öz iqtisadi gücünü hərbi sahənin inkişafına uğurla transformasiya etdi. Silahlı Qüvvələrə ayrılan xərclər artdı, ordu quruculuğu dövlət siyasətinin prioritetləri arasında birinci yerə yüksəldi. Azərbaycan xalqı isə bu siyasətin bəhrəsini Vətən müharibəsində və bu yaxınlarda keçirilmiş 23 saatlıq lokal antiterror əməliyyatlarında gördü. Bütün bunlar müstəillik dövründə keçdiyimiz inkişaf yolunu tam mahiyyəti ilə ortaya qoydu. Əldə edilən tarixi Qələbənin hansı zəhmət hesabına ərsəyə gəlməsi barədə hamımızda dəqiq təsəvvür yaratdı.

Azərbaycanın xarici siyasətdə əldə etdiyi etimad, etibarlı tərəfdaşlıq modeli indi bir çox hədəflərimizə çatmaq üçün bizə heç bir maneə tanımır. Bir vaxtlar Azərbaycanı mənasız danışıqlara inandırmağa, yalançı sülh vədlərinin aktuallığını qorumağa çalışan xarici qüvvələr 3 il öncə ordumuzun döyüş meydanındakı məharətindən şoka düşmüşdü. İndi hamı yaxşı bilir ki, Azərbaycanı öz məqsədindən yayındıracaq güc yoxdur. Azərbaycan bütün məqsədlərinə nail olacaq. Prezident İlham Əliyev də deyir ki, Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmayıb. Bunu şərtləndirən əsas amillər isə Azərbaycan dövlətinin siyasətində görünür.

Prezident siyasi, iqtisadi və digər sahələri əhatə edən islahatlar həyata keçirir. Xalq haqlı olaraq öz Prezidentini dəstəkləyir, onun siyasətinin cəmiyyətdə vətəndaş həmrəyliyi yaratdığına ürəkdən inanır. Bununla da Prezident İlham Əliyev Azərbaycanda hüquqi dövlət modeli formalaşdırır. Bu prosesə ictimai marağı artırır, insan hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunması ilə bağlı tədbirlər görür. Bugünkü uğurların təməlində duran həm də budur: Prezident İlham Əliyevin qalib dövlət və qalib xalq formulu.

Prezident İlham Əliyev Qarabağ düyününü özü açdı. Bu, Prezident İlham Əliyevin xalqı və dövləti qarşısında müqəddəs tarixi xidmətidir. Biz indi bir millət olaraq yenidən doğuluruq. Xalqımızda qeyri-adi ruh yüksəkliyi var. Məhz bu əhval-ruhiyyə ilə 30 il ərzində dağıdılmış şəhər və rayonlarımız öz hesabımıza yenidən qurulur, insanlarımızın öz doğma yurdlarına qayıtması ilə azad Qarabağda həyat yenidən canlanır. Bundan sonra bizim hər uğurumuzun adı "Zəfər" olacaq. 30 illik Qarabağ həsrətinin tükənən ümidi bu möhtəşəm zəfəri gerçəyə çevirən, ona əbədi ömür verən liderin sayəsində ölmədi, əksinə, "dəmir yumruq" əbədiyyət qazandı. İndi illərlə əsir olan ruhumuz azaddır. Bu azadlığın qüdrəti bizim birliyimizdə, xalqımızın hünərində, tarixdən gələn qəhrəmanlığındadır.

***Günay ABİDOVA,***
***Nəsimi Rayon Məhkəməsinin hakimi***

# Azərbaycan dinc ermənilərin hüquq və azadlıqlarına tam təminat verir

## DTX Qarabağ bölgəsinin erməni əhalisinə müraciət etdi

**Məlum olduğu kimi, bu il sentyabrın 19–20-də Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində qanunsuz erməni silahlı birləşmələrinin terror-təxribat əməllərinə son qoyulması və tərk-silah edilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirilmişdir. Terrorçu dəstələr təslim olmağa məcbur edilmişlər.**

Ötən müddətdə davam etmiş terror-təxribat əməllərini, o cümlədən sentyabrın 19-da Əhmədbəyli–Füzuli–Şuşa yolunun 58-ci kilometrliyində və Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minalar yerləşdirərək iki mülki şəxsin və dörd polis nəfərinin həlak olması ilə nəticələnən terror əməllərini qanunsuz mütəşəkkil silahlı birləşmənin tərkibində iştirak edərək törətməkdə şübhəli bilinən müvafiq şəxslər həmin antiterror tədbirləri zamanı sentyabrın 20-də tərk-silah edilərək saxlanılmışlar.

Qanunsuz erməni silahlı dəstələrinin tam tərk-silah edilməklə döyüş mövqelərindən çıxarılmasına dair razılıq əldə olunduqdan sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişlərinə uyğun olaraq, erməni əhalinin yaşadığı ərazilərdə əmin-amanlığın, yerli sakinlərin şəxsi təhlükəsizliklərinin və sosial problemlərinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülmüş, qanunsuz erməni hərbi birləşmələrinin sərəncamında olan döyüş sursatları Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə götürülmüşdür.

Dövlət Təhlükəsizliyi Xidməti Qarabağ bölgəsinin erməni sakinlərinə müraciət edərək, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonuna daxil olan rayonların ümumi inkişafına, həmçinin erməni əhalinin rifahına, sülh şəraitində Azərbaycan cəmiyyətinə reinteqrasiyasına, sosial və humanitar məsələlərinin həllinə, qanunçuluğun, sabitliyin və ictimai təhlükəsizliyin qorunmasına təhdid yaradan əməllərdən, əmlakların, sənədlərin məhv edilməsi və sair bu kimi qeyri-qanuni hərəkətlərdən çəkinməyə, qısa müddətdə onlarda olan silah-sursatı təhvil verməyə çağırır.

Silahları təhvil vermiş və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin tələblərinə əməl edən erməni millətindən olan şəxslərin hüquq və azadlıqlarının qorunmasına tam təminat verilir.

***XQ***

# Müdafiə Nazirliyinin məlumatı

**Sentyabrın 24-ü saat 17:35 radələrində Azərbaycan Ordusuna məxsus "KamAZ" markalı hərbi nəqliyyat vasitəsi minaya düşüb.**

Mövqelərimizin təminat yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış tank əleyhinə minanın partlaması nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Şadmanov Əkrəm Yunis oğlu və Seyidov Tural İslam oğlu şəhid olublar.

Digər hərbi qulluqçumuz Əliyev Elvin Taleh oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq yaralanıb. Vəziyyəti sabitdir, həyatı üçün heç bir təhlükə yoxdur.

*

Baş vermiş mina hadisəsi ilə bağlı cinayət işi başlanılıb. Daxil olmuş məlumat əsasında Hərbi Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsi və Ağdam Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən ilkin prosessual yoxlama hərəkətləri icra edilib.

Fakta görə Ağdam Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və digər zəruri istintaq hərəkətləri həyata keçirilib.

İstintaq davam etdirilir.

*

Müdafiə Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə sentyabrın 25-i saat 18:00-ə olan məlumatı açıqlayıb.



Siyahıda 797 atıcı silah və qumbaraatan, 42 artilleriya silahı, 165 hava hücumundan müdafiə vasitələri, 175 min 225 döyüş sursatı, 1440 təchizat və ləvazimat, 81 optik və digər cihazlar, 22 zirehli texnika, 75 avtomobil texnikası və 21 qoşqu yer alır.

***XQ***

# Rusiyanın anti-Paşinyan məntiqi: Qarabağda hər şeyi edəcəkdik, imkan vermədi

## *Ermənistanın baş nazirinin xalqa müraciətindəki fikirlər hiddət doğurub*

**Rusiya Ermənistanla, o cümlədən ölkənin baş naziri Nikol Paşinyanla dialoqu davam etdirəcək. Bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Ermənistanın baş naziri Nikol Paşinyanın xalqa 24 sentyabr 2023-cü il tarixli müraciətində səsləndirdiyi fikirlərə cavab olaraq bildirib. Qeyd edək ki, N.Paşinyan Azərbaycanın Qarabağda, guya, etnik təmizləmə siyasəti apardığını və bölgədəki Rusiya sülhməramlılarının buna biganə yanaşdığını bildirmişdi. O, eyni zamanda Moskvanın Ermənistanın təhlükəsizlik maraqlarını ödəmədiyini vurğulamışdı. Ümumən, Nikolun müraciəti anti-Rusiya manifesti xarakteri daşımışdı. Baş nazir, faktiki olaraq, Kremli Ermənistanın təhlükəsizliyinə təhdid kimi qiymətləndirmişdi.**



D.Peskov isə açıqlamasında, ilk növbədə, onu bildirib ki, Rusiya sülhməramlılarını nədəsə günahlandırmaq cəhdləri ilə qəti şəkildə razılaşmır. Rus hərbçiləri Qarabağda əsl qəhrəmanlıq göstərirlər. Heç kim onları heç nəyə görə qınaya bilməz. "Birincisi, Ermənistanla müxtəlif səviyyələrdə dialoq davam edir, xüsusən də bu çətin günlərdə. Bilirsiniz, bu yaxınlarda Putin Paşinyanla telefon danışığı apardı. Biz bu anın emosional intensivliyini başa düşürük. Lakin məsuliyyəti üzərimizə qoymaq cəhdi ilə qəti şəkildə razılaşmırıq", – deyən D.Peskov Rusiya sülhməramlılarının Qarabağda öz mandatlarına uyğun fəaliyyət göstərdiklərini vurğulayıb: "Biz öz funksiyalarımızı yerinə yetirməyi, erməni tərəfi ilə, Paşinyanla dialoqu davam etdirəcəyik".

Peskov Rusiya sülhməramlı kontingetinin Qarabağda qalma müddəti ilə bağlı sualı cavablandırarkən iki məqama toxunub. Birincisi, o deyib ki, bu barədə dəqiq məlumatı yoxdur. İkincisi və maraqlısı isə budur ki, Prezident Putinin sözçüsü Rusiyanın Bakı ilə əlaqələrini davam etdirdiyini vurğulayıb. Bu isə o deməkdir ki, sülhməramlılarla bağlı üçtərəfli Bəyanat məntiqi, faktiki olaraq, sıradan çıxıb. Yada salaq ki, həmin bəyanatda rus hərbçilərinin Qarabağda qalma müddətinə dair razılıq verilib-verilməməsi məsələsi həm Azərbaycanın, həm də Ermənistanın üzərində idi. Peskovun cavabından gəlinən qənaət isə budur ki, artıq məsələ ilə bağlı İrəvanın legitimliyi qalmayıb: "Hələlik kiminsə bunu deyə bilməsi ehtimalı azdır. Çünki onlar (sülhməramlılar – red.) indi, faktiki olaraq, Azərbaycan ərazisindədirlər. Biz Bakı ilə əlaqələrimizi davam etdiririk".

Rusiya Prezidentinin mətbuat katibinin fikirlərindən bu qənaət də hasil olur ki, Ermənistan, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıyıbsa, o zaman Nikolun bölgə ermənilərinin köçündə Moskvanı günahlandırmağa heç bir əsası yoxdur. Digər tərəfdən, Peskov Rusiya sülhməramlılarının hazırda Qarabağ erməniləri ilə Azərbaycan hakimiyyətinin nümayəndələri arasında başlamış danışıqlarında iştirak etdiklərini də diqqətə çatdırıb.

*

Qeyd edək ki, Paşinyanın fikirlərinə Rusiyanın Xarici İşlər Nazirliyi də reaksiya verib. Nəinki reaksiya verib, qurum Ermənistanın baş nazirinin söylədiklərini yetərincə böyük həcmli bəyanatla cavablandırıb. Bəyanatın ilk cümləsində bildirilib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın 24 sentyabr 2023-cü il tarixli müraciətində Rusiyaya qarşı qəbuledilməz hücumlar var. Nazirliyin yaydığı sənəddə, habelə, Paşinyanın daxili və xarici siyasətdəki uğursuzluqlara görə məsuliyyətdən uzaq durmaq, günahı Moskvanın üzərinə atmaq niyyəti önə çəkilib. Bildirilib ki, Qərbdən ilhamlanan erməni baş nazirin dedikləri Rusiya və onun müttəfiqlik münasibətlərinə qarşı dağıdıcı yanaşmanın epizodik yox, sistemli xarakter daşıdığının təsdiqidir.

XİN hesab edib ki, Paşinyan öz fikirləri ilə ölkəsinin bilərəkdən Rusiyadan üz döndərməyə hazırlaşdığını göstərdi. Nazirliyin qənaətincə, o, Ermənistanın inkişafı naminə yeni Qərb vektoru təyin etmək üçün addımlar atır, durumu Rusiya və KTMT-nin səhvləri ilə inandırıcı şəkildə əsaslandırmağa çalışır. Ancaq unudur ki, Moskva və İrəvanın təhlükəsizlik və inkişaf məsələlərindəki maraqları, əsasən, oxşardır. ABŞ və digər NATO ölkələri isə Rusiyaya nəinki strateji ziyan vurmağı, həm də Avrasiya məkanında ümumi sabitliyi pozmağı qarşılarına məqsəd qoyublar.

Moskvanın həmişə müttəfiqlik öhdəliklərinə sadiq qaldığının, erməni dövlətçiliyinə hörmətlə yanaşdığının, respublikanı heç vaxt seçim qarşısında qoymadığının vurğulandığı bəyanatda, eyni zamanda bildirilib ki, 2020-ci ilin payızında Rusiya və şəxsən Prezident Vladimir Putinin səyləri Ermənistanın tam məğlubiyyətinin qarşısını almağa imkan verdi. Əgər N.Paşinyan bundan həftələrlə əvvəl atəşkəsə razılaşsaydı, itki daha az olardı.

Kremlin baş diplomatiya idarəsi, həmçinin Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyətinə də yer verib. Qurum da Peskov kimi bildirib ki, rus hərbçiləri bölgədə bəzən öz həyatları bahasına fədakarlıq göstərirlər, Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması naminə son dərəcə çətin missiyasını yerinə yetirməkdə davam edirlər.

Bəyanatdakı maraqlı məqamlardan biri də Ermənistanda Rusiya şirkətlərinə süni çətinliklərin yaradılması barədədir. Sənəddə bununla bağlı siqnalların artdığı vurğulanıb. Mövcud xüsusda Rusiyanın Ermənistan iqtisadiyyatındakı rolu qabardılıb. Regional məsələlərə gəlincə, Rusiya XİN bildirib ki, Paşinyan Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci ilin noyabrından Qarabağın statusu məsələsini gələcək nəsillərin öhdəsinə buraxmaq barədə centlmen razılaşmasına (?) əməl etmək əvəzinə, Qərbin öyüd-nəsihətlərinə boyun əydi. Nikol Praqa və Brüsseldə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyan 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında hərəkət etmək qərarına gəldi. Bu, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalandığı şərtləri, eləcə də Rusiya sülhməramlı kontingentinin mövqeyini əsaslı şəkildə dəyişdi. Ermənistan rəhbərliyinin "uzaqgörənliyi" səbəbindən ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsi sahəsində bir sıra sazişləri həyata keçirmək mümkün olmadı. Xüsusən, Paşinyan altı ölkənin bütün xarici işlər nazirləri tərəfindən artıq razılaşdırılmış qərarı imzalamadı və KTMT-nin müşahidə missiyasını respublikanın Azərbaycanla həmsərhəd rayonlarına göndərilməsinə imkan yaratmadı.

Deməli, belə aydın olur ki, rəsmi İrəvan 10 noyabr 2020-ci il tarixindən sonra Ermənistan silahlı qüvvələrinin Qarabağda mövcudluğunun davam etdirilməsini israrlı şəkildə təkzib etməklə də durumu qızışdırıbmış. Daha doğrusu, Rusiyanın onun xeyrinə çalışmasına imkan verməyibmiş. Hər halda Rusiya XİN-in bəyanatından belə aydın olur. O da aydın olur ki, İrəvanın belə mövqeyi bir neçə gün əvvəlki eskalasiyanın əsas səbəblərindən biridir. Nəticədə yerdə qalan erməni birləşmələrinin çıxarılması və "Dağlıq Qarabağ Müdafiə Ordusu"-nun ağır texnika və silah-sursat çıxarılmaqla tam tərksilahı ilə bağlı əldə edilmiş razılaşma real mənzərəni üzə çıxardı. Bu isə davamlı tərksilah üçün ilkin şərtlər yaratdı.

Bəyanatda o da bildirilir ki, Rusiya və Azərbaycanla birgə ritmik işdən çəkinib Qərbə tərəf qaçmağa üstünlük verən Ermənistan rəhbərliyinin qeyri-ardıcıl mövqeyi nəticəsində 2020-2022-ci illər üçün ən yüksək səviyyədə üçtərəfli sazişlər kompleksinin icrası dalana dirəndi. Qiymətli vaxt itirildi. Halbuki bu müddət ərzində Ermənistan üçün əlavə təhlükəsizlik faktoruna çevriləcək sülh müqaviləsinin razılaşdırılması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması baxımından əhəmiyyətli irəliləyiş əldə oluna bilərdi.

Rusiya XİN bildirib ki, Avropa İttifaqının vasitəçiliyi ilə keçirilmiş Praqa və Brüssel görüşlərində Ermənistanın baş nazirinin Azərbaycanın ərazi bütövlüyünü tanımaqla yanaşı, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyini xatırlamaması da diqqət çəkir. "Bu gün də biz rəsmi İrəvanda Qarabağın aktual problemlərinin həllinə güclü maraq görmürük. Söhbət atəşkəsə riayət etmək, humanitar vəziyyətin yaxşılaşdırılması, Bakı ilə Xankəndi arasında davamlı dialoqun qurulması üçün əlverişli şəraitin yaradılmasından gedir".

Sənəddə o da bildirilib ki, Paşinyanın komandasının məsuliyyətsiz yanaşması erməni cəmiyyətinin bir hissəsində anlaşılan narazılığa səbəb olub, bu, xalq etirazlarında ifadəsini tapıb və həmin etirazların Rusiyadan ilham alması ilə bağlı iddiaların reallıqla heç bir əlaqəsi yoxdur.

*

Onu da bildirək ki, baş nazir Nikol Paşinyanın müraciətindəki anti-Rusiya motivi Ermənistanda da geniş diskussiya predmetinə çevrilib. Əlbəttə, görünən mənzərə budur ki, ölkədə Rusiyadan böyük narazılıq var. Hər halda Paşinyan administrasiyası bu narazılığı körükləyən tərəfdir. Doğrudur, erməni mediasının, elə ekspert camеəsinin bildirdikləri fərqli ovqat yaradır. Belə rəy formalaşır ki, Nikol müraciətindəki fikirlərə görə qınanır, ittiham olunur. Mövcud istiqamətdə çoxsaylı hiddət dolu bəyanatlardan və açıqlamalardan söz açmaq mümkündür. Lakin onların yalnız birinə diqqət yetirmək istərdik. Məsələn, politoloq Suren Surenyants bildirib ki, baş nazirin söylədikləri yeni eranın başlanğıcı ola bilər. Lakin yeni dövr Ermənistanın və erməni xalqının maraqlarına əsaslanmayacaq. "Vətənpərvərlik əclafların son sığınacağıdır" ifadəsi üzərində dayanan Surenyants bu deyimi Paşinyanın əl atdığı metod kimi dəyərləndirib. Onun sözlərinə görə, ölkəni fəlakət və kapitulyasiya, vətəndaş toqquşmalarının astanasına gətirən adam özünü suverenliyin müdafiəçisi kimi göstərməyə çalışır. Politoloqun fikrincə, baş nazirin söylədiklərinin əksinə olaraq, müstəqillik illərindəki Ermənistan regionda, guya mühüm oyunçu olub, öz mövqeyi ilə seçilib, Paşinyanın gəlişi ilə ölkə potensialını sıfıra endirib. "Paşinyan gələnə qədər bizim Rusiya, ABŞ, İran və Gürcüstanla əla münasibətlərimiz var idi. Lakin Paşinyanın ritorikası və hərəkətləri vəziyyəti dəyişdi. Bu şəxs təkəbbürü müstəqilliklə qarışdırıb və bu, son dərəcə təhlükəli bir səhvdir. Çünki resurslar olmadan "xoruz döyüşü" yaxşı bir şeyə səbəb olmur. Mən dəfələrlə qeyd etmişəm ki, Rusiya ən yaxşı dost yox, ən təhlükəli düşmən ola bilər və Paşinyanın hərəkətləri bu düşmənçiliyi daha da gücləndirir", – deyən Surenyants fikrinə aydınlıq gətirib.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# İranın müasir etno-mədəni mənzərəsi

## Doğrudanmı, bu ölkədə farslar əksəriyyət təşkil edir?

**İran İslam Respublikasının rəsmi şəxsləri, məmurları milli məsələlərdən söhbət açanda ölkənin etnik tərkibində farslarn əksəriyyət təşkil etdiyini bildirirlər. Bu ölkənin tarixində farsların heç bir vaxt çoxluq təşkil etmədiyini bildiyimiz üçün rəsmi statistikaya müraciət etmək ehtiyacı duyduq.**

Əvvəla, bildirək ki, İranda rəsmi statistikanın ictimailəşməsi qadagandır. Hansı tarixi mərhələdə "farsların İranda əksəriyyət" təşkil etdiyinə aydınlıq gətirmək, ümumiyyətlə, İranın etnik tərkibi haqqında mötəbər məlumat əldə etmək üçün bu barədə yazılmış elmi, siyasi və kulturoloji yazılara da nəzər saldıq. Məlum oldu ki, son 40 ildə İranda həyata keçirilən məqsədli etno-mədəni proseslər və onun törətdiyi fəsadlar nəticəsində dəqiq mənzərəni müəyyən etmək çətindir. İstinad ediləcək mötəbər mənbələr mövcud olmasa da, bir fakt aydındır: İranda farslar çoxluq təşkil etmir.

1979-cu il inqilabından əvvəl də ölkədə normal statistika xidməti olmayıb və Pəhləvilər rejimi etno-mədəni proseslərin manipulyasiyası ilə məşgul olub. Müasir qloballaşma dövrünün kommunikativ vasitələri isə bir çox məlumatları aşkara çıxarır. Mobil telefon abonentlərinin sayı, plastik bank kartları, reqionlarda olan fərqli maliyyə dövriyyəsi, müxtəlif sosial layihələrin həcmi demoqrafik mənzərə haqqında ümumi məlumat əldə etməyə imkan yaradır.

İran cografiyası hazırda 31 ostanla idarə edilir. Qacarlar zamanı "məşrutə hərəkatı"nın qələbəsi olaraq ölkənin siyasi xəritəsi 5 bölgəyə ayrılıb və onun siyasi mənzərəsi müəyyənləşdirilib. Pəhləvilər zamanı siyasi xəritə hissə-hissə dagıdılıb və iqtisadi məqsədlərə əsaslanan əyalətlər yaradılıb. Bu siyasi məqsədlərlə edilsə də, iqtisadi səbəblər göstərilib və proses bu gün də davam edir. Ostanlarda yaşayan əhalinin 60 faizi şimal, 40 faizi mərkəz və cənub reqionlarında məskunlaşıb.

Açıq olan mənbələrin 2016-cı il məlumatları ölkədə 70,76 milyon əhalinin oldugu haqqında məlumat verir. İranın tarixi inkişafında rolu olan mərkəzi ostanlar, mədəniyyət və iqtisadi mərkəz hesab edilən ərazilər bir sıra hallarda yenicə qurulmuş ostanın statistikasından geri qalır. Bu barədə məlumat təəccübləndirici səviyyədə saxtalaşdırılıb.

31 ostan üzrə məlum statistikaya baxaq: Şərqi Azərbaycan – 4 milyon; Qərbi Azərbaycan – 3 milyon; İsfahan – 4,5 milyon; Ərdəbil – 1,5 milyon; Əlborz – 3 milyon; İlam – 0,6 milyon; Buşəhr – 12 milyon; Tehran – 8,5 milyon; Çaharmahal və Bəxtiyari – 1,2 milyon; Cənubi Xorasan – 0,76 milyon; Xorasan Rəzəvi – 6,5 milyon; Şimali Xorasan – 1 milyon; Xuzistan – 4,5 milyon; Zəncan – 1 milyon; Semnan, 0,7 milyon; Sistan və Bəlucistan – 2,5 milyon; Fars – 4,5 milyon; Qəzvin – 1,5 milyon; Qum –1,2 milyon; Kürdüstan – 1,7 milyon, Kerman – 0,5 milyon; Kermanşah – 2 milyon; Kohgiluye və Buyer Əhməd – 600 min; Gülüstan – 2 milyon; Gilan – 2,5 milyon; Lurestan – 1,7 milyon; Mazandaran – 3 milyon; Hormozqan – 1,4 milyon; Həmədan – 1,8 milyon; Yəzd – 0,5 milyon; Mərkəzi – 1,4 milyon nəfər.

Əhalinin monoetnik tərkibinə görə yalnız azərbaycanlılar, farslar, kürdlər, lorlar və digər xalqlar yaşayan ostanları müəy-




yənləşdirək. Bu kateqoriyada ən geniş cografiyada yayılanlar, eyni zamanda daha çox ostanda kompakt və monoetnik şəkildə yaşayan qrup azərbaycanlılardır. Etnik tərkibə görə ostanları təsnif etməyə çalışaq:

– yalnız türklər-azərbaycanlılar yaşayan ostanlar;

– 50 faizdən artıq əhalisi türk–azərbaycanlı olan ostanlar.

– 20 faizdən çox əhalisi türk–azərbaycanlı olan ostanlar;

– 20 faizə qədər əhalisi türk–azərbaycanlı olanlar.

**Birinci qrupu** Şərqi Azərbaycan ostanı 4 milyon əhali, Qərbi Azərbaycan ostanı 3 milyon əhali, Ərdəbil ostanı 1,5 milyon əhali, Zəncan ostanı 1 milyon əhalisi ilə əhatə edir (2011-ci il məlumatına əsasən). İranın etibar edilməyəcək statistikasına əsasən, 2006-cı ildə həyata keçirilən əhalinin ümumi siyahıya alınması əsasında bu ostanlarda 9,5 milyon əhalinin oldugunu elan edir (ölkə üzrə əhalinin 81 milyon olması müqabilində). Müxtəlif mənbələrdə 2006, 2011, 2016-cı illər məlumatları məntiqi nəticələr əldə etmək üçün maneə yaradır. Odur ki, bu məlumatlarla və illik büdcə bölgüsünü sinxronlaşdıraraq optimal mənzərəni üzə çıxarmaga çalışaq.

Verilən məlumatları reqionlara görə topladıgımız halda bütün ostanlar üzrə 70 milyon əhali müəyyənləşir. Deməli, ümumi göstəricilər 25 faiz azaldılıb. Buna əsaslanaraq ortaya çıxardıgımız rəqəmləri 25 faiz artıra bilərik. Bir çox rəqəmlər, ümumiyyətlə, gülünc bir mənzərə ortaya çıxarır. Məsələn: Bəsrə körfəzinin sahilində yerləşən Buşəhr ostanının əhalisi ərəblər oldugu halda, 2006-cı il siyahıyaalması 900 min nəfərin "90 faiz"inin fars oldugunu göstərir. Cənubi Xorasan ostanının 760 min (2016-cı il) əhalisinin "90 faiz"inin fars oldugunu yazsalar da, az-çox İranı tanıyanlar bilir ki, o cografiya tarixi əfqan və bəluc torpaqlarıdır.

Eyni mənzərəni mərkəzi Bəndər Abbas şəhəri olan Hürmüzqan ostanının əhalisi haqqında da görürük. 1 milyon 400 min nəfər əhalinin 90 faizi fars olaraq göstərilir. Bu statistikalarda son 30 ildə İranda yaşayan 4 milyondan artıq əfqan yer almır. Fars ostanında 4,5 milyon, Xuzistanda 4,5 milyon, Xorasan Rəzəvidə 6,5 milyon, İsfahanda 4,5 milyon əhali göstərilməklə, 81 milyonluq ölkə əhalisinin 20 milyonunu burada "yerləşdirirlər".

Lakin bu 20 milyon əhalinin düzgün dislokasiyası, etnik tərkibi haqqında dogru-düzgün məlumat əldə etmək mümkün deyil. Bu əhalinin sosial ehtiyacları, kommunikasiya və qidalanması kimi məsələlərin öyrənilməsi göstərir ki, həmin rəqəmlər siyasi mənzərənin yaradılması məqsədi daşıyır.

**İkinci qrupa daxil olan ostanlar:** Tehran – 8,5 milyon, Həmədan – 1,8 milyon, Əlborz – 3 milyon, Qəzvin – 1,5 milyon, Gülüstan ostanı – 2 milyon (əhalisinin 60 faizini türkmənlər, Xorasan türkləri və azərbaycanlılar təşkil edirlər), Şimalı Xorasan – 1 milyon (rəsmi məlumata görə, əhalisinin 60 – 80 faizi türklərdır). Rəsmi məlumata görə, Qum ostanının 1 milyon 152 min nəfər (2011) əhalisinin 50 faizi fars, 30 faizi azərbaycanlı və digərləridir. Mərkəzi ostanda 70 faiz fars, 21 faiz azərbaycanlı və digərləri yaşayır. Bu rəqəmlərdəki 25 faiz fərqini nəzərə almaqla müəyyən olunur ki, əslində, türklər 40 faizdən artıq olmalıdır.

Bu qrupa daxil edilən ostanların etnik tərkibi haqqında geniş izahat verməyə ehtiyac var. Məsələn, qeyd olunan siyahıyaalmada (2006-cı il) 8,5 milyon əhalisi olan Tehranın 25 faiz əhalisinin azərbaycanlı oldugu rəsmi etiraf edilir. Lakin türkmənlər, qaşqaylar, hətta Tehranın yerli əhalisi olan dəmavəndlilər və şəhriyarlılar (yerli türklər) bura daxil edilmir. Ədalət xatirinə qeyd edilməlidir ki, Tehranda yaşayan çox böyük sayda kürdlər heç statistikaya daxil edilməyib.

"Azadi" meydanında (Tehranın atovağzalı bu ərazidə yerləşir) qoca atasını qarşılayan bir kürd mühəndis oglunun qulagına pıçıltı ilə deyir: "Atamı apar evə, qoy, paltarını dəyişdirsin, sonra adam içinə çıxın (atası Kürdüstandan milli paltarı ilə gəldiyindən oglu utanc duyur).

Əlbəttə ki, Tehran əhalisinin marginallaşdırıldıgını bilirik. Ölkənin paytaxtı olaraq Qacarlar zamanından bu şəhər "ərbablar" və "nökərlər" şəhəri sayılır. Hətta, nökər olmaq üçün də fars dilini ləhcəsiz bilməli və danışmalısan. Tehranda çox sayda ailələr qurulub ki, türk və kürd ailələri özlərini fars olaraq təqdim edib, hətta qohum və yaxınları ilə görüşəndə belə ana dilində danışmayıb ki, "səviyyəsi" aşagı düşər. Belə tehranlıların övladları indi bir azərbaycanlı ilə rastlaşanda nostalji ilə "pedəre bozorge mən həm tork bude..." (mənim də babam türk olub) deyir.

Bu cografiyanın etno-psixoloji mənzərəsini daha da geniş təhlil etməyə ehtiyac var. Bu zaman İranın rəsmi siyasətinin nə qədər yanlış və düşünülməmiş oldugunu üzə çıxarmaq mümkündür. Ölkənin passionarlıgının pozulması yalnız marqinallaşdırılmış islam ilə özünü göstərmir. Bir çox digər səbəblər də mövcuddur.

**(ardı var)**

***Kazimi PƏRVİZ,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# Yevlaxda Pişəvəri küçəsi

**Yevlaxın daha bir küçəsi əvvəlki görkəminə, yaraşığına görə rayon mərkəzini gözəlləşdirəcək. Seyid Cəfər Pişəvərinin adını daşıyan küçədə əsaslı təmir işləri başa çatdırılmaqdadır.**



Şəhərin bu küçəsi uzun müddət təmir olunmadığı üçün istismara yararsız hala düşmüşdü. Hazırda burada qızğın iş gedir. Köhnə asfalt örtüyü yenilənir, piyada səkiləri və yeraltı kommunikasiya xətləri bərpa olunur, yağış sularına qarşı barmaqlıqlar quraşdırılır, nişanlanma xətləri çəkilir. Tikinti norma və standartlara uyğun aparılır, təmir işləri zamanı beton səki daşları çəkilir, yeni işıq dirəkləri quraşdırılır.

Yevlaxlılar yaxşı başa düşürlər ki, xalqımızın görkəmli oğlu, Azərbaycan Demokrat Firqəsinin banisi və sədri,Güneydə Milli Hökumətin rəhbəri Pişəvərinin adı ilə bağlı kücə ona layiq olmalıdır. Yevlaxlıların bu hüsni-rəğbəti təkcə belə amillərlə bağlı deyildir. 1947-ci ildə Yevlax rayonunun Aran qəsəbəsində müəmmalı nəqliyyat qəzasında dünyasını dəyişən demokrat liderin ruhu burada əbədiyyətə qovuşub.

Rayonda Seyid Cəfər Pişəvərinin adı və əməli ilə bağlı nə varsa qiymətli xatirə kimi qorunub saxlanılır. Qəbiristanlıqda onun və silahdaşlarının şərəfinə abidələr ucaldılıb, onların mübarizəyə milli birlik, qəhrəmanlıq ruhlu tədbirlər keçirir. Pişəvəri küçəsi isə bu şəhərdə Güney sevgisinin böyüklüyünü təcəssüm etdirir.

***Hüseyn RƏHİMZADƏ***

# İrəvanın "fars dili sevgisi"

**Tehranla İrəvan arasında güclənən hərtərəfli münasibətlər fonunda Ermənistanda fars dilinin tədrisi genişləndiriləcək. Bu barədə İranda yaşayan ermənilərin media orqanı olan "Araks" məlumat yayıb.**



Bildirilib ki, İranın İrəvandakı səfiri Mehdi Sübhani ilə Ermənistanın təhsil, elm, mədəniyyət və idman naziri Janna Andreasyan arasında bugünlərdə keçirilən görüşdə bu barədə razılıq əldə olunub. Sübhani regional dil təhsili çərçivəsində Ermənistanın dövlət məktəblərində fars dilinin tədrisinin vacibliyini vurğulayıb.

Erməni nazir də Ermənistanın ali və orta məktəblərində fars dili müəllimlərinin hazırlanması proqramının həyata keçirilməsinin zəruri olduğunu qeyd edib. Müsəlmanları əzəli, əbədi düşmən sayan ermənilərin "fars dili sevgisi" də, şübhəsiz ötəri bir təbliğat amilidir. Bu sevginin arxasında müstəqil Azərbaycan dövlətinə qarşı ortaq hədəfləri daha dərindən anlamaq cəhdi gizlənir. Yəni Tehran və İrəvanın hələ bundan sonra da illər uzunu farsca pıcıldaşmaq ehiyacı var.

***Rəhman GƏNCƏLİ***



# Araz taleli Məmməd Araz



***Güney Azərbaycan mövzusu Xalq şairi, "İstiqlal" ordenli Məmməd Arazın yaradıcılığında davamlı və geniş əksini tapıb.***

Çağdaş milli şeirimizin dəyərli poetik nümunələrini yaradan ustad Məmməd Arazın bədii irsində Araz mövzusu seçilən və təsirli yer tutur.

Təsadüfi deyil ki, Məmməd Araz Güney mövzusunda şeirlər silsiləsi yaratmış az sayda tanınmış şairlərimizdən biridir. Bunlardan "Araz dili", "Yenə Arazı gördüm...", "Bu gecə yuxumda Arazı gördüm", "Mən Araz şairiyəm", "Arazın işıqları", "Araz üstə çinar gördüm", "Araz yadıma düşüb", "Arazın nağməsi" şeirləri və "Araz axır" poeması mahiyyət etibarı ilə torpaqlarımızin 2 yerə bölünməsinə, xalqımızın Güney faciəsinə xidmət edir və bütövlükdə ümummilli məsələyə köklənib.

Azərbaycan nəzm və nəsr ədəbiyyatının bir çox nümayəndələri Araz çayına xitab edərək şeirini onun Vətənimizi 2 hissəyə ayırmasına, yurdumuzun ortasında sərhədə çevrilməsinə həsr ediblər. Bəzən bu çayı bir xalqı ikiyə bölən qəddar bir sədd kimi qiymətləndirənlər, bəzənsə vahid Azərbaycan probleminin baisi, səbəbkarı, qınaq yeri kimi də müraciət edənlər az olmayıb. Amma Məmməd Araz yaradıcılığında Araz nə zavallı, nə də günahkardır, Araz hər zaman məğrurluq rəmzidir.

Onun şeirlərindəki sətiraltı mənalar şairin Araz təxəllüsü ilə səsləşən obrazıdır. Şairin həyatdakı canlı prototipi elə Araz çayının özüdür. Məmməd Arazın bu mövzuda yaradıcılığı məğrurluq, yenilməzlik, vüqarlılıq üstündə qurulub. Haqsızlığa tab gətirməyən, ədalətsizliyə boyun əyməyən dağ əzəmətli, qaya vüqarlı bir döyüşkən poeziya nümunəsi dayanır qarşımızda. Məmməd Araz şeriyyəti oxucusunu valeh etməklə yanaşı, hər zaman düşündürür. Aforistik deyimləri, müdrik kəlamları, filosofsayağı düşüncələri oxucusunu əfsunlamaqla yanaşı, eyni zamanda, düşünməyə və dərs çıxarmağa sövq edir.

Məmməd Araz yaradıcılığı bütövlükdə bir tarixdir. Öz millətinin, vətəninin yazılmayan salnaməsi, tarix dərsidir. Bəzən qəhrəmanlıq tarixi, bəzən mərdlik nümunəsi, bəzənsə ürəkparçalayan taleyidir. Şairə görə Araz Azərbaycan həqiqətlərinin qan yaddaşıdır:

***Seyr elə Arazı bir yaz səhəri,***
***Bir tarix dil açar onun səsində.***

Araz – şair Məmməd İbrahimovun, sadəcə, təxəllüsü deyil, onun qəlbindəki ən məhrəm duyğuların, ən gizli sirlərin sadiq dostu, dərddaşı və ömürnaməsidir. O, Arazdan, sadəcə, yazmır, cayın axışına, füsunkarlığına şeirlər həsr edərək onu vəsf etmir. Şair çaya bir xalqın taleyinin, tarixinin, keçmişinin canlı şahidi kimi müraciət edir. Yazıçı-publisist Aqil Abbas Məmməd Arazın təxəllüsünün niyə Arazdan gəldiyini və onun Araz sevgisinin ilahiliyini səciyyələndirərkən yazır: "Şairin ən böyük dərdi, şairin ən böyük ağrısı Araz dərdi, Araz ağrısıdır. O Araz ki, Azərbaycanı iki yerə bölüb. Yüz illərdir bu xalqın bir arzusu var, o da birləşmək arzusu! Şair də bu arzu ilə yaşayır və elə məhz ona görə də özünə "Araz" təxəllüsü götürüb".

Hər bir Azərbaycan vətəndaşı, ələlxüsus da naxçıvanlı Araz çayını dəfələrlə görüb. Bir çoxları üçün, sadəcə, su



axınından ibarət olan bu çay şair Məmməd Araz üçün ilham mənbəyi olmaqla yanaşı, bir qibləgahdır. Araz mövzusu Məmməd Araz yaradıcılığının sütununu təşkil edir. Bütövlükdə, Araz cayı şairin yardıcılığında bir vəsf obyekti, təbiət lövhəsi deyil, Araz bəzən baş qəhrəmandır, bəzən canlı bir obrazdır, bəzənsə sirdaş, dərddaş, xitab yeridir. M.Araz Arazı xalqımızın mübarizə, döyüş rəmzi kimi rəmzləşdirir. O, sanki, Arazla canlı insan kimi dərdləşir, bəzən insanlara deyə bilmədiyini Araza deyir, asta-asta, həzin-həzin sızlayır, bəzən hayqırır:

***Mən neçə yol danışmışam Arazla...***
***Hansı dildə danışmışam? – Bilmirəm!***

Bu misralar şairin yaddaşlarda unudulmaz izlər buraxan "Araz dili" adlı şeirindən götürülüb. Məmməd Arazın Araza yazdığı şeirlərindən ən təsirlisi "Araz dili"dir. Burada Azərbaycan xalqının dünəni və bu günü məharətlə, ən seçkin sözlərlə və bəzən də təbii ümumxalq dilindən gələn diləyatım ifadələrlə əksini tapıb:

***Araz dili nə qılıncdı, nə hədə,***
***Araz dili: ürək dili, göz dili,***
***Torpaq dili, hava dili, göy dili***
***Mən neçə yol danışmışam Arazla...***

Bu şeir və həmçinin Araz mövzusu Məmməd Arazın fərdi duyğularının poetik təzahürüdür. Onun bütün yaradıcılığında olduğu kimi, bu şerində də fəlsəfi dərinlik, hikmətli düşüncə, dərin məntiq hakimdir. Çünki Məmməd Araz Araz çayına adi bir şair gözü ilə baxıb onu hər hansısa gözəlliyini vəsf etmir, poetik tablo yaratmır. Onun üçün Araz cənub mövzusunda həsrətin və dərdin rəmzidir . Məmməd Arazın bəhs etdiyimiz mövzudakı şeirlərindən şairin ürəyinə saplanan Araz dərdinin sızıltısı duyulur.

Məmməd Araz hər bir təbiət lövhəsinə bədii don biçməkdən çox, onu fəlsəfiləşdirən şairdir. Biz "Araz şairi" Məmməd Arazın yaradıcılığında çayın bədii təsvirinə, poetik tablosuna rast gəlmirik. Buna görə də Araz onun üçün vəsf obyekti olmaqdan çox xitab yeridir. Araz mövzusu şairin yaradıcılığının ana xəttini təşkil etməklə yanaşı, onun əsas qayəsinə, məramnaməsinə çevrilir. Araz mövzusu həm də şair üçün vasitədir. O, fərqli mətləbləri qələmə almağa, deyilməmiş fikirləri ifadə etməyə xidmət edir.

Məmməd Arazın bədii duyğuları da Araz çayı kimi durmadan axır. Onun da yaradıcılığı Araz çayı kimi başıbəlalıdır. Bir təxəllüs şair taleyini özündə bu qədərmi ehtiva edər, özü ilə bütünləşdirə bilər? Bir şair öz təxəllüsünə bu qədərmi bənzəyər, bir təxəllüs sahibi ilə bu qədərmi bütünləşər?! Oxucu bu sintezin bədii lövhələrini "Yenə Arazı gördüm..." şeirində görür.

Şair Araz çayının sahilini dodağına, ləpələrini dilinə, sahil boyu uzanan çinarlarını yazan əlinə bənzədir. Ləpədöyən bərk qayaların həssaslığını qəlbi kimi həzin, hər bir pıçıltını hiss edən hissiyyatı ilə qarşılaşdırır. Şair dəyişən əhvalını, rəngbərəngə çalan şair ruhunu, bədii ovqatını bu çayın axar-baxarı ilə müqayisə edir və "Tutqundur qaşqabağın, Bu qaşqabağım kimi" deyir.

Bütövlükdə "Yenə Arazı gördüm..." şeirini M.Araz dünyasında Araz təxəllüsünün yozumu, açıqlaması və ya sirri kimi dəyərləndirmək olar:

***Mən sənə bir şair,***
***Sən mənə Araz de.***
***Elə bil, nə mənsiz***
***Sən Araz,***
***Nə sənsiz mən şair olardım...***

Bu misralarda şairin şairliyinin əsas ilham mənbəyinin Araz çayı olduğunu açıq-aydın görürük. Bu məqama bağlı olaraq akademik İsa Həbibbəyli yazır: "Azərbaycan ədəbiyyatında çox məsuliyyətli olan Araz təxəllüsünü daşımaq haqqını qazanmaq Məmməd Araza nəsib olmuşdur".

***Zülfiyyə İSMAYIL,***
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, fəlsəfə doktoru, dosent***

# Ankaranın yeni siyasi xətti: rəqabətdən əməkdaşlığa!

**Türkiyənin xarici siyasət xəttində daha pozitiv və dinamik cəhətlər hiss olunmağa başlayıb. Ankara yaxın qonşuları ilə münasibətləri yaxşılaşdırmaqla bərabər, Qərblə, xüsusilə Avropa İttifaqına (Aİ) üzv dövlətlərlə əlaqələrini gücləndirir. Bu, başadüşüləndir, belə ki, qardaş ölkə regionda və bütün dünyada "çəki"sini və nüfuzunu artırmağa çalışır və buna nail olmağı bacarır.**



Türkiyə Prezidentinin BMT Baş Assambleyası çərçivəsində keçirdiyi son görüşlərdən ikisi xüsusilə diqqəti cəlb edib: R.T.Ərdoğan Nyu-Yorkda BMT-nin məşhur binası ilə üzbəüz yerləşən "Türkiyə evi"ndə İsrailin Baş naziri Binyamin Netanyahu və Yunanıstan hökumətinin rəhbəri Kiriakos Mitsotakisi qəbul edib. Bunlar sıradan bir görüşlər deyil. Bu barədə bir qədər sonra söz açacağıq.

Bir qədər əvvəl isə R.T.Ərdoğanın Hindistanın paytaxtı Yeni Dehlidə keçirilən "Böyük iyirmiliy"in (G-20) sammitində misirli həmkarı Əbdülfəttah əs-Sisi ilə görüşü olmuşdur. Bu mühüm görüş Türkiyənin regionda bir çox sanballı aktorlarla, eləcə də 100 milyondan çox əhalisi olan Misirlə hərtərəfli əməkdaşlığının yeni mərhələyə keçidi kimi dəyərləndirilə bilər.

Qayıdaq Nyu-Yorka. Bir çox mənbələrə görə, Ərdoğanın Netanyahu ilə görüşü çox yaxşı keçib və iki lider tezliklə bir-birinin ölkəsinə səfər etmək niyyətində olduqlarını açıqlayıblar. Digər bir məlumata görə isə, ölkə başçıları enerji, texnologiya, innovasiyalar, süni intellekt, kibertəhlükəsizlik, ikitərəfli ticarətin artırılması, regional əməkdaşlıq, o cümlədən həssas Fələstin problemini müzakirə ediblər. Bundan başqa heç kimə sirr deyil ki, Türkiyə Prezidenti vaxtaşırı israilli həmkarı İsxak Hersoq ilə də məhsuldar "telefon diplomatiyası" aparır.

Görünən budur ki, Ankaranın Qüds və Fələstinlə bağlı həssaslığı lazımi səviyyədə nəzərə alınır. Belə olan halda, Ərdoğan və Netanyahunun mütəmadi canlı ünsiyyəti, necə deyərlər "liderdən-liderə" diplomatiyasından bəhrələnmələri mümkün ola bilər ki, bu da Şərqi Aralıq dənizi də daxil olmaqla, bir çox yaxın bölgələrdə güc balansına təsir göstərəcək. Axı bütün regional oyunçular normallaşmanı başa çatdırmağa və yeni ikitərəfli və üçtərəfli əməkdaşlıqlarını möhkəmləndirməyə çalışırlar.

Sözsüz ki, hər bir ölkə yeni qlobal nizamsızlıq haqqında da kifayət qədər məlumatlıdır. ABŞ və Çin arasındakı rəqabət təklif edilən dəhlizlər şəklində Türkiyənin qonşuluğuna təsir edir. Hazırda Türkiyə, İsrail və Yunanıstan arasındakı əlaqələr enerji, logistika və təhlükəsizlik daxil olmaqla əməkdaşlıqla yanaşı, rəqabəti də gücləndirir. Sonda sürətlə hərəkət edən və konkret layihələr hazırlayan xalqlar strateji hədəflərinə daha tez çata biləcəklər.

Türkiyə Prezidentinin Yunanıstanın baş naziri ilə görüşü də "məhsuldar" olub. Məlumdur ki, hər iki ölkədə keçirilən son seçkilərdə qarşılıqlı gərginliyi azaltmaq siyasətinə üstünlük verən liderlər seçilib. Türkiyə Yunanıstan ilə etimadın gücləndirilməsi üçün konkret addımlar atmağı hədəfləyir. Dekabrın 7-də iki dövlət arasında son yeddi ildə ilk dəfə keçiriləcək Yüksək Səviyyəli Əməkdaşlıq Şurası qonşular arasında yeni bir dönəmin başlanğıcı ola bilər. Təhlilçilər ümid edirlər ki, liderlər münasibətlərdəki "soyuqluğ"un bundan sonra arxada qalması üçün çalışacaqlar.

BDU-nun Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimov vurğuladı ki, iki qonşu ölkə təbii fəlakətlər, ekoloji problemlər və meşə yanğınlarla bağlı birgə işləsələr, mədəni mübadilələri inkişaf etdirsələr, o cümlədən qeyri-qanuni miqrasiyaya qarşı qüvvələri birləşdirsələr, Egey və Şərqi Aralıq dənizi kimi mübahisəli məsələləri həll etmək mümkün ola bilər.

Professor eyni zamanda vurğuladı ki, dəniz yurisdiksiyalarının delimitasiyası, "çətin" razılaşmalar, şura iclaslarının təşkili, yüksək səviyyədə təmaslar və təklif olunan həll yolları, şübhəsiz ki, Türkiyə–Yunanıstan münasibətlərinə töhfə verəcək.

Bəli, Türkiyə bu gün regionda və dünyada baş verən ciddi proseslərin içindədir. Ankara bir çox Qərb dövlətlərindən fərqli olaraq, destruktiv deyil, konkstruktiv mövqedən çıxış edir, belə səriştəli yanaşma Ankaranın fəaliyyət miqyasını genişləndirir.

Yenə də vurğulamaq istəyirəm ki, böyük güclər rəqabətinin regiona təsirini diqqətlə izləyən və normallaşma səylərini konkret əməkdaşlıq planlarına çevirə bilən aktorlar bundan faydalanacaqlar. Türkiyənin etdiyi də məhz budur.

***Məsaim ABDULLAYEV***
***XQ***

## Ekspert rəyi

**Rüfət RÜSTƏMOV,**
**BDU-nun türk filologiyası kafedrasının müdiri, professor**



– Türkiyə dövləti son prezident seçkilərindən sonra gözlənildiyi kimi, olduqca fəal xarici siyasət kursu həyata keçirməyə başlayıb. Məlumdur ki, planetimizdə yeni dünya düzəni formalaşır və Ankaranın bu prosesi yönəldən qüvvələrdən biri olması bütün türk dünyası üçün olduqca vacibdir.

Məlumdur ki, çağdaş dünya siyasətinin ən xarizmatik liderlərindən biri olan sayın Prezident Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda çıxışı zamanı Birləşmiş Millətlər Təşkilatında köklü və ədalətli islahatların vacibliyini bird aha gündəmə gətirib.

BMT-nin Baş katibi Antonio Quterreşin və ABŞ Prezidenti Co Baydenin son illər təşkilatın normal funksionallığının baş vermədiyini etiraf etmələrindən bir daha aydın olur ki, Türkiyə liderinin hər zaman səsləndirdiyi arqumentləri ("Dünya beşdən böyükdür") və ("Daha ədalətli dünya mümkündür") beynəlxalq siyasi dairələrdə geniş dəstək qazanmışdır.

Bununla belə, mövcud beynəlxalq şəraitdə Təhlükəsizlik Şurasının daimi üzvlərinin köklü islahatlara razılaşacaqlarına ehtimallar azdır. Rusiya–Ukrayna müharibəsinin böyük güclər arasında rəqabəti daha da dərinləşdirdiyini nəzərə alsaq, demək olmaz ki, biz hər hansı razılaşmadan xeyli uzaqdayıq.

Buna baxmayaraq, R.T.Ərdoğan təkcə bugünün deyil, sabahın ədalətli dünyası üçün "yeni beynəlxalq nizam"a çağırır. Onun buna mənəvi və hüquqi haqqı var.

Türklər o xalqlardandır ki, ədaləti təkcə özləri üçün deyil, bütün dünya üçün arzulayır və bu hədəfə doğru addımlamağı bacarırlar.

Türklər bu vaxta qədər tarixdə 128 dövlət qurublar. O xalqlar dövlət qura bilərlər ki, onlar qəhrəman olduqları qədər, insaflı və mərhəmətlidirlər. Böyük Atatürk nahaq yerə demirdi ki, "Nə mutluyam türkəm deyənə!". Üfüqdə məhz qəhrəman, insaflı və mərhəmətli Turan boylanır!

Son vaxtlar Türkiyənin xarici siyasət kursunda baş verən müsbət prosesləri yalnız alqışlamaq olar. Ankara öz müdrik və ədalətli addımları ilə bütün ölkələri və xalqları regionda və bütün dünyada kəskin, sonu olmayan rəqabətdən əməkdaşlığa səsləyir. Türkün gücü və ədaləti bundadır!

**Hindistan Cənubi Qafqazda daha fəal rol oynamaq istəyir. Rəsmi Nyu-Dehli bunun üçün əsas tərəfdaş kimi Ermənistan ilə münasibətlərini inkişaf etdirməyə çalışır. Hindistan və İrəvan özlərini "təbii müttəfiqlər" kimi qələmə verirlər və bu ikitərəfli əlaqələrin geniş istifadə olunmamış potensialından istifadə etmək əzmində olduqlarını bildirirlər. Bu, təbii ki, reallığı əks etdirmir. Vəziyyətə xəyali geosiyasi maraqlar prizmasından deyil, müəyyən edilə bilən və möhkəm iqtisadi üstünlüklər nöqteyi-nəzərindən baxsaq, aydın olur ki, Ermənistan geosiyasi iştahası gündən-günə artan Hindistan üçün cəlbedici ölkə deyil və İrəvan hindlilərə Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizində arzuladığı həlqə statusu kimi maraqlıdır. Təbii ki, Hindistanı regionda fəal olmağa vadar edən digər amillər də var.**

Cənubi Qafqazda Ermənistan mərkəzi mövqe tutmur və yütürdüyü yarıtmaz siyasət nəticəsində İrəvan daha çox regionun korbağırsağı kimi qiymətləndirilir. Yəni uzun illər işğalçı siyasəti nəticəsində regionda həyata keçirilən genişmiqyaslı energi-nəqliyyat layihələrindən kənarda qalan Ermənistan hazırda regional dalanda çabalayır. Görünür, ermənilərin düşdükləri hazırkı çıxılmaz geosiyasi və geoiqtisadi vəziyyət Hindistanı o qədər də narahat etmir, hindlilər düşünürlər ki, müharibədə döyülmüş ermənilərin hesabına regionda maraqlarını təmin edə biləcək. Halbuki regionda yeni reallığı Azərbaycan İkinci Qarabağ müharibəsində qalib gəlməklə dəyişdirdi və regionun yenidən şəkilləndirilməsi istiqamətində atılan real və təsirli addımların da məhz rəsmi Bakıya və onun strateji müttəfiqi Türkiyəyə məxsus olduğunu uzaq Hindistanda da gözəl bilirlər.

Bununla belə, hindlilər düşünürlər ki, Ermənistana hərtərəfli yardım göstərməklə Azərbaycanın və Türkiyənin, eləcə də strateji düşməni olan Pakistanın regionda əməkdaşlıq formatının zəiflətməsinə nail ola bilər. Buna görə də, təsadüfi deyil ki, 44 günlük müharibədən dərhal sonra Ermənistan ilə Hindistan arasında çoxsaylı silah və sursat satınalınması barədə müqavilələr imzalandı və rəsmi səviyyədə təmasların intensivliyi artdı. Hindistanda fəaliyyət göstərən siyasi və təhlükəsizlik üzrə ixtisaslaşmış beyin mərkəzləri isə Ermənistan ilə əlaqələrin daha da gücləndirilməsinin vacibliyindən bəhs edən və Azərbaycanı tənqid edən yazılar dərc etməyə başladılar. Azərbaycanın 19-20 sentyabr tarixlərində keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Hindistandan Ermənistanla bağlı regionun digər aktorunu – Rusiyanı qıcıqlandıran təkliflər də səsləndirilir. Belə ki, Hind–Ermənistan Dostluq Cəmiyyətinin sədri Rananjay Anand X sosial şəbəkəsində təklif edir ki, Hindistan və Ermənistan arasında qarşılıqlı faydalı strateji tərəfdaşlıq üçün Ermənistanda Hindistan hərbi–aviasiya bazası yaradılmalıdır. Təbii ki, belə bir perspektiv Ermənistanı Rusiya ilə Hindistan arasında geosiyasi haqq-hesabların aparılacağı meydanına çevirəcək. Nyu-Dehli düşünür ki, Ermənistanda hərbi baza yaratmaqla regional proseslərə təsir göstərmək rıçaqı əldə edə biləcək. Amma belə bir perspektivə rəsmi Moskvanın isti yanaşacağı real görünmür.

Təbii ki, Nyu-Dehli özünün artan iqtisadi iştahasını ödəmək üçün strateji tranzit və nəqliyyat martşrutlarının yaradılmasında maraqlıdır. Buna görə hindlilər daha çox Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin reallaşmasına çalışırlar. İkinci Qarabağ müharibəsindən sonra aktuallaşan Zəngəzur dəhlizinin açılması perspektivi Hindistanı narahat edir. Buna görə də Nyu-Dehli belə bir strateji nəqliyyat dəhlizinin açılmasına qarşı çıxır. Hindlilər düşünürlər ki, Türkiyənin Mərkəzi Asiya regionunda güclənməsi və oradan gələn nəqliyyat dəhlizinin Azərbaycandan keçərək, Zəngəzur dəhlizi ilə Türkiyə ərazisinə qədər uzanacaq yeni bir ticarət yolu yaratması birbaşa Hindistana təhlükə yaradır. Hind mətbuatı və politoloqları Ermənistanın ərazi bütövlüyü ilə yanaşı, Zəngəzur dəhlizinin birbaşa Şimal-Cənub Nəqliyyat Dəhlizinə təhdid yaradacağından da narahatdırlar. Təsadüfi deyil ki, Hind–Ermənistan Dostluq Cəmiyyətinin sədri Rananjay Anand X sosial şəbəkəsində Prezident Rəcəb Tayyib Ərdoğanın Ermənistanın heç bir etirazı olmadan Türkiyəni Azərbaycanla quru yolu ilə birləşdirən Zəngəzur dəhlizinin açılmasına məcbur etmək üçün Naxçıvana səfər edəcəyini yazır. "Hindistan üçün də yaxşı xəbər deyil, çünki o, Kəşmirə gedən qapıya pan-Türküstan marşrutunu gücləndirməyi hədəfləyir. Hindistanın təhlükəsizliyinə təhlükəni Pakistan–Türkiyə-Azərbaycan üçlüyü planlaşdırır", – yazan P.Anand əlavə edir ki, Ermənistanda Hindistan hərbi–hava bazası haqqında düşünməyin vaxtıdır.

Doğrudur, Hindistan hələlik Azərbaycan və Türkiyə ilə sərt qarşıdurmadan qaçır, rəsmi Nyu-Dehlidən konkret açıqlamalar da eşidilmir. Hindistan hazırda Azərbaycan və Türkiyə ilə münasibətlərində ehtiyatlı xəttə üstünlük verir. Bu yanaşmanın uzunmüddətli perspektivdə daha təsirli olacağını düşünən Nyu-Dehli ümid edir ki, Azərbaycan və Türkiyə Hindistana qarşı birləşməsini çətinləşdirəcək. Bununla belə, Hindistan Azərbaycan–Türkiyə–Pakistan üçlüyünə qarşı Hindistan–Yunanıstan–Ermənistan blokonu formalaşdırmağa can atır. Rəsmi Nyu-Dehli ehtimal edir ki, Ermənistan və Yunanıstan da türk-islam üçlüyünün regional çəkisinin artmasından narahatdırlar və hər iki ölkə Azərbaycanın müttəfiqi Türkiyə ilə birlikdə həyata keçirməyə çalışdığı Zəngəzur layihəsinə qarşı çıxış edəcək. Bu məsələdə Hindistan İranın da mövqeyinə bel bağlayır. Bu baxımdan Hindistanın İran və Ermənistan ərazisindən keçərək Avropaya uzanacaq ticarət dəhlizi yaratmaq istəyinin iqtisadi maraqlardan çox, siyasi görüntü yaratmağa hesablandığı və Pakistan–Azərbaycan–Türkiyə yaxınlığına yönəldiyini söyləyən mütəxəssislər az deyil.

Əlbəttə, Hindistanı ilk növbədə iqtisadi gəlirlər maraqlandırır. Bu gün Çinin, Hindistanın, Cənubi Koreyanın və digər Asiya ölkələrinin artan iqtisadi potensialı onların Avropa ilə idxal-ixrac əməliyyatlarını həyata keçirməsini artırır. Bu baxımdan yüklərin daşınması iri şirkətlər və transmilli korporasiyalar üçün qarşıda duran mühüm problemlərdən biridir. Zəngəzur dəhlizi bu problemlərin həlli üçün ən optimal variantlardan biridir. Amma Hindistan Çinin "Bir kəmər, bir yol" layihəsinə qarşıdır və Qərbin Çinlə münasibətlərinin gərginləşməsi fonunda özünün yeni nəqliyyat marşrutunu- Hindistan - Yaxın Şərq – Avropa dəhlizini irəli sürür. Dəhlizə limanlar və dəmir yolu şəbəkələri, yaşıl hidrogen üçün boru kəmərləri və yeni yüksək tutumlu məlumat bağlantıları daxildir. Bu dəhlizin Hindistana əhəmiyyətli strateji və iqtisadi üstünlüklər verəcəyi və Asiyada Çinə qarşı çıxmaq üçün geniş imkanlar açacağı iddia edilir.Analitiklər qeyd edirlər ki, ABŞ dəhlizin bir hissəsi olmasa da, G20 qrupunda inkişaf etməkdə olan ölkələr üçün alternativ tərəfdaş və investor kimi çıxış edərək, qlobal infrastruktur sahəsində Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə qarşı çıxır.

Bununla belə, Hindistandan keçən yeni nəqliyyat dəhlizinin həyat qabiliyyəti şübhə altına alınır. Maraqlıdır ki, Yaxın Şərqdə dəmir yolu xətlərinin çəkilməsi və sonradan liman vasitəsilə Hindistanla birləşdirilməsi layihəsinin nə maliyyələşdirilməsi, nə də vaxtı barədə məlumat verilir. Layihənin dəyəri və nə vaxt başa çatdırılacağı bildirilmir. Təbii ki, regional rəqibi olan Hindistanın yeni təşəbbüsü Çində də maraqla izlənilir və "Bir kəmər, bir yol" layihəsinə bir trilyon dollar xərcləyən rəsmi Pekinin yerində sakit dayanmayağı da şübhə doğurmur. Çin Zəngəzur dəhlizinin açılmasına qarşı deyil və onun fəaliyyət göstərməsini regional inkişafa təsir göstərəcək amil hesab edir. Odur ki, Hindistanın Ermənistandan istifadə edərək Zəngəzur dəhlizinə qarşı çıxmasının ciddi nəticələr doğurmayacağı düşünülür. Zəngəzur dəhlizi zamanın tələbidir və qeyri-region ölkələrin müdaxiləsi qəbuledilməzdir.

# Zəngəzur dəhlizi niyə Hindistanı narahat edir?




***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Fransa Nigerdən çıxır




**Fransa prezidenti Emmanuel Makron bəyan edib ki, ölkəsinin hərbi kontingentini Nigerdən çıxarmaq barədə qərar qəbul edib. Məlumatı "İnterfaks.ru" verib.**

O, TF1 telekanalının efirində bildirib ki, qoşunların çıxarılması prosesi bu ilin sonuna qədər başa çatacaq. Makron Fransa səfirinin də Niameyadan geri çağırılacağını deyib.

Hər iki məsələni Higerin yeni hakimiyyəti tələb edir. Bu Afrika ölkəsindəki Fransa qoşunlarının sayı təxminən 1,5 min nəfərdir.

Makron əlavə edib: "Bizim qoşunlar Niger, Burkino-Faso və Maliyə terrorizmə qarşı mübarizə üçün gedib. Bu yaxınlarda həmin ölkələrdə dövlət çevrilişi baş verib. Sentyabrın 24-də, günün ikinci yarısında mən Niger prezidenti Bazumla (o, hərbçilər tərəfindən hakimiyyətdən uzaqlaşdırılıb – red.) telefon əlaqəsi saxlamışam. Onu islahatlar həyata keçirmək istədiyi üçün istefaya göndəriblər. Fransa öz səfirini də geri çağırmaq qərarındadır. Biz artıq Nigerlə hərbi əməkdaşlığa son qoyuruq".

Sentyabrın 24-də Fransa KİV-i də Afrikada Aeronaviqasiya Təhlükəsizliyi üzrə Agentliyə istinadən məlumat yayıb ki, Niger bütün Fransa təyyarələrinin öz ərazisindən uçuşuna qadağa qoyub.

Niger agentliyinin məlumatında deyilirdi: "Nigerin hava məkanı Fransa təyyarələri istisna olmaqla, bütün daxili və beynəlxalq kommersiya aviareysləri üçün açıqdır".

***Paşa ƏMİRCANOV***
***XQ***



# Zurabişvili impiçment qarşısında

**Gürcüstanın Konstitusiya Məhkəməsi oktyabrın 3-də ölkə Prezidenti Salome Zurabişvilinin impiçmenti məsələsinə baxacaq. Bu barədə Gürcüstan KİV-i məlumat yayıb.**

Bildirilib ki, bununla bağlı Salome Zurabişvilinin də iştirakı ilə oktyabrın 3-də yerli vaxtla saat 12:00-da şifahi dinləmə keçiriləcək.

Qeyd edək ki, sentyabrın 1-də S.Zurabişviliyə qarşı impiçmentlə bağlı hakim "Gürcü Arzusu" Partiyası imzatoplama kampaniyasına başlayıb. S.Zurabişvili avqustun 31-də Gürcüstanın Avropa İttifaqına namizədliyinin dəstəklənməsi üçün xarici dövlətlərin liderləri ilə görüşmək məqsədilə Avropaya səfər edib. Gürcüstan hökuməti isə onun bu səfərini qəbuledilməz sayıb.

Hakim partiya Zurabişvilini Gürcüstan Konstitusiyasının 52-ci maddəsini pozmaqda ittiham edib.

Qeyd edək ki, müxalifətin dəstəyi olmadan "Gürcü Arzusu" və "Xalq Gücü" hərəkatının üzvlərinin təmsil olunduğu parlament çoxluğu impiçment prosedurunu başa çatdıra bilməyəcək, çünki ən azı 100 səs lazımdır və çoxluğun hazırda cəmi 83 üzvü var.

***XQ***

Günün xəbəri




## Şuşa İslam dünyasının da mədəniyyət paytaxtı elan edildi

**Dohada keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransı yekdil qərarla Şuşa şəhərini 2024-cü il üzrə "İslam dünyasının mədəniyyət paytaxtı" adına layiq görüb.**

Şuşanın "İslam dünyasının mədəniyyət paytaxtı" adına namizədliyinin irəli sürülməsi məqsədilə ICESCO-nun müvafiq missiyası burada olub, şəhərdə aparılan quruculuq işləri yüksək qiymətləndirilib.

Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Şuşanın mədəni irsinin, mədəni, tarixi və dini abidələrinin bərpa etdirilməsini diqqətə alan İslam dövlətləri, yekdil qərarla Şuşa şəhərini növbəti il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan ediblər. Qeyd edək ki, Şuşanın namizədliyinin irəli sürülməsi prosesinə ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım mühüm dəstək göstərib.

Xatırladaq ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2022-ci il Azərbaycanda "Şuşa İli" elan olunub. Şuşa bu il "Türk dünyasının mədəniyyət paytaxtı"dır.

Bu gün Şuşa şəhəri beynəlxalq tədbirlərə, böyük mədəniyyət layihələrinə ev sahibliyi edir. Bu qədim şəhərimizdən dünyaya sülh, birlik və humanizm mesajları verilir.

***XQ***

Təqvim yada salır

## Kinomuzun unudulmaz Şahmar Ələkbərovu

**Həftə sonu Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyinin, Azərbaycan Kino Agentliyinin və Dövlət Film Fondunun təşkilatçılığı ilə Xalq artisti Şahmar Ələkbərovun 80 illik yubileyinə həsr edilmiş xatirə gecəsi keçirilib.**



Gecədə sənətkarın sənət dostları – aktyor və rejissorlar, tələbələri, kino və teatr ictimaiyyəti iştirak ediblər.

Mərasimdə Əməkdar incəsənət xadimi Cəmil Quliyev Xalq artisti Şahmar Ələkbərovun kinoda və ümumilikdə, Azərbaycan mədəniyyətində rolundan bəhs edib. Bildirib ki, Şahmar Ələkbərov istər aktyor, istərsə də rejissor kimi öz dəst-xətti ilə yadda qalan sənətkarlardandır.

Rejissor Elxan Cəfərov isə yaradıcılığına sevgisindən danışıb. Deyib ki, hələ uşaqkən Şahmar Ələkbərovun rollarını maraqla izləyib.

Tədbirdə çıxış edən Azərbaycanın Xalq artistləri Şəfiqə Məmmədova, Vaqif Mustafayev, Tariyel Qasımov, Həmidə Ömərova, Fəxrəddin Manafov, Əməkdar artist Loğman Kərimov və Əməkdar incəsənət xadimi Ayaz Salayev Şahmar Ələkbərovla bağlı xatirələrini bölüşüblər.

Sənət dostları aktyorun ömür və sənət yolundan, Azərbaycan mədəniyyətində, kino sənəti tarixində yerindən, aktyorluq, rejissorluq və müəllimlik fəaliyyətindən bəhs ediblər.

Əbdül Mahmudov Şahmar Ələkbərovun aktyor və rejissor kimi hər zaman işinə məsuliyyətlə yanaşmasından və onun uğurundan söhbət açıb: "O, vətənpərvər insan, ölkə kinosuna yeni nəfəs verən bir şəxs olub".

Gecəyə Xalq artisti Mənsum İbrahimovun və Əməkdar artist Ceyla Seyidovanın ifaları xoş əhval gətirib.

***QURBANLI. R***
***XQ***

Yeni teatr mövsümü

## "Balaca kişilər"in böyük zəfəri

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında İlqar Fəhminin pyesi əsasında Nicat Kazımovun quruluş verdiyi "Balaca kişilər" tamaşasının premyerası olub. Teatr 27 Sentyabr Anım gününə həsr etdiyi bu tamaşa ilə həm də yeni mövsümü açıb.**

"Balaca kişilər" poeması 44 günlük "Zəfər Yürüşü" dövründə ərsəyə gəlib. Əsər Gənc Tamaşaçılar Teatrının Vətən müharibəsi mövzusunda elan etdiyi müsabiqədə qalib olub. Quruluşçu rejissor, Əməkdar artist Nicat Kazımov bildirib ki, poemanı səhnələşdirmək üçün müəlliflə əlbir çalışıblar: "Uzun müzakirələrdən sonra ortaya çox maraqlı bir əsər qoyuldu. Tamaşada dərsini oxumayan bütün günü telefonla oynayan, uşaqlar bizə böyük qalibiyyət dərsi verdilər. Bu əsər məhz həmin uşaqlar haqqındadır".

Gənc Tamaşaçılar Teatrının 96-cı mövsümünün ilk premyerasında dövlət rəsmiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, media mənsubları, şəhid ailələri və ictimaiyyət nümayəndələri, əsasən gənclər iştirak ediblər.

Teatrla yaradıcı əməkdaşlıq edən "İRƏLİ" İctimai Birliyinin sədri Şahin Rəhmanlı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində Azərbaycan Ordusunun tarixi qələbəsindən, xalqımızın göstərdiyi birlik və həmrəylikdən söhbət açıb.

Tamaşa İlqar Fəhminin poemasından bir parçanın Nicat Kazımovun ifasında səslənməsi ilə başlayır. Səhnə arxasından eşidilən misralar sanki hadisələrə giriş verməklə bərabər tamaşaçını səhnədə cərəyan edəcək hadisələrə kökləyir.

Azərbaycan hərbiçilərinin libasında olan aktyorlar əvvəlcə tamaşaçıya balaca uşaqlar kimi görünür, hadisələr irəlilədikcə onlar gözümüzdə böyüyürlər.

Gənclərin Vətən sevgisi sonda qələbə ilə nəticələnir. "Balaca kişilər" şəhadəti, qaziliyi mərdi-mərdanə qəbul edirlər.

Vətən müharibəsinin acısını və qələbənin şirinliyini tamaşaçıya yaşada bilən



tamaşanın quruluşçu rəssamı Vüsal Rahimdir. Döyüş və fəndlərin quruluşunu İsa Əsədov, musiqi tərtibatını Zaur Rəşidov verib.

Tamaşada əsas rollarda Əməkdar artistlər Şövqi Hüseynov, Rasim Cəfər, Elnur Bəhramxan, aktyorlar Rəşad Səfərov, Anar Seyfullayev, Araz Pirimov, Bəhram Əliheydər, Nurlan Süleymanlı, Xaliq Bəkirov, Hüseyn Bayramov, Ümman Budaqov, İlhan Sadıqov, Ramiq Nəsirov, Müşfiq Əliyev, Ceyhun Məmmədov, Mirzəağa Mirzəyev oynayırlar. Əməkdar artist Şövqi Hüseynov düşmən əsgərinin obrazını məharətlə yaradır. Düşmənin bütün hiyləgərliyini, məkrini aktyor yalnız dili ilə deyil, həm də jestləri, baxışları ilə ifadə edir.

Sonda tamaşaçıların qarşısına baş əyməyə gəlmədiyini isə Əməkdar artist belə əsaslandırdı: "Səhnədə Azərbaycan əsgərlərinin sırasında düşmən obrazının görünməsini istəmədim".

Tamaşa axşamının ən təsirli səhnəsi isə sonda şəhid ailələrinin üzvləri, şəhid analarının və qazilərin səhnəyə dəvət olunmaları oldu. Aktyorlar obrazlarını yaratdıqları qəhrəmanların yaxınları ilə əl-ələ tutaraq alqışlandılar.

***R. QURBANLI***
***XQ***

# Ruhumuzun pərvaz elədiyi şəhər

***Sən dağların başında mirvarisən, incisən,***
***Şəhərlər sırasında dünyada birincisən!***



Şuşa haqqında oxuduğum şeirlər içərisindən bu misraları seçməyim təsadüfi deyil. Çünki bu il TÜRKSOY-un qərarı ilə "Türk dünyasının mədəniyyət paytaxtı seçilən Şuşa dünən – sentyabrın 25-də Qətərin paytaxtı Doha şəhərində keçirilən mötəbər tədbirdə ISESCO tərəfindən 2024-cü il üçün İslam dünyasının da paytaxtı elan olunub.

Nadir şəhərsalma və memarlıq sənətinin açıq səma altında möhtəşəm muzeyi olan 270 yaşlı Şuşa Qarabağın tacıdır, 3 il əvvəl onun azad edilməsi ilk növbədə mənəvi qələbəmiz sayılır. Burada "Zəfər Yürüşü" zamanı bizim Şuşaya nə üçün qırıcı təyyarələrsiz, PUA-larsız, tank-topsuz hücum etdiyimizin əsas səbəbini bir daha xatırlatmaq yerinə düşər. Ona görə belə etdik ki, milli namus dərgahımız, ana qucağımız sayılan Şuşaya qıya bilməzdik. Əgər oraya tam arsenalla hücuma keçsəydik, köksü yaralanardı, daşları çatlayardı, ulu babaların ruhu bizdən inciyərdi. Şuşanı az qala əliyalın alan igidlərimiz bu yolda itkilər də verdilər, amma tac-şəhəri dağıntılardan qoruya bildilər. Onun qoynunda şəhadətə qovuşmağı İlahinin böyük lütfü kimi qəbul etdilər. Yenicə alınan Şuşada səslənən ilk azan sədaları dağlarda əks-səda verdikcə rəhmətliklərin hamısının ruhu şad oldu.

Vaxtilə Şuşada xeyli dini ziyarətgah vardı. 17 məscid – Aşağı və Yuxarı Gövhər Ağa məscidləri, Saatlı, Malıbəyli, Qaybalı, Şırlan məscidləri, 3 türbə, "Həzrət Əli" kahası, 2 mədrəsə, Saqqaxana və Pirgah pirləri bu qəbildəndir. Mirzə Həsən və Mirfəseh qəbiristanlıqları, məzarüstü abidələr, Seyid Məcidin mülkü, Çuxur məhəllədə 2 minarəli "Şəfa ocağı", İbrahim Xəlil xanın 1801-ci ildə tikdirdiyi mədrəsə kompleksi (Gövhər Ağanın məscdinin həyətində), Qarabağ xanlığının vəziri Mirzə Cəmal bəy Cavanşirin və onun ailəsinin məqbərə kompleksi, tarixin yaddaşı olan Daş Kitabələr və sair Şuşanın simvolları idi. Şuşanın din xadimləri, seyidləri bütün Qarabağda məşhur idi.

Prezident İlham Əliyevin dediyi kimi, 30 illik işğal zamanı ermənilər dini abidələrimizə daha qəddar yanaşaraq, məscidlərimizi təhqir etmişdilər, sökmüş, qalanlarında donuz otarmış, saraylarımızı sökmüşdülər ki, müsəlman izi qalmasın. Kafirlər qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Amma nə sovet dönəmindəki beynəlmiləlləşdirmə cəhdləri, nə də işğal dövrünün erməniləşdirmə səyləri, vandallıq əməlləri Şuşanın əsl müsəlman şəhəri kimi simasını dəyişdirə bilmədi.

Qarşıdakı ildə "İslam dünyasının paytaxtı" elan edilmiş Şuşada Zəfər Yürüşündən sonra aparılan bərpa işləri məhz dövlət nəzarəti ilə həyata keçirilir. Şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılıb. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Bir sözlə, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun həyatına qovuşmaq yolundadır.

Heydər Əliyev Fondu tərəfindən Şuşanın bərpa kontekstində ilk olaraq Yuxarı Gövhər Ağa, Aşağı Gövhər Ağa və Saatlı məscidlərinin bərpa-təmir işlərinə aparılması bütün imanlı soydaşlarımızın ürəyindən xəbər verir. Onu da minnətdarlıqla xatırlayırıq ki, 2021-ci ilin yanvarında Şuşaya gələrək, Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı, məscidlərini ziyarət edən Azərbaycan Prezidenti bu müqəddəs inanc yerlərimizə Məkkədən gətirdiyi "Qurani-Şərif"i bağışlamışdır. Şuşanın qədimliklə müasirliyin vəhdətində yenidən tikilməsi, onun əsl simasının bərpası baxımından önəmlidir. Ruhumuz pərvaz eləyir özgə bir lətafəti olan Şuşamızın göylərində!

Ötən il Ağdama səfəri zamanı Prezident İlham Əliyev Cümə məscidində aparılan işlərlə tanışlıq zamanı vurğulayıb ki, Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir: "Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi başlamışdır. Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu bizim borcumuzdur. Bunu biz edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk".

Onu da deyək ki, Şuşadakı bütün digər tarix-mədəniyyət abidələrimiz kimi, Qazançı kilsəsi də bərpa edilir, onun XIX əsrdəki ilkin bədii-estetik görkəminə uyğun bərpa edilməsi reallaşdırılır. Bu həm də bizim tolerantlığımızı bir daha dünyaya göstərir.

İnanırıq ki, ISESCO-nun qərarı bütün müsəlman dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevriləcək, möhkəm inanclı dindaş ölkələr arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə sanballı töhfələr verəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Mədəniyyət xəbərləri

## Üzeyir Hacıbəyli festivalı davam edir

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 18-də başlanmış ənənəvi Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində yaddaqalan tədbirlər keçirilir.**



Gürcüstanın tanınmış pianoçusu, UNESCO-nun sülh uğrunda artisti, Batumi Musiqi Festivalının təsisçisi Elisso Bolkvadzenin iştirakı ilə Heydər Əliyev Mərkəzində maraqlı musiqi proqramı təqdim edilib.

Konsertdən əvvəl Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze deyib ki, cari il Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi təntənə ilə qeyd edilir. Ulu Öndərin müasir Azərbaycanın güclənməsində çox böyük rolu olub. Buna görə də tədbir ulu öndərin yubileyinə həsr edilib.

Eyni zamanda Gürcüstan parlamentinin mədəniyyət komitəsinin sədri olan Elisso Bolkvadze də çıxışında xalqlarımızın dostluq münasibətlərini yüksək dəyərləndirib. Gecədə Azərbaycan və xarici ölkə klassiklərinin əsərləri səslənib.

## Rəqqaslarımız ABŞ-da



**Tanınmış Azərbaycan rəqqasları Eldar Cəfərov və Anna Sajina ABŞ-nin Florida ştatının Orlando şəhərində keçirilən Rəqs çempionatında (USDC Open Championship – 2023) qalib olublar.**

Ailə cütlüyü 1971-ci ildən keçirilən müsabiqənin bal rəqsləri üzrə turnirində uğur qazanıb. Qeyd edək ki, beşqat dünya çempionu olan Eldar Cəfərov və Anna Sajina uzun illərdir Azərbaycanı bal rəqsi ilə dünya səhnələrində uğurla təmsil edirlər. Bu ilin yayında rəqqas cütlük Yaponiya Açıq Çempionatının qalibi olmuşdu.

## Azərbaycan filmi qitələri gəzir

**"Ultra Production" şirkətinin istehsalı olan "Məhvolma" qısametrajlı bədii filmi festival səyahətini davam etdirir.**

Filmin rejissoru və ssenari müəllifi İqor Smola, quruluşçu operatoru Natiq Hüsiyev, rəssamı Aysel Əmirova, prodüserləri Emil Nəcəfov, Elvin Adıgözəl, İqor Smola və Yekaterina Bordaçovadır. Əsas rollarda Vüsalə Ağayeva, Asiman Ağa Rövşən, Rahib Məmmədzadə, Nurlan Həsənli çəkiliblər.

Ekran işi dünya premyerasını Busan Beynəlxalq Film Festivalında (Koreya) edib. Film daha sonra Asiya Beynəlxalq Kino Həftəsində (Çin), Los-Anceles Cənub-Şərqi Avropa Filmləri Festivalında (ABŞ), "Land of Short Films" Beynəlxalq Film Festivalında (Qırğızıstan) təqdim olunub.

Filmin Avropa premyerası isə oktyabr ayında Linz Beynəlxalq Qısametrajlı Film Festivalında (Avstriya) olacaq.



***Hazırladı:***
***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 208 (30324) 26 sentyabr 2023-cü il, çərşənbə axşamı

İdman xəbərləri

# Parataekvondoçumuz dünya çempionu olub

**Azərbaycan parataekvondo millisi Meksikanın Verakrus ştatında keçirilən dünya çempionatında 2 medal qazanıb.**



Təmsilçimiz İmaməddin Xəlilov (K-44) dünya çempionu tituluna sahib olub. 70 kiloqram çəkidə qüvvəsini sınayan idmançı ilk döyüşündə ispaniyalı parataekvondoçu ilə üz-üzə gəlib. Həmyerlimiz dünya və Avropa çempionunu 7:3 hesabı ilə məğlub edib. O, ardınca gürcüstanlı idmançını mübarizədən kənarlaşdırıb – 16:2. İmaməddin yarımfinalda Kuba təmsilçisi ilə döyüşüb. Gərgin keçən görüşdə yığma üzvü 12:9 hesabı ilə qələbə qazanıb.

Parataekvondoçumuzun finalda rəqibi özbəkistanlı olub. Xəlilov bu dəfə 5:2 hesabı ilə qalib gələrək, dünya çempionu adına yiyələnib və Meksikada Azərbaycan himnini səsləndirib.

Komandamızın digər üzvü Əbülfəz Abuzərli (80 kq, K-44) də fəxri kürsüyə yüksəlib. O, yarımfinalda məğlub olaraq yarışı bürünc medalla başa vurub.

Dünya çempionatındakı uğur parataekvondonun Yay Olimpiya Oyunlarına daxil edilməsindən sonra ilk qızıl medal kimi tarixə düşüb.

# Qızıl medal, Paralimpiya Oyunlarına lisenziya

**Güllə atıcımız Kamran Zeynalov Perunun Lima şəhərində keçirilən dünya çempionatının qızıl medalını qazanıb.**




Paralimpiyaçımız 50 metr məsafəyə atışda 220.5 xal toplayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Azərbaycan atleti bu nəticəni əldə etməklə "Paris-2024" XVII Yay Paralimpiya Oyunlarına birbaşa lisenziya qazanıb.

# "Marsel Open" turnirində 5 medal

**Fransada keçirilmiş "Marsel Open" turnirində Azərbaycan karateçiləri uğurla çıxış ediblər. Komandamızın üzvləri 2-si qızıl, 1-i gümüş, 2-si isə bürünc olmaqla 5 medal qazanıblar.**



Qızıl medalları komandamızın aktivinə Asiman Qurbanlı (+84 kq) və Əzim Rahib (+76 kq) yazdırıblar. Finalda uduzan Rəşid Süleymanov (76 kq) gümüş medalla kifayətlənib. Turqut Həsənov (84 kq) və Mədinə Sadiqova (55 kq) isə 3-cü yeri tutublar.

*Leyla SABİRQIZI*
XQ

Texnologiya yenilikləri



# NASA "Bennu" asteroidində

**NASA-nın hazırladığı OSIRIS-REx kosmik gəmisi son 2 il 2 aylıq səyahətdən sonra "Bennu" asteroidinə çatıb.**

Bu barədə araşdırmalar aparan NASA, kosmik gəmi vasitəsilə asteroiddən real nümunələr toplamağı bacarıb. Əldə olunan 60 qramlıq nümunənin kosmik gəmi ilə birlikdə araşdırılması nəzərdə tutulur.

Qeyd edək ki, 2016-cı ildə "Atlas V" raketi ilə orbitə buraxılan OSIRIS-REx, "Bennu" üzərində apardığı araşdırmada su molekulları tapılmışdı.

NASA-nın ötən il apardığı tətqiqatlar nəticəsində isə "Bennu"nun xarici səthini meydana gətirən hissəciklərdə heç bir şey aşkar edilmədiyi haqqında məlumat verilmişdi.

*S. FİDAN*
XQ

# "Twitter" "Çevrə" ilə vidalaşır



**Yeni adı "X" olan "Twitter" sosial şəbəkəsi daha bir funksiyasını ləğv edəcəyini açıqlayıb. Yayılan məlumatlara görə, "X" rəhbərliyi "Instagram"dakı "yaxın dostlar" funksiyasına bənzəyən "Çevrə" özəlliyini siləcəyini bildirib.**

Xəbərdə həmçinin qeyd olunur ki, oktyabrın 31-dən sonra bu funksiyadan istifadə etmək mümkün olmayacaq.

XQ

# BİLDİRİŞ

"Azəristiliktəchizat"ASC-nin təsərrüfat mallarının satın alınması məqsədilə 2023-cü il avqustun 23-də elektron portal vasitəsi ilə keçirilmiş açıq tenderin nəticələrinə əsasən "İntellekt M.A" MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il sentyabrın 21-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

*Tender komissiyası*

Kainat

# Kosmosa doğru ilk uçuş

**İki ingilis alimi 19-cu əsrdə az qala kosmosa uçacaqmış. Bu cəsur elm adamları atmosferin yuxarı hissəsində ölümdən möcüzəli şəkildə xilas olublar.**



Meteoroloq Ceyms Qleyşer və aeronavt Henri Koksuell elmi məqsədlər üçün hava şarında maksimum hündürlüyə qalxıblar. Onlar yer üzündə meteoroloji vəziyyətə hansı atmosfer amillərinin təsir etdiyini öyrənəcəkmişlər. Təxminən, 9 min metr hündürlükdə Qleyşer huşunu itirib. Koksuell də özünü pis hiss etdiyinə görə, böyük çətinliklə hidrogenin bir hissəsini buraxmaq və balonu yerə endirmək üçün manevr klapanını açıb. Ən ağır vəziyyətdə ikən tale onlardan mərhəmətini əsirgəməyib və möcüzəli şəkildə ölümdən qaça biliblər. Əks-təqdirdə şar bu cəsur insanları qaçılmaz ölümün gözlədiyi atmosferdən kənara aparacaqmış.

Güman edilir ki, aeronavtların səhhətinin pisləşməsinə soyuq və oksigen çatışmazlığı səbəb olub. O da ola bilər ki, onlar dekompressiyadan (çox tez suyun səthinə qalxdıqları halda dalğıclarda baş verən dekompressiya xəstəliyi) əziyyət çəkiblər.

Bu hadisə aviasiya tarixinə ən təhlükəli uçuşlardan biri, insanın kosmosa ilk qalxma cəhdi kimi daxil olub. Ceyms Qleyşer 5 sentyabr 1862-ci ildə olmuş bu eksperimentdən sonra 21 uçuş da edərək hava hadisələrinin öyrənilməsində əsas rol oynayan müşahidələr aparıb. O, yağış damcılarının necə əmələ gəldiyini, küləyin sürətinin nəyə görə dəyişdiyini öyrənib.

*L.QURBANOVA*
XQ

Maqazin

# Aktrisa "dördqat" ana olub

**Rusiya KİV-ləri xəbər verir ki, xəstəxanadan fotosunu paylaşan sənətçi "4-cü dəfə ana oldum. Xoş gəldin" şərhini yazıb. Mariya Kojevnikovanı bu münasibətlə sənət dostları da təbrik ediblər.**



Qeyd edək ki, iş adamı Yevgeni Vasilyevlə ailəli olan M.Kojevnikovanın 3 oğlu var. Mariya dördüncü övladının oğlan ya qız olduğunu açıqlamayıb.

*AYTƏN*
XQ

Teatr

# "Albalı bağı" Bakı səhnəsində




**Oktyabrın 20-21-də Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında A.P.Çexovun eyniadlı pyesi əsasında "Albalı bağı" tamaşasının premyerası olacaq.**

Tamaşanın quruluşçu rejissoru Azərbaycanın Xalq artisti Aleksandr Şarovskidir.

Tamaşada rolları Azərbaycanın Xalq artistləri Natalya Şarovskaya, Fuad Osmanov, Ayan Mir-Qasımova, Əməkdar artistlər Mariya Dubovitskaya, Murad Məmmədov, Teymur Rəhimov, Yuri Omelçenko, Həcər Ağayeva, Salman Bayramov və digərləri oynayacaqlar.

XQ

# Güləş millimiz dünya çempionudur

**Serbiyanın paytaxtı Belqradda keçirilən güləş üzrə dünya çempionatına yekun vurulub.**



Yunan-Roma güləşi üzrə milli həm medalların əyarına, həm də toplanan xallara görə də dünya çempionatlarında Azərbaycan güləş yığmaları tarixinin ən yaxşı nəticəsinə imza atıb.

İki qızıl, üç gümüş medal qazanan yığma 120 xal toplayaraq ilk dəfə komanda hesabında dünya çempionu olub.

Xatırladaq ki, bu yarışda Eldəniz Əzizli (55 kiloqram) ilə Rafiq Hüseynov (82 kiloqram) dünya çempionu olub. Murad Məmmədov (63 kiloqram), Həsrət Cəfərov (67 kiloqram) və Sənan Süleymanov (77 kiloqram) isə gümüş medal qazanıb. Komanda 67 və 77 kiloqramda Olimpiadaya lisenziya əldə edib.

L.AZAD
XQ

Maraq dünyamız

# Alliqator insanı udub

**Florida ştatının Tampa şəhərində yerləşən "Florida nəbatat bağı"ndakı kanalda ağırlığı 13 fut olan alliqatorun ağzında insan qalıqları aşkar edilib. Sakinlərdən Jamarcus Bullard kanalın ətrafında gəzişərkən heyvanın insan cəsədini suyun dibinə çəkdiyini görüb. O, kömək məqsədilə yaxınlıqdakı yanğınsöndürmə məntəqəsinə müraciət edib.**



J.Bullard "Tampa TV" kanalına bu barədə danışarkən deyib: "Adətən, işə getməmişdən əvvəl bağı səyahət edirəm. Hər gün bu kanalın yanından ötüb keçirəm. Bu gün isə bədbəxtlikdən belə bir hadisənin şahidi oldum. Düşünürəm ki, gələn dəfə daha diqqətli olmalıyam".

Statistikaya görə, alliqator hücumlarına olduqca nadir hallarda rast gəlinir. Bu il Floridada ölümlə nəticələnən hücumlarla bağlı cəmi 2 xəbər var.

Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinin (CDC) məlumatları da göstərir ki, 1999–2019-cu illər arasında ABŞ-ın cənub-şərqində cəmi 10 ölümcül alliqator hücumu baş verib.

*F. SALMANOVA*
XQ

Hadisə

# Kürdəmirdə qaz partlayışı

**Kürdəmir rayonunda evdə qaz balonu partlayıb, xəsarət alanlar var. Məlumata görə, hadisə Çöhranlı kəndində qeydə alınıb. Partlayış zamanı ev sakinləri - ər və arvad ağır yanıq xəsarətləri alıblar.**



Yaralılar dərhal təcili tibbi yardım maşını ilə Kürdəmir Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Həkimlər onların vəziyyətini ağır qiymətləndirir və müalicənin davamı üçün Bakı şəhərinə göndəriləcəyini söyləyiblər.

XQ

✓ "LEGAL STONE" MMC adını dəyişərək bundan sonra "CONFİDE GROUP" MMC adlandırılacaqdır.

✓ Azərbaycan Karlar Cəmiyyəti İctimai Birliyi Mərkəzi İdarəetmə heyətinin ümumi yığıncağı 2 oktyabr 2023 -cü il saat 10.00-da keçiriləcəkdir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5027
SİFARİŞ 2493
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00